92

# AZƏRBAYCAN ALİ PEDAQOJİ İNSTİTUTU

## آذربايجان عالى پەداغوژى اينستيتوتى

## بش ييللق




*Prof. Fərrux Rüstəmovun təqdimatında*

# AZƏRBAYCAN ALİ PEDAQOJİ İNSTİTUTU

**Beş illik**

آذربایجان عالی پەداغوژی اینستیتوتی

بش ییلیق

**II Kitab**

***Prof. Fərrux Rüstəmovun təqdimatında***

"Elm və təhsil"
Bakı -2020

QYUK 2692
AŞM
Fonduna qəbul olundu
ĐK 7293

Azərbaycan Dövlət Pedaqoji Universitetinin
100 illik yubileyinə həsr olunur

**Layihənin rəhbəri
və elmi məsləhətçi:** **Cəfər Cəfərov**
*ADPU-nun rektoru,
tarix elmləri doktoru, professor*

**Tərtib, transliterasiya,
izahlar, şərhlər və
"Ön söz"ün
müəllifi:** **Fərrux Rüstəmov**
*pedaqoji elmlər doktoru, professor,
Əməkdar elm xadimi*

**Elmi redaktoru:** **Yaqub Babayev**
*filologiya üzrə elmlər doktoru, professor*

**Azərbaycan Ali Pedaqoji İnstitutu. Beş illik.**
(Tərtib, transliterasiya, izahlar, şərhlər və "Ön söz"ün müəllifi:
**prof.F.A.Rüstəmov). Bakı, Elm və təhsil, 2020, 144 səh.**

*Məcmuə ilk dəfə 1926-cı ildə "Qızıl Şərq" mətbəəsində Azərbaycan Dövlət Xalq Nəşriyyatı tərəfindən Azərbaycan Ali Pedaqoji İnstitutun beş illiyi və üçüncü buraxılışı ilə əlaqədar olaraq "Ali Pedaqoji İnstitut. Beş illik" adı ilə nəşr olunmuşdur. Məcmuədəki məqalələr "Ali Pedaqoji İnstitutu tarixçəsi","Tədris və tərbiyə işləri","İdarə və təşkilat işləri", "Xatirələr və duyğular" adlı bölmələrdə verilmişdir.*

*Məcmuə tələbələr, magistrantlar və təhsil tarixçiləri üçün nəzərdə tutulmuşdur.*

4603000000 / N-98-2020 qrifli nəşr

© F.A.Rüstəmov, 2020

ASM
Fonduna qaytarılanda



## ALİ PEDAQOJİ İNSTİTUTUN İLK YUBİLEYİ VƏ YA BEŞ İLLİK TARİXİN SALNAMƏSİ
### ("Ön söz")

Məşhur fransız tarixçisi Mark Blok deyirdi:***"Keçmişi bilməmək təkcə indinin dərkinə zərər gətirmir, o həm də gələcəyə nüfuz etmək təşəbbüslərini təhlükə altına qoyur"***. Həqiqətən də tarixin təcrübəsi -tarixiliyin anası, onun genetik mənşəyidir. E.Berq isə yazırdı: ***"Tarix ölənlər, qalanlar və hələ doğulmamışlar arasında bir bağdır"***. Bu bağ, bu tarixi əlaqə nəticəsində millət keçmişi dərk edir, bu gün baş verənləri anlayır, fikrən keçmişin dərinliklərinə endikcə, gələcəyi, perspektivləri aşkar edir, geriyə nəzər yetirməklə irəliyə doğru addımlayır. Deməli, ***millət öz tarixi ilə özünü ifadə edir.***

Unutmaq olmaz ki, hər bir millət gələcəyə tarixinin çiynində gedir. Fransua-Mari Arue (Volter) ona görə də deyirdi ki, ***tarix generalların, kralların tarlası deyil, millətlərin tarlasıdır. Hər millət keçmişdə bu tarlaya nə əkmişsə, gələcəkdə onu biçəcək.*** Hər bir millət öz tarixi ilə kimliyini ifadə edir.Tarix ona görə yazılır ki, millət onu oxusun və ondan dərs alsın.

Keçmişin təcrübəsi və müdrikliyi gənc nəslə məhz tarix vasitəsi ilə çatdırılır. Bu səbəbdən də keç-

mişi unutmaq olmaz, çünki o, gələcəyin müəllimidir. Təkcə bu günü deyil, sabahı – gələcəyi dərindən dərk etmək və qiymətləndirmək baxımından da keçmişi yaxşı bilmək lazımdır. Keçmiş bu günlə bağlı olduğu kimi, gələcəklə də sıx əlaqədardır. Bu gün dünənin, sabah isə bu günün bətnindən doğduğuna görə bu gündə dünənin, sabahda isə bu günün izləri olur. Bir çox məsələlərdə gələcək üçün zəmin təşkil edən bu günün ağıllı, qabaqcıl fikirləri keçmişin mütərəqqi irsi ilə sıx bağlı olur. Həmin irs bu gün də insanın ağlına, zəkasına qida və qüvvət verir, eyni zamanda gələcək üçün perspektivləri daha yaxşı aydınlaşdırmaqda ona yardım göstərir, müasir dövrün dərkinə kömək etmək edir.

Təhsil və maarif tarixi millətin mədəniyyət tarixinin çox mühüm və dəyərli səhifəsidir. Təhsil tarixi millətin mədəni inkişaf tarixinin, onun dünyagörüşünün inkişaf mərhələlərinin güzgüsüdür.

Yeni tip təhsil ocağının (ibtidai, orta və ya ali) yaranması cəmiyyətin iqtisadi-siyasi və mədəni inkişafının məhsuludur. Cəmiyyətin inkişafının müəyyən mərhələsində meydana gələn məktəb sonrakı dövrlərdə nisbi müstəqillik kəsb etməklə yanaşı, həm də cəmiyyətin tərəqqisinin başlıca amilinə çevrildi, inkişafın, mədəni yüksəlişin əsas şərti və göstəricisi oldu. ***Məktəb millətin böyüyən nəslin təlim-tərbiyəsi ilə bağlı təcrübəsini, təhsil, elm və mədəniyyət sahəsindəki nailiyyətlərini yazıya alaraq qoruyub***





***saxladı və cəmiyyətin irəliyə doğru inkişafının hərəkətverici qüvvəsinə çevirdi.***

Təhsil mədəniyyəti tarixi inkişafın məhsuludur. Qərinələr bir-birini əvəz edir, dünya insan nəsilləri ilə bir yandan dolur, bir yandan boşalır, ancaq təhsillə bağlı faktlar, nəzəriyyələr, ciddi ümumiləşdirmələr qalır və mənəvi abidələrə çevrilir. Sistemə salınaraq saxlanılan bu ideyalar öz tarixi, sosial və pedaqoji dəyərini heç vaxt itirmir: ya təhsil tarixini zənginləşdirən elmi faktlar kimi çıxış edir, dövrün xarakterik pedaqoji ruhuna çevrilir, ya da hər zaman müraciət edilə biləcək dəyərli mənbələr kimi istifadə məqamını gözləyir.

Azərbaycanın təhsil tarixində də istifadə məqamını gözləyən belə mənbələr və arxiv sənədləri çoxdur. İlk mənbələrin çoxu ərəb, fars dillərində və əski əlifba ilə yazıldığından nəinki bakalavriatlar, magistrantlar, hətta bu sahədə tədqiqat aparanların böyük əksəriyyəti ilk məxəzlərdən səmərəli istifadə edə bilmirlər.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin təşəkkülü və inkişafının ilk mərhələsini (1921-1927) öyrənmək baxımından Ali Pedaqoji İnstitutun ilk məzun günü ("Ali Pedaqoji İnstitutu salnaməsi")[1] və

[1] *1924-cü ildə nəşr edilən "Ali Pedaqoji İnstitutu salnaməsi" məcmuəsi yenidən nəşr olunmuşdur. Bax: "Ali Pedaqoji İnstitutun salnaməsi".(Tərtib, transliterasiya, izah və "Ön söz"ün müəllifi **prof.F.A.Rüstəmov**). Bakı:Elm və təhsil, 2020, 176 s.*

beş illiyi münasibəti ilə buraxılan ("Azərbaycan Ali Pedaqoji İnstitutu. Beş yıllıq") məcmuələr xüsusi aktuallıq kəsb edir. Hər iki məcmuə əski əlifba ilə nəşr edildiyindən Pedaqoji Universitetin tarixi ilə bağlı araşdırma aparanlar həmin mənbələrdən səmərəli bəhrələnə bilməmişlər. Bu səbəbdən də universitetin tarixi ilə bağlı xeyli fakt və hadisələr təhrif edilmiş, yanlış yanaşmalar və fikirlər ayrı-ayrı nəşrlərdə təkrarlanmışdır. Həmin məcmuələr Pedaqoji Universitetin inkişafının ilk mərhələsini öyrənmək baxımından olduqca dəyərli və nadir mənbələrdəndir.

***"Azərbaycan Ali Pedaqoji İnstitutu. Beş yıllıq"*** (1926) məcmuəsi Pedaqoji İnstitutun 5 illiyi və 3-cü buraxılışı münasibəti ilə nəşr edilmişdir.

Azərbaycanda ilk Ali Pedaqoji İnstitut böyük dövlət və siyasi xadim ***Nəriman Nərimanovun*** 26 avqust 1921-ci ildə imzaladığı 66 saylı dekret[2] əsasında fəaliyyətə başlamışdır.*"Birinci Azərbaycan Dövlət Kişi Pedaqoji İnstitutunun təşkili haqqında"* Azərbaycan Xalq Komissarları Sovetinin 26 avqust 1921-ci il tarixli 66 saylı dekretində deyilirdi: *"Respublikanın vahid əmək məktəbinin ideyalarını həyata tətbiq etməyə qabil yüksək- ixtisaslı maarif işçiləri hazırlamaq məqsədilə bu ilin sentyabr ayının 1-dən etibarən Bakı şəhərində II dərəcəli şura məktəbləri üçün türk[3] dilində müəllimlər hazırlaya biləcək Azərbaycan Dövlət Kişi Pedaqoji İnstitutu təsis edilsin. İnstitutun təşkilinə həmin dekretin nəşrindən dərhal sonra başlanılsın."*

[2] *"Kommunist" qəzeti, 26 avqust 1921*
[3] *Azərbaycan*





Azərbaycanda milli dildə ali məktəb yaratmaqla bağlı Xalq Komissarları Soveti siyasi iradə nümayiş etdirərək Ali Pedaqoji Kişi İnstitutunun təşkili ilə bağlı müvafiq dekret versə də, yeni yaradılacaq institutun fəaliyyət göstərəcəyinə şübhə ilə yanaşanlar və hətta əks-təbliğat aparanlar da var idi. ***Cavad Cuvarlı***[4] beləlari haqqında yazırdı:*"Bütün yılan, qurbağa və həşərat dilə gəlib, şöylə dedilər ki, a kişi, bu nə sərsəmlikdir, böylə də iş olarmı? Türk Ali Pedaqoji İnstitutu açıla bilərmi? Dəvə hara, hamam hara? Bu işi apara biləcək müəllimlər, mürəbbilər hanı? Yox-yox! Böylə şey olamaz!"*

Əks qüvvələrin münasibətini ciddi şəkildə tənqid edən **Fətulla bəy Rzabəyli** yazırdı:*"Bu anlatır ki, bu kimi ədalarda bulunan adamların qəlbi bizim qəlbimizlə çarpmıyor, onların damağı və ruhu əski rus sərvətdar hökumətinin ruslaşdırma və sair bu kimi murdar vərasətilə[5] məşbudur[6]. Şərəfinə məcmuə verilən bu gün əlavə olaraq bir daha o zatlara diyor:"Azərbaycanda ikinci dərəcəlilər*

[4] *Ali Pedaqoji İnstitutun salnaməsi. (Tərtib, transliterasiya, izahlar və "Ön söz"ün müəllifi: **prof.F.A.Rüstəmov**). Bakı:Elm və təhsil, 2020,s.157*
[5] *miras*
[6] *doludur*

*üçün müəllim hazırlayan Pedaqoji İnstitutu yaratmaq lazımdır və mümkündür"*[7].

İnstitutun nizamnaməsinin hazırlanması, maliyyə-təsərrüfat xərclərinin və tədris binasının yerinin müəyyənləşdirilməsi məqsədilə Xalq Maarif Komissarlığının ictimai tərbiyə şöbəsinin müdiri ***Azad Əmirovun*** ümumi rəhbərliyi ilə təşkilat komitəsi yaradıldı.Təşkilat komitəsinin sədrliyinə müəllim kadrları hazırlığında müəyyən təcrübəsi olan Fətulla bəy Rzabəyli təyin edildi. O, 1920-ci ildə müəllim hazırlamaq məqsədilə Bakıda təşkil olunan birillik pedaqoji kursun rəhbəri olmuşdu.

İnstitut üçün tədris binasının müəyyənləşdirilməsi təşkilat komitəsinə həvalə edildi. Təşkilat komitəsinin sədri *Fətulla bəy Rzabəyli,* üzvləri *Həbib bəy Mahmudbəyli, Rəhim Cəfərov*[8], katib isə *Əli Abbas Vəlixanlı* idi. Təşkilat komitəsinə verilən səlahiyyət daxilində *Abdulla Şaiq Talıbzadə, Məmməd Əfəndiyev* və *Sadıq Hüseynzadə* təşkilat komitəsinə dəvət edildi.

Fətulla bəy Rzabəyli tərəfindən institutun ilk düsturüləməli[9] hazırlandı. Bu ilk nizamnamə olsa da,

[7] *Ali Pedaqoji İnstitutun salnaməsi. (Tərtib, transliterasiya, izahlar və "Ön söz"ün müəllifi **prof.F.A.Rüstəmov**). Bakı:Elm və təhsil, 2020,s.38*

[8] ***Cəfərov Rəhim Cəfər oğlu** (1883-1971) 1914-cü ildə Peterburq Universitetinin Təbiyyat fakültəsini bitirmişdir.1921-1927-ci illərdə Ali Pedaqoji İnstitutun təbiət-biologiya şöbəsində təbiətşünaslıq üzrə təcrübə məşğələləri rəhbəri olmuşdur.*

[9] *nizamnamə*





çox mükəmməl idi, institutun sonrakı nizamnamələri onun əsasında hazırlanmışdır. Həmin nizamnamə Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən 13 iyun 1921-ci ildə təsdiq edilmişdir.

Təşkilat komitəsi Bakı darülmüəlliminin[10] binasında[11] fəaliyyət göstərirdi. Təşkilat komitəsinin ilk iclası 9 iyul 1921-ci ildə keçirildi. İlk iclasda realni məktəbin[12], "Müqəddəs Nina" qız məktəbinin[13], Marinski qız məktəbinin[14] və ya Parlament binasının[15] instituta tədris binası kimi verilməsi ilə bağlı Xalq Maarif Komissarlığına müraciət edildi. Çox təəssüf ki, həmin binaların heç biri instituta verilmədi.

Təşkilat komitəsinə binanın tapılmasında Bakı maarif şöbəsinin məktəb işləri şöbəsinin müdiri ***Ağa Əli Raqibin*** böyük köməyi oldu. Onun köməyi ilə Lebedinski döngəsində (Sadavoya, 1-ci Çkalov döngəsi, Niyazi küçəsi, Şövkət Ələkbərova küçəsi) yerləşən 1 №-li Turgenev məktəbi institut üçün boşaldıldı[16]. Həmin binada 1 №-li Turgenev rus məktəbi (direktor Lebkoviç), həm də 7-ci "Mahmud bəy Mahmudbəyov" məktəbi (direktor Əbdürrəhimov) yerlə-

[10] *oğlan pedaqoji məktəbinin köhnə adı*

[11] *AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun binası*

[12] *Azərbaycan İqtisad Universitetinin əsas binası*

[13] *Hazırkı 132-134 №-li Təhsil Kompleksi*

[14] *Azərbaycan Milli İncəsənət Muzeyinin II korpusu*

[15] *AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun binası*

[16] *Hazırda Bakı şəhəri, Səbail rayonu, 6 saylı məktəb-lisey*

şirdi. Hər ikisi birinci dərəcəli (ibtidai) məktəb idi. Sonralar həmin məktəb Bakı şəhəri Voroşilov rayon 6 saylı məktəbə çevrildi. Ali Pedaqoji İnstitut bir ildən artıq həmin binada yerləşdi.

İnstitutda dərs deyə biləcək müəllim heyətinin və tələbələrin az olması səbəbindən tədrisə noyabrın 15-də cəmi 6 nəfər tələbə ilə başlandı. İnstituta qəbul olunmuş həmin 6 nəfərdən -*Əbdülhəsən Rəhimzadə* Salyan, *Atababa Musaxanlı* Bakı, *Vəli Axundzadə* Ağdam, *Mahmud Süleymanzadə* və *Ağaveyis Mustafazadə* Göyçay qəzasından, *Əbdülmüsəvvər Ədilzadə* isə Orta Asiyadan gəlmişdi.

Dərslər başlamamışdan əvvəl institutun rəhbər heyəti və dərs deyəcək müəllim kollektivi Xalq Maarif Komissarlığı tərəfindən təsdiq edildi. Odessa Universitetini bitirən *Fətulla bəy Rzabəyli* institutun direktoru, Tiflis Müəllimlər İnstitutunu bitirən *Həbib bəy Mahmudbəyov* direktor müavini, *Abdulla Şaiq Talıbzadə* ədəbiyyat, Peterburq Universitetinin məzunu *Məmməd Əfəndiyev* riyaziyyat, Odessa Universitetinin məzunu *Həmid Şahtaxtinski* pedaqogika və fəlsəfə, Almaniyanın Dapmıştadt Ali Texniki Məktəbini bitirən *Sadıq Hüseynov* kimya, İstanbul Universitetinin məzunu *İsmayıl Novruzi* fizika və təbiət müəllimi, Peterburq Ali Pedaqoji İnstitutunun məzunu *V.Pismennaya* rus dili müəllim təyin edildilər.

İnstitutda dərslər başlamazdan 3 gün əvvəl, yəni 1921-ci il noyabrın 12-də institut şurasının birinci iclası keçirildi. Şurada dərslərin mütəşəkkil keçirilməsi üçün kollektivin qarşısında duran mühüm vəzifələr müzakirə edildi. Tədris planına uyğun olaraq I tədris ilində tələbələrə riyaziyyat, ana dili, rus dili, rəsm, musiqi və başqa fənlərə dair ümumi məlumat verilməli idi. İkinci kursdan tələbələr ixtisaslar üzrə ayrılırdı. İlk vaxtlar institutda üç ixtisas (*tarix-ədəbiyyat, təbiyyat-coğrafiya və fizika-riyaziyyat*) üzrə müəllim kadrları hazırlanırdı. Ali Pedaqoji İnstitutda dərslərin 1921-ci ilin noyabrında başlamasına baxmayaraq tələbə qəbulu bir müddət davam etdi.1922-ci ilin yanvarında institutda oxuyan tələbələrin sayı 40 nəfərə çatdı. Birinci tədris ilini bütün tələbələr müvəffəqiyyətlə başa vuraraq yay tətilinə buraxıldılar. Yay tətili müddətində institutun nəzdində 40 nəfərlik pansion təşkil edildi.

İnstitutun bir illik təcrübəsi göstərdi ki, tədris planına bir sıra yeni fənlər daxil edilməlidir. 1922/23-cü tədris ilində institutun tədris planına yeni fənlər daxil edildi. Tədris ilinin ikinci yarısında institut keçmiş realni məktəbin binasına[17] köçürüldü. Tələbələrin sayı artdığından əvvəlki bina tələbatı ödəmirdi. İnstitutun ilk məzunlarından olan Hacıbala Hacıyev[18] yeni bina ilə bağlı xatirələrində yazırdı: *"Bina şəraitinin genişlənməsi, tədris avadanlığı ilə təmin olun-*

---

[17] *Azərbaycan Dövlət İqtisad Universitetinin əsas binası*

[18] *Hacıyev H. Mənim tələbəlik illərim. "Gənc müəllim" qəzeti, 26 fevral 1973*

*ması və biologiya, insan anatomiya və fiziologiyası, botanika və kimya kabinet-laboratoriyaları təşkil edildi. Bu binada tədris korpusu, yataqxana, yeməkxana, nümunəvi məktəb*[19] *və bir çox müəllimlərin mənzilləri yerləşirdi.*

Həmin binada Ali Pedaqoji Kişi İnstitutu, Ali Pedaqoji Qadın İnstitutu, A.Şaiq adına Nümunə məktəbi, fəhlə fakültəsi (Rabfak) və tələbə yataqxanası yerəşirdi. Rabfakın dekanı *Qepşteyn,* dekan müavini *Usubbəyov* idi.

Binada bir müddət əsgərlər qaldığından təmirə ehtiyacı var idi. Təmir məqsədilə 16 min rubl.vəsait ayrılmışdı. Yay aylarında bina təmir edildi, laboratoriyalar və fənn kabinetləri yaradıldı.

Tədris planına yeni fənlərin daxil edilməsi və tələbələrin sayının artması ilə əlaqədar olaraq antropologiya və rus dili üzrə Novorossiysk İmperator Universitetinin məzunu *Davud Şərifli,* siyasi iqtisad üzrə *Hüseyn Mirzəcamalov,* anatomiya üzrə Kazan Universitetini bitirən *Fətullah Əlizadə,* rəsm üzrə Fransa Rəssamlıq Akademiyasını bitirən *Kelxuc,* dilçilik üzrə prof.*Bəkir Çobanzadə,* musiqi üzrə *Manlyan,* fizikadan təcrübə məşğələləri üzrə *H.Berq,* fizika ixtisası üzrə Kazan Universitetini bitirən *Rəhim bəy Məlikov* (o, Şimali Qafqazda işləyirdi), siyasi iqtisad üzrə Xalq maarif komissarının müavini *Mustafa Quliyev,* ictimaiyyat üzrə Kiyev Universitetinin məzunu *Cəlil*

[19] *Şaiq adına Nümunə məktəbi nəzərdə tutulur*





*Məmmədzadə,* anatomiya üzrə Odessa Universitetinin məzunu *Mirəsədulla Mirqasımov,* botanika üzrə Peterburq Ali Qadınlar kursunun məzunu *Səlimə xanım Osmanzadə,* fars dili üzrə Paris Universitetini bitirən *Mirzə Möhsün İbrahimi,* psixologiya və məntiq üzrə Tiflis Aleksandrovski Müəllimlər İnstitutunu bitirən *Abdulla Əfəndizadə,* coğrafiya üzrə *Süleyman Səlim* və *B.Qarbulum* müəllimliyə dəvət olundular. Azərbaycan hökumətinin dəvəti ilə Bakıya gələn türk ədəbiyyatı tarixi müəllimi *İsmayıl Hikmət,* pedaqogika və pedaqogika tarixi müəllimi *Xəlil Fikrət,* İstanbul Universitetinin tarix və ədəbiyyat şöbəsinin məzunu *Məhiyəddin,* tanınmış türk təbiətşünas alimi *İsgəndər Abuzalımov* da Ali Pedaqoji İnstitutda müəllim kadrları hazırlığına cəlb olundular.

Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən ADU-da işləmək üçün dəvət edilən görkəmli rus alimləri - akademiklər İ.Meşşanov, B.Bartold, N.Marr, A.Samoyloviç, prof.P.Juze və b. həm də Ali Pedaqoji İnstitutda mühazirələr oxuyurdular.

Ali Pedaqoji İnstituta tələbə qəbulu Xalq Maarif Komissarlığının təsdiq etdiyi qaydalara uyğun aparılırdı. 28 iyun 1922-ci ildə Xalq maarif komissarı Mustafa Quliyevin sərəncamı ilə *"1922/23-cü tədris ilində Azərbaycan SSR ali məktəblərinə tələbələrin qəbul qaydaları"* təsdiq edilmişdi.[20] Orada qeyd olunurdu

[20] *Газ. «Бакинский рабочий» 10 июля 1922*

ki, ali məktəblərə II dərəcəli vahid əmək məktəbləri-ni bitirmiş şagirdlər, fəhlə fakültələrinin və seminari-yaların məzunları qəbul oluna bilər. Sənəd qəbulu 15 iyuldan 20 avqusta qədər XMK-nın nəzdində fəaliyyət göstərən xüsusi komissiya tərəfindən aparılırdı. Tələbə seçimi 5 sentyabra qədər davam edirdi. Boş qalan yerlərə 15 sentyabra kimi ərizə vermək olardı. Qəbul üçün iddiaçının orta təhsil haqqında sənədi, türk (Azərbaycan) dilini bilməsi[21], müvafiq qurum və təşkilatların (Azərbaycan KP MK, AHİŞ, hərbi hissə) göndərişi tələb olunurdu. Sənəd verənlərin sayı vakant yerlərdən çox olardısa, onda üstünlük birinci növbədə türk dilini bilənlərə, sonra fəhlə fakültələrinin məzunlarına, daha sonra isə Azərbaycan KP MK, AHİŞ və hərbi hissələrin göndərişi ilə gələn iddiaçılara verilirdi.

İkinci tədris ilində instituta Azərbaycandan və digər respublikalardan 41 nəfər tələbə qəbul edilmişdi. İnstitutun yenicə fəaliyyətə başlamasına baxmayaraq Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun köməyi sayəsində burada bir neçə kabinə və laboratoriya yaratmaq mümkün olmuşdu. Onun göstərişi ilə Ali Xalq Təsərrüfatı Şurasının nəzdində olan kimya laboratoriyası instituta verilmişdi. İnstitutun kimya və fizika laboratoriyalarında

---

[21] *Tələbənin türk dilində yazı və danışıq bacarığını yoxlamaq üçün komissiya tərəfindən xüsusi gün və saat müəyyənləşdirilmişdi.*





120 tələbənin təcrübə aparması üçün imkan var idi. İnstitutun ilk məzunlarından olan Hacıbala Hacıyev xatirələrində yazırdı:*"F.Rzabəyli ilə birlikdə mənə də N.Nərimanovla görüşmək nəsib olmuşdur. Biz institutun kimya avadanlığı ilə təmin edilməsini xahiş etdik. Az sonra keçmiş neft sahibkarlarına məxsus olan zəngin bir kimya laboratoriyasının instituta verilməsi haqqında qərar çıxarıldı. N.Nərimanov həftədə bir-iki dəfə instituta gələr, yeni təşkil olunmuş kabinet və laboratoriyaları nəzərdən keçirər, tələbələrin geyim və yeməklərinə diqqət yetirər və təsərrüfat hissəsinə müəyyən tapşırıqlar verərdi"*[22].

Xalq Komissarları Soveti Pedaqoji İnstitutun fəaliyyətinin genişləndirilməsi üçün ona hərtərəfli kömək göstərirdi. Respublika ali məktəbləri içərisində Ali Pedaqoji Kişi İnstitutunda tədris ana dilində aparıldığından rəsmi dövlət orqanları tərəfindən daha çox diqqət mərkəzində idi. Hələ 1921-ci ildə institutun direktoru Fətulla Rzabəyli Xalq Maarif Komissarlığının Kollegiyasında hesabat verərkən Xalq maarif komissarının müavini Mustafa Quliyev institutun qarşısında duran vəzifələri şərh edərkən demişdi:***"Pedaqoji İnstitut Azərbaycanda yeganədir. O, yalnız biz azərbaycanlıların deyil, bütün məhkum Şərq xalqlarının mədəni-maarif qayələrini təmin etməlidir"*.**

1923/24-cü tədris ilində institutda *"Tarix və etnoqrafiya"* muzeyi yaradıldı. İnstitut təşkil olunduğu

---

[22] *Hacıyev H. Mənim tələbəlik illərim. "Gənc müəllim" qəzeti, 26 fevral 1973*

günlərdə onun kitabxanasında Azərbaycan dilində 50, başqa dillərdə isə cəmi 73 kitab vardısa, az sonra Moskvadan və başqa şəhərlərdən alınan tədris ədəbiyyatı hesabına kitabxanın fondu xeyli zənginləşdirildi. İstanbuldan türk dilində 700-ə qədər kitab, Moskvadan fizika kabinəsi üçün yeni cihazlar gətirildi. Kimya laboratoriyasında və təbiət kabinəsindəki avadanlıqların da sayı xeyli artdı.

1923/24-cü tədris ilində Azərbaycan SSR Xalq Komissarları Soveti və Xalq Maarif Komissarlığı institutun maddi-texniki bazasının möhkəmlədirilməsi, maliyyə-təsərrüfat işlərinin yaxşılaşdırılması üçün 112 min 69 manat vəsait ayırmışdı. Tələbə kontingentinin sayı artdıqca tədris və təsərrüfat işlərinə ayrılan vəsait də ildən-ilə artırdı.

1923/24-cü tədris ilində institutda 1 ümumi hazırlıq sinfi, 6 *ixtisas sinfi* (2 riyaziyyat, 2 ədəbiyyat, 2 təbiyyat) vardı. İnstitutda oxuyan tələbələrin ümumi sayı 100 nəfərə çatmışdı. Üçüncü ədəbiyyat şöbəsində 6, riyaziyyat şöbəsində 9, təbiyyat şöbəsində 14, ikinci ədəbiyyat şöbəsində 9, riyaziyyat şöbəsində 8, təbiyyat şöbəsində 12, birinci ümumi təhsil şöbəsində 41 nəfər tələbə təhsil alırdı. İnstitutun nəzdində Şaiq Nümunə məktəbi fəaliyyət göstərirdi.

1923/24-cü tədris ilində Azərbaycan ali pedaqoji təhsil tarixində mühüm hadisə baş verdi. Həmin tədris ilinin sonunda Ali Pedaqoji Kişi İnstitutunun 28 nəfərdən ibarət ilk buraxılışı oldu.





| № | Adı və soyadı | Məzun olduğu şöbə | Haradan gəlib |
|---|---|---|---|
| 1 | Axundzadə Vəli | təbiyyat | Ağdam |
| 2 | Əhmədbəyli Əli Ağa | təbiyyat | Lənkəran |
| 3 | Əfəndizadə Əbdülrəşid | təbiyyat | Nuxa |
| 4 | Əfəndizadə Neman | təbiyyat | Göyçay |
| 5 | Bayramzadə Məhəmməd | təbiyyat | Nuxa |
| 6 | Bağırzadə Məhəmməd | ədəbiyyat | Gəncə |
| 7 | Cəfərzadə Həsən | təbiyyat | Gəncə |
| 8 | Hacızadə Hacıbala | təbiyyat | Qazax |
| 9 | Hacızadə Vahid | təbiyyat | Zaqatala |
| 10 | Hüseynzadə Surxay | təbiyyat | Şuşa |
| 11 | Rəhimzadə Əbdülhüseyn | təbiyyat | Salyan |
| 12 | Rzazadə Rza | təbiyyat | Şamaxı |
| 13 | Rzazadə Həsənəddin | riyaziyyat | Tiflis |
| 14 | Zeynalzadə Zeynal | riyaziyyat | Şamaxı |
| 15 | Süleymanzadə Məhəmməd | riyaziyyat | Göyçay |
| 16 | Şərəfəddin Seyidaləm | ədəbiyyat | Daşkənd |
| 17 | Şahverdili Teymur | ədəbiyyat | Lənkəran |
| 18 | Qasımzadə Qafur | təbiyyat | Bakı |
| 19 | Abdizadə Cami Əkrəm | təbiyyat | Quba |
| 20 | Abdihzadə Tahir | təbiyyat | Kazan |
| 21 | Abdihzadə Məhəmməd | təbiyyat | Kazan |
| 22 | Abdihzadə Əli | təbiyyat | Ağdam |
| 23 | Ədilzadə Əbdülmüsəvvər | riyaziyyat | Daşkənd |
| 24 | Məhəmmədzadə Vəli | riyaziyyat | Ağdam |
| 25 | Mədədzadə Məhəmməd | təbiyyat | Qazax |
| 26 | Mustafazadə Ağaveys | riyaziyyat | Göyçay |
| 27 | Musaxanlı Atababa | ədəbiyyat | Bakı |
| 28 | Nəcəfqulubəyzadə Nəsir | riyaziyyat | Ağdam |

İnstitutda ilk məzun günü çox təntənəli şəkildə keçirildi. Azərbaycan Xalq Maarif Komissarlığının, tanınmış elm adamlarının və institutun müəllimlərinin iştirakı ilə keçən məzun günündə öncə SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri olan ***Nəriman Nərimanovun*** Azərbaycan Ali Pedaqoji İnstitutunun ilk məzunlarına - elmlərini yeni tamam etmiş müəllimlərə *açıq məktubu* oxundu[23].

Sonra Azərbaycan SSR Xalq maarif komissarı ***Mustafa Quliyev***in Azərbaycan Ali Pedaqoji İnstitutunun ilk məzunlarına *təbrik məktubu*[24] iştirakçıların nəzərinə çatdırıldı.

Azərbaycan SSR XMK Kollegiyasının 1924-cü il 24 may tarixli iclasının qərarı ilə institutu bitirənlərdən 3 nəfəri Bakı kişi seminariyasına, 3 nəfəri Gəncə, 2 nəfəri Şuşa, 2 nəfəri Qazax, 1 nəfəri Naxçıvan seminariyasına, qalanları isə digər maarif müəssisələrinə işə göndərildi. Həmin dövrdə instituta ***Məmməd Əfəndiyev***[25] rəhbərlik edirdi.

Azərbaycan SSR XMK Kollegiyasının 3 aprel 1923-cü il tarixli qərarı ilə 1924/25-ci tədris ilində Ali Pedaqoji Kişi İnstitutu ilə Ali Pedaqoji Qadın İnstitutu inzibati cəhətdən birləşdirildi.

---

[23] *Bax: Ali Pedaqoji İnstitutun salnaməsi. (Tərtib, transliterasiya, izahlar və "Ön söz"ün müəllifi **prof.F.A.Rüstəmov**). Bakı: Elm və təhsil, 2020, s.93-94*

[24] *Yenə orada, səh.95-96*

[25] *Bax:**Rüstəmov F.A.** Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları.Bakı:Elm və təhsil, 2019, s.58-64*





Ali Pedaqoji Qadın İnstitutu necə yaranmışdır? Azərbaycan SSR Xalq Maarif Komissarlığının Kollegiyası 1921-ci ilin əvvəllərində Məktəbəqədər Qadın Tərbiyə İnstitutunun açılması ilə bağlı Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə müraciət etmişdi. Ali qanunvericilik orqanında bu məsələ müzakirə olunmuş və Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun 23 dekabr 1920-ci il tarixli dekreti əsasında Birinci Məktəbəqədər Qadın Tərbiyə İnstitutu yaradılmışdı. Həmin dekretdə deyilirdi: *"Məktəbəqədər tərbiyə sahəsində təcrübəli kadrlar və rəhbər işçilər hazırlamaq, həmçinin qadınlar arasında tərbiyə işlərini yaymaqdan ötrü 1921-ci il martın 1-dən etibarən Bakı şəhərində **Birinci Məktəbəqədər Qadın Tərbiyə İnstitutu** açılsın".*

İnstitut II dərəcəli məktəblər üçün qadın müəllimlər hazırlamalı idi. İlk vaxtlar institutda üç hazırlıq qrupu və iki ixtisas şöbəsi (*Ədəbiyyat və ictimaiyyat; Təbiyyat*) fəaliyyət göstərirdi.

Ali Pedaqoji Kişi İnstitutunda olduğu kimi burada da təhsil müddəti 3 il idi. Birinci ildə Məktəbəqədər Qadın Tərbiyə İnstitutuna 30 nəfər qəbul edilmişdi ki, onların da əsas hissəsini Azərbaycan qəzalarından gələn qızlar təşkil edirdi. İnstitutun nizamnaməsində ali təhsil ocağına müəllim seminariyalarını və ikinci dərəcəli məktəbləri bitirən qızların qəbulu nəzərdə tutulmuşdu. İlk illərdə orta təhsilli azərbaycanlı qızlarının az olması səbəbindən I dərəcəli məktəb həcmində təhsili olanlar da qəbul edil-

mişdi. İnstitutun ilk direktoru vəzifəsinə ***A.Makinskaya*** təyin olunmuşdu. Maraqlıdır ki, Ali Pedaqoji Kişi İnstitutu 6 nəfər tələbə ilə fəaliyyətə başladığı halda, Məktəbəqədər Qadın Tərbiyə İnstitutuna 30 nəfər (5 dəfə çox) tələbə qəbul edilmişdi.

Sonrakı illərdə A.Makinskayanı ***A.Lukyanova*** və ***K.Ordubadskaya*** əvəz etdi. O dövrdə müəllim kadrları hazırlığında xüsusi xidmətləri olan Səlimə xanım Osmanzadə (*o, eyni zamanda Ali Pedaqoji Kişi İnstitutunda təbiyyat-aqronomiya şöbəsinin dekanı idi*) və Zəhraxanım Şahtaxtinskaya Birinci Məktəbəqədər Qadın Tərbiyə İnstitutunda çalışırdılar. İnstitutun müəllim heyətinin tərkibində Hüseyn Mirzəcamalov, Azad Əmirov, Həmid Şahtaxtinski və başqaları da vardı. Burada çalışan 22 müəllimdən 18 nəfəri ali təhsilli idi. İnstitutun açılmasından bir il sonra Ali Pedaqoji İnstitutun nəzdindəki pedaqoji kurslarda oxuyan qızlar da Birinci Məktəbəqədər Qadın Tərbiyə İnstitutunda təhsillərini davam etdirməyə başladılar. Həmin illərdə institutun 45 tələbəsi vardı ki, onlardan da 22-si axşam oxuyurdu. Tələbələrin 90%-i ictimai vəziyyətinə görə kəndli və fəhlə, 10% isə kənd müəllimlərinin övladları idi.

Məktəbəqədər Tərbiyə İnstitutu 1922/23-cü tədris ilində *Ali Pedaqoji Qadın İnstitutuna* çevrildi. Bununla bağlı Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Qəzənfər Musabəyov 29 noyabr 1922-ci il tarixində xüsusi dekret imzaladı. Dekretdə deyilirdi:





*"1.Bakı şəhərində mövcud olan Məktəbəqədər Tərbiyə İnstitutu türk dövlət dilində II dərəcəli məktəblər üçün qadın müəllimləri hazırlayan Ali Pedaqoji İnstituta çevrilsin.*

*2.Xalq Maarif Komissarlığı Kollegiyasının 13 iyun 1921-ci ildə Azərbaycan Dövlət Kişi Pedaqoji İnstitutu haqqında qəbul etdiyi nizamnamə Azərbaycan Qadın Pedaqoji İnstitutuna da şamil edilsin".*

Ali Pedaqoji Qadın İnstitutunun ilk və son direktoru ***Sara xanım Xuramoviç (Talışınskaya)***[26] olmuşdur.

1922-ci ilin yayında Qadın Pedaqoji İnstitutuna daxil olmaq arzusunda olanların sayı çoxaldı. İnstituta daxil olmaq üçün 115 nəfər ərizə vermişdi ki, müsabiqə nəticəsində onlardan 62-si (I kursa 52, II kursa 10) qəbul edildi. 1923/24-cü tədris ilində Qadın Pedaqoji İnstitutunda 104 nəfər təhsil alırdı ki, onlardan da 50% -i axşam oxuyurdu. Tələbələrin sosial tərkibinə görə 75%-i kəndli, 18%-i fəhlə və 7%-i ziyalı övladları idi. Qeyd etmək lazımdır ki, 30-cu illərin ortalarına qədər keçmiş İttifaqda tələbələrin sinfi tərkibinə dövlət və partiya orqanları nəzarət edirdi. Fəhlə və kəndli balaları ödənişsiz oxuyur, fərqləndirici təqaüd, müxtəlif güzəşt və mükafatlar alırdı.

Azərbaycan qəzalarında qadın təhsilinin aşağı səviyyədə olmasını nəzərə alan Xalq Maarif Komis-

[26] *Bax:**Rüstəmov F.A.** Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları.Bakı:Elm və təhsil, 2019, s.272-282*

sarlığı Qadın Pedaqoji İnstitutunun 17 nəfər III kurs tələbəsini bir il müddətində I dərəcəli məktəblərdə dərs demək üçün qəzalara göndərdi. Qadın İnstitutunda müəllim kadrları hazırlığına ciddi fikir verilirdi. III kursun tələbələri ümumi dərslərdən başqa türk dilinin (Azərbaycan dilinin) tədrisi metodikası, hesabın tədrisi metodikası, təbiətin tədrisi metodikası və pedaqogika tarixi fənnini ətraflı öyrənirdilər. Bunlardan başqa hər bir tələbə pedaqoji təcrübə zamanı təbiət, hesab və türk dilindən (Azərbaycan dili) nümunə dərsləri verməli idi. İbtidai məktəblərə işləməyə göndərilən tələbələr bir ildən sonra yenidən instituta qayıdıb, II dərəcəli məktəblərdə işləmək üçün nəzərdə tutulan proqramın tələblərinə uyğun olaraq təhsillərini davam etdirirdilər. Onların yerinə isə III kursda oxuyan tələbələr göndərilirdi.

Qəzalara göndərilən ilk qadın müəllimlər aşağıdakılar idi.

| № | Adı və familiyası | Haradan gəlib |
|---|---|---|
| 1 | Axundzadə Mələk | Şamaxı |
| 2 | Atakişizadə Humay | Şamaxı |
| 3 | Eyyublu Sənubər | Qazax |
| 4 | Usubova Gövhər | Qazax |
| 5 | Tutayuq Fatma | Şuşa |
| 6 | Pinova Nəzirə | Gürcüstan-Axısqa |
| 7 | Hacızadə Tutu | Bakı |
| 8 | Xızırbəyli Şahizə | Gürcüstan-Axısqa |
| 9 | Xəlifəzadə Sürəyya | Şuşa |
| 10 | Şahtaxtlı Xədicə | Ermənistan-İrəvan |
| 11 | Sadıqzadə Şövkət | Şuşa |
| 12 | Səfərzadə Səkinə | Gürcüstan-Tiflis |
| 13 | Əlizadə Südabə | Ermənistan-İrəvan |
| 14 | Qazızadə Güllərəc | Ermənistan-İrəvan |
| 15 | Qiyasbəyli Şirin | Qazax |
| 16 | Qiyasbəyli Müqdənisə | Qazax |
| 17 | Məhəmmədzadə Xanıman | Bakı |





1924/25-ci tədris ilindən etibarən həm Ali Pedaqoji Kişi İnstitutu, həm də Ali Pedaqoji Qadın İnstitutu 4 illik tədris planı ilə işləməyə başladı. Həmin ildə Ali Pedaqoji Kişi İnstitutunda 142 tələbə oxuyurdu. Məmməd Əfəndiyevdən sonra Ali Pedaqoji İnstituta ***Həbib bəy Mahmudbəyov***[27] direktor təyin edilmişdi.

İnstituta təkcə respublikamızdan deyil, həmçinin Orta Asiya, Gürcüstan, Ermənistan respublikalarından və Dağıstandan da gələnlər var idi.

Ali Pedaqoji İnstitutun I kursuna qəbul üçün qəza Xalq Maarif Şöbələrinin ehtiyaclarına uyğun olaraq yerlər ayrılırdı.15 iyul 1925-ci ilin məlumatına görə, qəzalar və digər respublikalar üçün 80 yer ay-

[27] *Bax:* ***Rüstəmov F.A.*** *Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları. Bakı:Elm və təhsil, 2019, s.65-70*

rılmışdı ki, onların da 40-ı kişilər, 40-ı isə qadınlar üçün nəzərdə tutulmuşdu. Yerlər belə müəyyənləşdirilmişdi:[28] Qazax - 6 nəfər (3 kişi, 3 qadın ), Gəncə - 8 nəfər (4 kişi, 4 qadın), Ağdaş - 4 nəfər (2 kişi, 2 qadın), Nuxa - 8 nəfər (4 kişi, 4 qadın), Cəbrayıl - 4 nəfər (2 kişi, 2 qadın), Şamxor (Şəmkir) -2 nəfər (1 kişi, 1 qadın), Şamaxı - 4 nəfər (2 kişi, 2 qadın), Kürdüstan - 2 nəfər (1 kişi, 1 qadın), Naxçıvan MSSR-3 (1 kişi, 2 qadın), Salyan - 4 (2 kişi, 2 qadın), Lənkəran - 4 nəfər (2 kişi, 2 qadın), Zaqatala -2 nəfər (1 kişi, 1), DQMV-2 nəfər (1 kişi, 1 qadın ), Ağdam - 4 nəfər (2 kişi, 2 qadın), Göyçay - 4 nəfər (2 kişi, 2 qadın), Gürcüstan -2 nəfər (1 kişi, 1 qadın), Ermənistan - 4 nəfər (2 kişi, 2 qadın), Dağıstan MSSR -2 nəfər (1 kişi, 1 qadın), Türkmənistan SSR -2 nəfər (1 kişi, 1 qadın), Özbəkistan SSR- 2 nəfər (1 kişi, 1 qadın).

1924/25-ci tədris ilində Ali Pedaqoji Kişi İnstitutun 27 nəfərdən ibarət ***ikinci buraxılışı*** oldu.

1925/26-cı tədris ilində Ali Pedaqoji İnstitutun sturukturunda bəzi dəyişikliklər edildi.

Tarix-filoloji şöbə iki müstəqil şöbəyə ayrıldı:1)Tarix-ictimaiyyat şöbəsi; 2)Tarix-ədəbiyyat şöbəsi.

Həmin dövrdə Ali Pedaqoji Kişi İnstitutunda aşağıdakı şöbələr fəaliyyət göstərirdi:

---

[28] *Бюллетен официальных распоряжений и сообщений Наркомпроса Азерб.ССР, №6, стр.14*





**1.Tarix -ədəbiyyat şöbəsi** (dekan İsmayıl Hikmət);

**2.Təbiyyat-aqronomiya şöbəsi** (dekan Səlimə Osmanzadə);

**3. Fizika-riyaziyyat şöbəsi** (dekan Məmməd Əfəndiyev);

**4. Tarix-ictimaiyyat şöbəsi** (dekan Əziz Ubadullin).

Həmin dövrdə institutda təhsil alan tələbələrin sayı 172 nəfərə çatmışdı ki, onlardan da 119 nəfəri kəndli, 40 nəfəri fəhlə, 13 nəfəri isə ziyalı övladı idi.

İnstitutun pansionatında (yataqxanasında) yaşayan tələbələrin sayı ildən-ilə artırdı. Ali Pedaqoji İnstitutun pansionunda 163 nəfər tələbə yaşıyırdı ki, onlardan 115-i respublikanın qəzalarından,10-u Naxçıvandan,12-si Dağıstandan, 9-u Özbəkistandan, 3-ü Türkmənistandan, 2-si Şərqi Türkmənistandan, 8-i Krımdan, 3-ü Ermənistandan, 1-i Gürcüstandan gəlmişdi.

Sosial tərkibinə görə tələbələrin hamısı fəhlə və kəndli övladları idi. Ona görə onlara gündə 3 dəfə pulsuz yemək, hər tədris ili üçün iki dəst paltar (dəyişək), bir cüt ayaqqabı, qış və yay kostyumu, iki illiyə bir palto, bir papaq və yataqxanada istifadə etmək üçün əşyalar verilirdi.

Ali Pedaqoji Kişi İnstitutunda oxuyanların 90%-dən çoxunun yaşı 20-dən yuxarı idi. Bu səbəbdən də Ali Pedaqoji Qadın İnstitutu ilə müqayisədə onların dərs cədvəli fərqli idi. Belə ki, onlar nahardan əvvəl 6-7 saat dərs keçir, nahardan sonra hər biri 2-3 saat fərdi qaydada laboratoriyada təcrübə işləri aparırdı.

İnstitutun direktor müavini M.Mahmudbəyovun yazdığına görə, yay kostyumu və ayaqqabı müəyyən müddətdən sonra istifadəyə yararsız olduğuna görə, tələbələr əziyyət çəkirdi.

1925/26-cı tədris ilində Ali Pedaqoji Qadın İnstitutunda 137 nəfər tələbə oxuyurdu.[29]

Həmin dövrdə Ali Pedaqoji İnstitutun direktoru ***Şərif Əhmədzyanoviç Manatov*** [30]idi.

Azərbaycan SSR Xalq Maarif Komissarlığının 1925-ci ilin yanvarına olan məlumata görə, hər iki pedaqoji institutda cəmi 256 tələbə təhsil alırdı.[31]

| Ali pedaqoji təhsil müəssisələri | Müəllimlərin sayı | Şagirdlərin sayı | O cümlədən | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | cinsi | | Təhsil illəri | | |
| | | | kişi | qadın | I | II | III |
| **Ali Pedaqoji Kişi İnstitutu** | 26 | 142 | 142 | - | 56 | 57 | 29 |
| **Ali Pedaqoji Qadın İnstitutu** | 27 | 114 | - | 114 | 40 | 51 | 23 |
| **Cəmi** | 53 | 256 | 142 | 114 | 96 | 108 | 52 |

*29 Ali Pedaqoji İnstitut.5 illik.Bakı, 1926*
*30 Bax: **Rüstəmov F.A. Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları.**Bakı:Elm və təhsil, 2019, s.71-77*
*31 Azərbaycan Respublikasının Dövlət Arxivi.F.57,siy.1,iş.338,v.92*





Ali Pedaqoji Kişi İnstitutunun riyaziyyat şöbəsində 29, təbiyyat şöbəsində 90, ədəbiyyat şöbəsində 23, Ali Pedaqoji Qadın İnstitutunun 2 şöbəsində 114 nəfər tələbə təhsil alırdı.

Ali Pedaqoji İnstitutun pansionatında yaşayan tələbələr təhsil almaqla yanaşı, həm də müxtəlif ictimai təşkilatlarda (*Kommunist Firqəsi özəyi, LKGİ özəyi, İcraiyyə Bürosu, Yeni Əlifba Dostları cəmiyyəti, Beynəlxalq İnqilabçılara Yardım cəmiyyəti, Fəhlə fakültəsi nəzdində fəaliyyət göstərən dərnəklər, qiraətxana, Lenin guşəsi və s.*) çalışırdılar.

Həmin dövrdə Pedaqoji İnstitutda fəaliyyət göstərən müəllim və tələbə ictimai təşkilatları öz fəaliyyətlərini daha da genişləndirmiş, üzvlərinin sayı xeyli artmışdı. Ali Pedaqoji Kişi və Qadın İnstitutlarının tələbələri müxtəlif ictimai təşkilatlatında birgə fəaliyyət göstərirdilər. Şaiq adına Pedaqoji texnikumun[32] tələbələri də ictimai təşkilatın işində onlarla birlikdə iştirak edirdi.

İnstitutda fəaliyyət göstərən Tələbə İcraiyyə Bürosunu 15 nəfərdən ibarət rəyasət heyəti idarə edirdi. Təşkilatın sədri *Məhiəddin Həmzəzadə* idi. Təşkilatın daxilində üç və ya beş nəfərdən ibarət 5 komissiya fəaliyyət göstərirdi:

*32 1925-ci ildə Şaiq Nümunə məktəbi Pedaqoji texnikuma çevrilmişdi.*

1. **Mədəni-maarif komissiyası** (sədr Qənbər Əsgərzadə);
2. **Elmi cəmiyyət komissiyası** (sədr Hacıbala Əfəndizadə);
3. **Maarif xadimləri komissiyası** (sədr Qafar Əlimüvəffəq);
4. **Təsərrüfat komissiyası** (sədr Əbdüləli Sərdarlı);
5. **Təftiş komissiyası** (sədr İskəndər Bağbanlı).

Mədəni-maarif komissiyası həm də aşağıdakı dərnəklərin fəaliyyətinə nəzarət edirdi. Dərnəklər üç nəfərdən ibarət heyət tərəfindən idarə olunurdu.

1.**Ədəbiyyat dərnəyi** (sədr Məhəmmədiyə Əfəndizadə);
2.**Təbiyyət dərnəyi** (sədr Əsəd Cəfərzadə);
3.**Riyaziyyat dərnəyi** (sədr Rəsul Rəhimli);
4.**Pedaqoji dərnəyi** (sədr Ədhəm Mustafazadə);
5.**İctimaiyyat dərnəyi** (sədr İshaq Cəfərzadə);
6.**Həmkarlar İttifaqı dərnəyi** (sədr Qafar Alimzadə);
7.**Dram dərnəyi-**
8.**Sport dərnəyi** (sədr Abdulla Təmrazlı).

İnstitutda kommunist firqə özəyi (ictimai əsaslarla) fəaliyyət göstərirdi. Təşkilatın 16 nəfər üzvü var idi ki, onlardan da 6 nəfəri üzv, 10 nəfəri namizəd idi. Kommunistlərdən 2 nəfəri qadın idi. 1925/26-cı tədris ilində kommunistlər Səfər Ramazanov (özəyin sədri), Əbdüləli Sərdarlı, Şarif Manatov və Müzəffər Əlizadə Ali Pedaqoji İnstitutda partiya





özəyinin təşkil edilməsi ilə bağlı Bakı Partiya Komitəsinə müraciət etmişdilər.

Əgər Pedaqoji İnstitutda komsomol təşkilatı yarananda (12 yanvar 1923) cəmi 13 nəfər üzv və namizəd var idisə, 1925/26-cı tədris ilində təşkilatın (özəyin) 110 üzv və namizədi vardı. Bunlardan 61-i üzv, 49-u namizəd, qızlardan 19-u üzv və 12-si namizəd idi. Özək 11 nəfərlik (9 üzv, 2 namizəd) rəyasət heyəti tərəfindən idarə olunurdu. Özəyin məsul katibi *Əbdülxəlil Əsgərzadə* idi.

1925/26-cı tədris ilində Ali Pedaqoji Kişi İnstitutunda 165 tələbənin təhsil-tərbiyəsi ilə 32, Ali Pedaqoji Qadın İnstitutunda 137 tələbənin təhsil-tərbiyəsi ilə 36 nəfər professor-müəllim məşğul olurdu[33].

1926-cı ilin dekabrın 1-nə olan məlumata görə, 2 ali pedaqoji institutda 302 tələbə təhsil alırdı ki, onlardan da 165-i kişi, 137-si qadın idi. Tələbələrin 95%-i azərbaycanlı idi.

1925/26-cı tədris ilində Ali Pedaqoji İnstitutun 55 nəfərdən ibarət *üçüncü buraxılışı* oldu.

| № | Adı və familiyası | Bitirdiyi şöbə | Haradan gəlib | Gündüz və ya axşam |
|---|---|---|---|---|
| 1 | Sahib Hüseynzadə | Fizika-riyaziyyat | Lənkəran | axşam |
| 2 | Həsən Həsənzadə | " " | Ağdam | " " |

[33] *Azərbaycan Respublikasının Dövlət Arxivi. F.57, siy.1, iş.456, v.77*

| | | | | |
|---|---|---|---|---|
| 3 | Mehdi Mehdizadə | " " | Cəbrayıl | " " |
| 4 | Mustafa Cabbarzadə | " " | Nuxa | " " |
| 5 | Mustafa İsmayılzadə | " " | Ağdaş | " " |
| 6 | Müseyib Qasımzadə | " " | Gəncə | " " |
| 7 | Hüseyn Həmidzadə | " " | " " | " " |
| 8 | Rəsul Rəhimli | " " | Şamaxı | " " |
| 9 | Firidun Mahmudbəyli | " " | " " | " " |
| 10 | Rizvan Kaşizadə | " " | Şamaxı | " " |
| 11 | Əlişah Məhəmmədov | " " | " " | " " |
| 12 | Səfər Ramazanov | " " | Lənkəran | " " |
| 13 | Tofiq Ağayev | " " | Şamaxı | " " |
| 14 | Kərim Kərimzadə | " " | Göyçay | " " |
| 15 | Hacıbala İsmayılzadə | " " | " " | " " |
| 16 | Sadıq İbrahimzadə | " " | " " | " " |
| 17 | Soltan Ağazadə | " " | " " | " " |
| 18 | Bəhmən Məhəmməd-zadə | " " | Şuşa | " " |
| 19 | Əlaşrəf Hacızadə | " " | Nuxa | " " |
| 20 | Abasqulu Abaszadə | " " | Təbriz | gündüz |
| 21 | Ziya Azaqbəyli | " " | Nuxa | " |
| 22 | Məhəmmədbağır Əlizadə | Təbiyyat-aqronomiya | Göyçay | axşam |
| 23 | İdris Musazadə | " " | Gəncə | " " |
| 24 | Hacı Hacızadə | " " | " " | " " |
| 25 | Əmin Abdullazadə | " " | Şamaxı | " " |
| 26 | Yusif Məhəmmədzadə | " " | Göyçay | " " |
| 27 | Yəhya İsmayılzadə | " " | " " | " " |
| 28 | Musa Əfəndizadə | " " | Ağdaş | " " |
| 29 | Zahid Əlizadə | " " | Nuxa | " " |
| 30 | Həsən Əfəndizadə | " " | " " | " " |
| 31 | Zahid Həmidzadə | " " | Nuxa | " " |
| 32 | Ədhəm Əfəndizadə | " " | " " | " " |
| 33 | Əsəd Cəfərzadə | " " | Naxçıvan | " " |





| | | | | |
|---|---|---|---|---|
| 34 | Yusif Məhəmmədəli-zadə | " " | Ordubad | " " |
| 35 | Ədhəm Mustafazadə | " " | Nuxa | " " |
| 36 | Səfərəli Mustafazadə | " " | Ağdaş | " " |
| 37 | Həsən Musazadə | " " | Şərqi Türküstan | " " |
| 38 | Həmid Osmanzadə | " " | Krım | " " |
| 39 | Kəlam Əbdülhəmidza-də | " " | " " | " " |
| 40 | Kərim Kərimzadə | " " | Ağdam | " " |
| 41 | Məhəmməd Əliəkbər-zadə | Tarix-ədə-biyyat | Lənkəran | " " |
| 42 | Mikayıl Rzaquluzadə | " " | Bakı | " " |
| 43 | Ağamirzə Axundzadə | " " | " " | " " |
| 44 | Əli Hüseynzadə | " " | " " | " " |
| 45 | Əhəd Məhəmmədyarlı | " " | Quba | " " |
| 46 | Məhəmməd Teymurxanlı | " " | " " | " " |
| 47 | Hüseyn Körükçü | " " | Krım | " " |
| 48 | Osman Toplu | " " | Krım | " " |
| 49 | Şamil Vəzirov | " " | Cəbrayıl | " " |
| 50 | Zülfüqar Abdullahzadə | " " | Şuşa | " " |
| 51 | Saleh Məhəmədzadə | " " | Ağdaş | " " |
| 52 | Bəktaş Heydərzadə | " " | Özbə-kistan | " " |
| 53 | Məhəmməd Əkbərov | " " | Türkmə-nistan | " " |
| 54 | Tələt Talıbzadə | " " | Tiflis | gündüz |
| 55 | Cavad Axundzadə | " " | Bakı | " " |

Ali Pedaqoji İnstitutun 1926/27-ci tədris ilində 76 nəfərdən ibarət *dördüncü buraxılışı* oldu. Sonuncu buraxılışın məzunlarının 18 nəfəri ədəbiyyat, 24 nəfəri təbiyyat, 17 nəfəri riyaziyyat, 16 nəfəri isə tarix-ictimaiyyat şöbəsini bitirmişdi. Bu, Ali Pedaqoji İnstitutun son buraxılışı oldu.

Həmin dövrdə instituta ***Cəlil Məmmədzadə***[34] rəhbərlik edirdi.

Həmin dövrdə Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsində 389, pedaqoji ali təhsil müəssisələrində (Ali Pedaqoji Kişi İnstitutu və Ali Pedaqoji Qadın İnstitutu) isə 198 nəfər ali təhsilli müəllim hazırlanmışdı[35]. 587 nəfər ali təhsilli müəllimdən 212 (36%) nəfəri azərbaycanlı idi ki, onların da 4,6 %-ni (27 nəfəri) azərbaycanlı qadınlar təşkil edirdi.

Ali Pedaqoji İnstitutun təşkilatçıları və ilk müəllimləri beş il müddətində Azərbaycanda milli kadr hazırlığını həyata keçirən ali təhsil müəssisəsi yarada bildilər, institut üçün bina tapdılar, peşəkar müəllim kollektivi formalaşdırdılar, laboratoriya, kitabxana, muzey təşkil etdilər. İnstitutun ilk buraxılış gecəsini təntənəli şəkildə keçirtdilər.

---

[34] *Bax:* ***Rüstəmov F.A.*** *Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları.Bakı:Elm və təhsil, 2019, s.78-88*

[35] *Azərbaycanda xalq maarifi (1920-1927). Bakı, Azərbaycan XMK, 1928,s.24.*





Ali Pedaqoji İnstitutun ilk buraxılışı (1924) ilə bağlı xatirə yazısında Abdulla bəy Əfəndizadə yazırdı:" *Biz istəyirik ki, məktəbimiz ümum türk ellərinin hüsn-rəğbətini qazansın, bütün Şərq elmi üçün inqilab məşəli olsun... Oksford və Kembric darülfünunları kimi Şekspirlər, Nyutonlar, Miller və Darvinlər yetişdirməyə müvəffəq olsun*[36].

Onun arzu olaraq səsləndirdiyi bu fikirlər çox keçmədi ki, həqiqətə çevrildi. 1925/26-cı tədris ilinin məzunlarının bir qismi ictimai-siyasi və elmi-pedaqoji fəaliyyətləri ilə adlarını şöhrətin yüksək zirvəsinə yazdılar.

1.***Yusif Heydər oğlu Məmmədəliyev*** (1905-1961) - *kimya elmləri doktoru (1942), professor (1942), Azərbaycan SSR EA-nın akademiki (1945) və prezidenti (1947-1951 və 1958-1961), SSRİ EA-nın müxbir üzvü (1958). SSRİ Dövlət mükafatı laureatı (1946), SSRİ Ali Sovetinin (5-ci çağırış, 1958-1961) və Azərbaycan SSR Ali Sovetinin (4-cü çağırış, 1955-1959) deputatı.*

2.***Mehdi Məmməd oğlu Mehdizadə*** (1903-1984) - *tanınmış ictimai xadim, SSRİ Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü (1967), Azərbaycan Respublikasının Əməkdar elm xadimi (1981), pedaqoji elmlər doktoru, professor, Azərbaycan SSR Xalq maarif naziri (1952-1954;*

---

[36] *Ali Pedaqoji İnstitutun salnaməsi.(tartib, transliterasiya, izahlar və "Ön söz"ün müəllifi:* ***prof.F.A.Rüstəmov****). Bakı:Elm və təhsil, 2020, s.122*

*1961-1980), Azərbaycan Dövlət Pedaqoji İnstitutunun direktoru (1950-1951), VI-IX çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı.*

**3.*Abasqulu Ağabala oğlu Abaszadə*** *(1906-1969)- fizika-riyaziyyat elmlər doktoru, professor (1953), Rusiya Pedaqoji EA-nın (1957) və SSRİ Pedaqoji EA-nın müxbir üzvü (1968).*

**4.*Mikayıl Manaf oğlu Rzaquluzadə*** (1905-1984) - *nasir, şair, tərcüməçi, 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın qabaqcıl maarif xadimi (1968), əmək veteranı (1976).*

**5.*Əhməd Cavad (Cavad Məhəmmədəli oğlu Axundzadə)*** (1892-1937) - *şair, tərcüməçi, AYB-nin üzvü (1934), professor (1933), repressiya qurbanı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Əhməd Cavadın əsərləri Azərbaycan Respublikasında dövlət varidatı elan edilmişdir.*

**6.*Məmməd Həmid oğlu Ələkbərov*** (1899-1959)- *Azərbaycan SSR Xalq maarif komissarı (1946-1952, Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, Azərbaycan SSR Mədəniyyət naziri (1955-1956), Azərbaycan Dövlət Pedaqoji İnstitutunun direktoru (1944), Azərbaycan SSR Əməkdar məktəb müəllimi*

***

1926/27-ci tədris ilində müstəqil fəaliyyət göstərməklə ümumtəhsil məktəblərinin müəllimlərə olan ehtiyacını daha tez ödəmək imkanlarına malik olan Ali Pedaqoji İnstitut subyektiv mülahizələr əsa-





sında fəaliyyətini dayandırdı. RSFSR-də pedaqoji institutların universitetlərə birləşdirilməsi təcrübəsi anoloji olaraq Azərbaycan Dövlət Universitetinə köçürüldü. Ali Pedaqoji İnstitut Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsi ilə birləşdirldi. ADU-da 1924-cü ildə Fizika-riyaziyyat və İctimai elmlər fakültələrinin bazasında üç şöbədən (ictimai, riyaziyyat və təbiyyat) ibarət ***Pedaqoji fakültə*** yaradılmışdı. Həmin ildən universitetin Tibb fakültəsi istisna edilməklə bütün fakültələr II dərəcəli orta məktəblər, texnikumlar üçün müəllim kadrları hazırlığına istiqamətləndirilmişdi. O dövrdə savadsızlığın ləğvi, ümumi, icbari və pulsuz təhsilin həyata keçirilməsi mədəni inqilabın əsas şərti hesab olunurdu. Qəzalarda və kəndlərdə II dərəcəli məktəblərdə, pedaqoji kurslarda və texnikumlarda dərs deyəcək müəllimlər çatışmırdı. Pedaqoji fakültənin yaradılması milli müəllim kadrları hazırlığındakı boşluğu doldurmağa xidmət edirdi.

Birləşmədən sonra fakültəyə ***Cəlil Məmmədzadə, Tağı Şahbazi, prof. P.P.Fridolin*** və ***L.A.İşkov*** rəhbərlik etdilər.

Ali Pedaqoji İnstitut 3 il Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsinin tərkibində fəaliyyət göstərsə də öz tədris və elmi ənənələrini qoruyub saxladı.

Həmin dövrdə milli ziyalılar daha çox Pedaqoji fakültənin elmi qüvvələri sırasında yer almışdı. Universitetdə aparılan türkləşdirmə siyasəti azər-

baycanlı tələbələrin, akademik işçilərin və Azərbaycan dilini bilənlərin sayının artması ilə nəticələnmişdi. Pedaqoji fakültədə milli dildə təhsil alanların sayı ildən-ilə artırdı. 1927/28-ci tədris ilində 880 tələbədən 597-si , 1929/30-cu tədris ilində isə 1345 tələbədən 731 nəfəri Azərbaycan bölməsində təhsil alırdı.

Az sonra unifikasiyanın - Ali Pedaqoji İnstitutun Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsinin tərkibinə verilməsinin müəllim kadrları hazırlığına ciddi zərbə vurduğu aydın oldu. Müəllim kadrları hazırlığının həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri aşağı düşdü.

Bircə fakta diqqət yetirək: 1929-cu ildə Pedaqoji fakültənin nəzdində fəaliyyət göstərən 44 kafedradan yalnız 3-nə azərbaycanlı mütəxəssislər: professor Bəkir Çobanzadə, privat-dosent Ə.Zəkuzadə, müəllim Fətulla bəy Rzabəyli rəhbərlik edirdi.

Ali Pedaqoji İnstitutun müstəqil institut kimi yenidən təşkili Azərbaycan K(b)P MK-da və Azərbaycan SSR Xalq Maarif Komissarlığında geniş müzakirə olundu. Bu məsələdə daha çox fədakarlıq göstərən Azərbaycan SSR Xalq maarif komissarının müavini Pənah Qasımov[37] idi. Elə buna görə də Azərbaycan SSR XMK-nın 1929-cu il 28 sentyabr tarixli 74 saylı əmri ilə yenidən təşkil edilən Ali Pedaqoji İnstituta ***Pənah Qasımov*** direktor, prof.***B.B.Komarovski*** direktor müavini təyin olundu.

[37] *Bax:* ***Rüstəmov F.A.*** *Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları. Bakı:Elm və təhsil, 2019, s.89-97*





"Kommunist" qəzetinin 6 oktyabr 1929-cu il tarixli sayında Azərbaycan Ali Pedaqoji İnstitutunun açılması haqqında verilən məlumatda deyilirdi:*"Bu il yeni təşkil edilən Azərbaycan Ali Pedaqoji İnstitutu oktyabrın 10-dan işə başlayacaqdır. İnstitut üçün 3 mərtəbəli yeni bina tikilmişdir. Bu il institutun I kursuna 120 tələbə qəbul edilmişdir. İnstitut üçün yaxşı qüvvələr çağırılmışdır."*[38]

1930-cu ilin martın 30-da Azərbaycan K(b)P MK katibi *Ağa Sultanovun* və Xalq maarif komissarı *Ayna Sultanovanın* iştirakı ilə ali pedaqoji təhsillə bağlı xüsusi müşavirə çağırıldı. Müşavirədə Ali Pedaqoji İnstitutun təşkili ilə bağlı direktor Pənah Qasımovun məruzəsi, P.P.Fridolinin məlumatları dinlənilib müzakirə edildi və müəllim kadrları hazırlığının perspektivləri müəyyənləşdirildi. Qısa bir vaxtda Pedaqoji İnstitut öz inkişafının ikinci mərhələsinə qədəm qoydu, *elmi-pedaqoji fikrin əsas mərkəzinə, bütün ixtisaslar üzrə müəllim kadrları hazırlayan ali pedaqoji təhsil ocağına çevrildi.*

1924-cü ildən V.İ.Leninin adını daşıyan Azərbaycan Dövlət Universiteti ləğv edildiyindən,V.İ.Leninin adı 1930-cu ildə yenidən təşkil edilən Azərbaycan Dövlət Pedaqoji İnstitutuna verildi.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin təməl daşını qoyanlar beş il müddətində *ali təhsilli*

[38] *"Kommunist" qəzeti, 6 oktyabr 1929*

*müəllim kadrları hazırlığında möhtəşəm işlər gördülər, tarix yaratdılar və həm də onun tarixini yazdılar, "Ali Pedaqoji İnstitut.Beş yıllıq"* adı ilə bizə dəyərli miras qoydular.

Məcmuənin ***"Ali Pedaqoji İnstitutu tarixçəsi"*** adlı ilk bölməsində Ali Pedaqoji İnstitutun direktoru Cəlil Məmmədzadənin *"Beş yıl"* adlı məqaləsində institutun təşkili və inkişafının ilk beş ili təhlil olunur. Müəllif həmin məqaləsini həm də redaktoru olduğu "Mədəniyyət və maarif" jurnalının 1926 -cı ilin 5-6 sayında da nəşr etdirmişdir.

Məcmuənin ***"Tədris və tərbiyə işləri"*** bölməsində Tarix-ədəbiyyat şöbəsinin dekanı İsmayıl Hikmətin *"Ali Pedaqoji İnstitutu Ədəbiyyat şöbəsi"*, Təbiyyat-aqronomiya şöbəsinin dekanı Səlimə Osmanzadənin *"Təbiyyat – aqronomi şöbəsi"*, Fizika-riyaziyyat şöbəsinin dekanı Məmməd Əfəndizadənin *"Fizik-riyaziyyat şöbəsi"*, Tarix-ictimaiyyat şöbəsinin dekanı Əziz Ubaydullinin *"Tarix-ictimaiyyat şöbəsi"*, Ali Pedaqoji Qadın İnstitunun direktoru Sara xanım Xuramoviçin *"Ünas Pedaqoji İnstitutu və gələcəyi"*, Ali Pedaqoji İnstitutun nəzdindəki Şaiq adına Pedaqoji texnikumunun müdiri Qafur Əfəndizadənin *"Şaiq Pedaqoji texnikumu"* məqalələri verilmişdir.

Məcmuənin ***"İdarə və təşkilat işləri"*** bölməsində Həbib bəy Mahmudbəylinin *"İnstitutun təsərrüfatı barəsində"*, Məhiəddin Həmzəzadənin *"İnstitut tələbə icraiyyə bürosu"*, S.Ramazanovun *"Kommunist firqə özəyi"*, Rəhimə Səlimin *"Ünas Pedaqoji İnstitutunda firqə işləri"*, A.Əsgərzadənin *"L.K.G.İ.özəyi"* məqalələri öz əksini tapıb.





1924-cü ildə nəşr edilən "Ali Pedaqoji İnstitutun salnaməsi"ndə olduğu kimi bu məcmuənin də son bölməsi ***"Xatirələr və duyğular"*** adlanır.

Burada pedaqogika müəllim Xəlil Fikrətin *"Müəllim arqadaşlara tövsiyələr"*, Bəkir Çobanzadənin *"Ədəbiyyat-lisaniyyat şöbəsində"*, Abdulla Şaiqin *"Üçüncü nur qafiləsi"*, İ.Novruzinin *"Üçüncü məzunlar dolayısı ilə"*, M.İbrahiminin *"Türk ədəbiyyatı ilə fars ədəbiyyatı"*, A.Sərdarlının "Şura müəllimləri" xatirə yazıları verilmişdir.

Məcmuənin sonunda 1925/26-cı tədris ilində məzun olan 55 tələbənin siyahısı verilmişdir.

AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutundan, M.F.Axundov adına Milli Kitabxananın "Azərbaycan kitabı" şöbəsindən əldə etdiyimiz "Ali Pedaqoji İnstitutun salnaməsi"məcmuəsinin Pedaqoji Universitetin kitabxanasında və arxivində bir nüsxəsi belə yoxdur. Hətta Azərbaycan Dövlət Arxivinin və Xalq Təhsili Muzeyinin nəzdindəki kitabxanalarda da məcmuəni tapmaq mümkün olmadı. Məcmuənin əski əlifba ilə nəşr olunması, mətnlərdə külli miqdarda ərəb və fars sözlərindən istifadə edilməsi indiki oxuçular üçün əlçatan deyil. Bu səbəbdən də Pedaqoji Universitetin bir əsrlik yubileyi ilə əlaqədar olaraq 1926-cü ildə nəşr edilən "Ali Pedaqoji İnsti-

tut. Beş illik" məcmuəsini transliterasiya etməklə latın qrafikası ilə nəşr etməyi vacib hesab etdik.

Kitabın ərsəyə gəlməsində dəyərli məsləhətlərini əsirgəməyən layihənin rəhbəri və elmi məsləhətçisi, ADPU-nun rektoru, professor ***Cəfər Cəfərova,*** elm və innovasiyalar üzrə prorektor, professor ***Asəf Zamanova,*** kitabın elmi redaktoru professor ***Yaqub Babayevə,*** AMEA-nın Şərqşünaslıq İnstitutunun Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin elmi işçisi, tarix üzrə fəlsəfə doktoru ***Yaxşıxanım Nəsirovaya*** təşəkkürümüzü bildiririk.

***Fərrux Rüstəmov***
*ADPU-nun İbtidai təhsil fakültəsinin dekanı,*
*pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi,*
*Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü,*
*Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü,*
*akademik Mehdi Mehdizadə, "Gənc alimlər"*
*və "Qızıl Qələm" mükafatları laureatı*



# Azərbaycan Ali Pedaqoji İnstitutu.
# BEŞ YILLIQ

**(5 yıllığı və üçüncü buraxılışı dolayısı ilə)**

**Xalq Maarif Komissarlığı Azərbaycan Dövlət Xalq nəşriyyatı**
**1926**

# ALİ PEDAQOJİ İNSTİTUTU TARİXÇƏSİ

## Beş yıl
## (İnstitutun ikinci dövrəsi)

Beş yıl bundan əvvəl Şuralar Azərbaycanı Pedaqoji İnstitutunu iki məqsədlə təşkil etmişdi; ***birincisi:*** Azərbaycan qəzalarında ikinci dərəcə məktəblər, əmələ[39] fakültələri, darülmüəllimin – darülmüəllimatlar və sənaye məktəbləri üçün şura məfkurəli müəllimlər hazırlamaq; ***ikincisi***: bu məktəbi müəyyən müddət içərisində ali məktəb şəklinə salıb darülfünun sırasına keçirmək.

Bu gün institutun beş yıllıq yubiləsini keçirdikdə biz cəsarət ilə deyə biliriz ki, Şuralar Azərbaycanı yuxarıda göstərdiyimiz hər iki məqsədə nail olmaqdadır.

Bu qədər az müddət içərisində üç buraxılış olmuş: I – 1923/24-də 28 nəfər; II – 1924/25-də 27 nəfər; III – 1925/26-da 56 nəfər; həpsi yüz on bir (111) nəfər müəllim buraxılmışdır. Bunlardan: ədəbiyyatçı – 25 nəfər; təbiyyətçi – 46 nəfər; riyaziyyatçı – 39 nəfərdir.

---

[39] *fəhlə*





Hər nə qədər məmləkətin müəllimə olan ehtiyacı qarşısında bu yüz on bir nəfər müəllim çox az bir şey isə də, lakin Azərbaycan zəhmətkeşləri bu yıl müəllimlər ordusunun üçüncü dəstəsini gördükdə, artıq yaxın bir zamanda bütün orta məktəblərimizin lazımi qədər müəllimlərlə təmin ediləcəyinə əmin ola bilirlər.

Məktəbi yaxın bir zamanda ***türk darülfünunu*** şəklinə salmaq məsələsinə gəldikdə deyə biliriz ki, bu beş yıl müddətində Maarif Komissarlığı bu məsələ üzərində çox çalışmış və əlindən gələni icra etmişdir.

Nəticədə görüyoruz ki, bu məktəbi idarə etmək üçün məmləkətin bütün mütəxəssis ali təhsilli müəllimələri buraya cəlb edilmişdir.

Labarator – kabina təchizatına gəlincə hazırda məktəbdə: 1.fizik kabinəsi, 2.fizik labaratoru, 3. fizik-riyaziyyat labaratoru, 4. kimya laboratoru, 5. heyvanat və nəbatat kabinəsi, 6.tarix kabinəsi və etnoqrafi müzəsi, 7.ümumi bir kitabxana mövcuddur.

Bunlardan başqa məktəbə lazım olan doqquz kabinə və labaratur ləvazimatı vaxtında Avropaya sifariş edilmişdir. Bunların yarıdan çoxusu gəlmiş və yay tətili içərisində gələcək tədris yılı üçün tərtib ediləcəkdir.

Tədris planına baxacaq olsaq görüyoruz ki, məktəbimiz bu cəhətdən pək çox kutlanmışdır. Bunu nəzərə alaraq məktəbin pedaqoji şurası 26 mayıs 1926-cı yıl iclasında böylə bir qərar çıxarmışdır: "Zü-

ür[40] Pedaqoji İnstitutunun əldə etdiyi mütəxəssis
nüəllimlər qüvvəsini, təchiz olunmuş və gələcək
ədris yılı üçün təşkil ediləcək kabinə və labaratuar-
ırını, tələbələrin bilikcə 80% müvəffəqiyyətlərini nə-
ərə alaraq 1926-27-cı yıl tədris planı əsasına Şuralar
usiyası ali pedaqoji məktəblərinin tədris planını
oymalı və məktəbimizi artıq ***Azərbaycan Darülfü-
unu*** sırasına keçirməli".

Bu qərar Xalq Maarif Komissarlığı və ali təşki-
ıtlarımız tərəfindən səmimiyyətlə qarşılanmış, hə-
ata keçirilməsi tövsiyə edilmişdir.

Deməк, Azərbaycan işçi və kəndli sinifləri bü-
in dostları və düşmənlərinin qarşısında fəxr edə bi-
r ki, onun hakimiyyəti, bayrağı altında beş yıl içəri-
ndə ana dilində ali pedaqoji fakültəsi düzəldib da-
ilfünun sırasına keçirməyə qadir imiş!

Ali Pedaqoji İnstitutunun və bu gündən, artıq
***zərbaycan Darülfünunu Türk Pedaqoji fakültəsinin***
ıra məfkurəli bir məktəb olması lazımınca anlaşıl-
aq üçün onun daxili həyatı haqqında da bir neçə
ız söyləyəlim: keçmişin hakimi olan bəylər, xanlar,
öhtəkirlər və onların məfkurəsini daşıyan Müsavat
qəsi bilməlidirlər ki, Azərbaycan Darülfünunun
ırk Pedaqoji fakültəsini təşkil edən qabarlı əllər və
hmətkeş məfkurəsi daşıyan işçi və kəndli hökumə-
akademik işlərini məmləkətin daxili həyatına nis-

*kişi*





bətən birinci növbədə qoymuşdur. Bunu biz tələbələr həyatinin ictimai – sinfi vəziyyətlərindən və məktəb daxilində olan təşkilatlardan görüyoruz.

İnstitutda 162 nəfər leyli[41] və 8 nəfər nəhari[42] zəhmətkeş balaları oxuyorlar. Bunlardan: 11 nəfəri zəhmətkeş ziyalıdır. Bu tələbələr həm leyli məktəbdə yaşıyor, həm də ictimai həyata hazır atılmaq üçün tədris işlərindən başqa aşağıdakı təşkilatlarda çalışıyorlar: Kommunist Firqəsi özəyi, LKGİ özəyi, İcraiyyə Bürosu Yeni Əlifba Dostları cəmiyyəti, Beynəlxalq İnqilabçılara Yardım Cəmiyyəti, İşçi fakültəsi nəzdində fənni, ictimai və həmkarlar ittifaqları dərnəkləri, xüsusi qiraətxanə, Lenin guşəsi və sairə.

Bu təşkilatlar öz aralarında sıxı bir əlaqədə olduqları kimi, nümayəndələr vasitəsilə məktəb şurası təsərrüfat komisyonu ilə də əlaqədardırlar; bundan başqa xaricdə olan firqə, gənclər ittifaqı, maarif evi, Azərbaycan ədəbiyyat cəmiyyəti və başqa lazımi təşkilatlar ilə də sıxı bir əlaqədədirlər.

Bu vaxta qədər buraxılmış olan müəllimlərin qəzalarda əldə etdikləri qazanclardan, göstərilən təşkilatların işlərinin nəticəsini aydın görmək olar. İnstitut məzunları qəza məktəblərini əllərinə aldıqları gündən etibarən bu məktəblər həm tədris cəhətdən, həm də ictimai işlərdə daima yüksəlməkdədirlər.

[41] *gecə (yatılı) məktəbi (yataqxana tipli)*
[42] *gündüz (yatılısız) məktəbi*

İnstitutun vəziyyətini böylə qısaca gördükdən sonra biz yenə də Şuralar Azərbaycanının bu yolda 100% məqsədinə nail olduğunu iddia edə bilməriz, xeyr, görüləcək işlərimiz irəlidədir; bu beş yıl müddətində Darülfünun Pedaqoji fakültəsi adını qazanan Pedaqoji İnstitutunun qarşısında çox böyük və mühüm vəzifələr duruyor, bunlardan ən mühümü bu məktəbdə şura və proletar məfkurəsinin daha dərinləşməsi, tədris işlərinin qüvvətlənməsi və məktəbin fənn və ictimai həyatına aid təchizatın mükəmməlləşməsidir. Proletar və zəhmətkeş kəndli düşmənləri artıq əmin olmalıdırlar ki, bu binanın meyvələri ən yaxın bir zamanda yalnız Azərbaycan şura və zəhmət məktəblərini deyil, bəlkə, Şuralar Azərbaycanına göz dikən Şərq Şura Cümhuriyyətlərinin məktəblərini də qırmızı müəllimlər ilə təmin edə biləcəkdir.

**C.Məhəmmədzadə**[43]

[43] ***Cəlil Məmməd oğlu Məmmədzadə*** *(1888- 1934) (bəzi mətnlərdə Məhəmmədzadə yazılır) 1926-1927-ci illərdə Ali Pedaqoji İnstitutun direktoru olmuşdur. Bax:* ***F.A.Rüstəmov.Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları.****Bakı:Elm və təhsil, 2019, s.78-88*





# TƏRBİYƏ VƏ TƏDRİS İŞLƏRİ

## Ali Pedaqoji İnstitutu Ədəbiyyat şöbəsi

Ədəbiyyat şöbəsinin 1924-26 iki yıllıq fəaliyyətini göz önündən keçirirkən əldə edilən tərəqqini qeyd etməmək mümkün deyildir.

İlk buraxılış yılından sonra gərək proqramlarda yapılan dəyişikliklər və əlavələr, gərək ədəbi və ictimai çalışışdakı yeniliklər tədrisata daha geniş və daha ümid artırıcı bir şəkil vermişdir. Şübhə yox ki, bu şöbəyə lazım olan hər şey təmin edilmişdir, deniləməz[44]. Tədrisatı daha əməli, daha həyati, daha canlı və daha qutlu[45] bir şəklə qoymaq üçün bir çox cəhətlərdə nöqsan vardır. Bu cəhət inkar olunmaz. Bununla bərabər inkar olunamayan bir cəhət daha varsa, o da iki yıldan yeni əldə edilən tərəqqi və təkamüllər. Bu da ümidə qüvvət verən bir nöqtədir.

İlk yıllarda tələbənin material cəhətindən uğradığı ən müşküllər keçən iki sənə[46] zərfində, tamamən olmasa da, qismən gidərilmişdir[47]. Bu material cəhə-

[44] *deyilə bilməz*
[45] *xoşbəxt*
[46] *il*
[47] *aradan qadırmaq*

tilə nöqsan qalan nöqtələri tamamlamağı məktəb idarəsi böyük bir ciddiyyətlə öhdəsinə almışdır.

Nitəkim[48], gələcək yıllarda müəllimlər tərəfindən veriləcək leksiyaları, tələbənin istifadə edə biləcəkləri bir şəkildə çap etdirməyi düşündüyü və bunu təmin etmək üçün çalışdığı halda, türk, rus və sair dillərdə əsərlər gətirdərək tərcümələri lazım gələnləri tərcümə etdirməyi düşünməkdədir. Gələcəyə aid olan bu islahatı bu yıllarda mümkün olduğu qədər təminə çalışmaqdan da gərək məktəb idarəsi, gərək tələbə təşkilatı durmamışdır.

İlk sənələrdəki nöqsanlardan biri və pək[49] mühümü proqramlarda idi. Nə türk ədəbiyyatı tarixinə verilən saatlar kafi idi, nə də ədəbiyyat mütəxəssisi olaraq yetişəcək gənclərə lazım olan bütün elmlər proqrama qonula bilmişdi[50]. Keçən iki sənə zərfində bu nöqsanlar qismən təlafi[51] edilə bilmişdir.

Məsəla, türk ədəbiyyatı tarixi üçün daha fazla zaman tahsis[52] olunduğu üçün Türkiyə tarixi ədəbiyyatı ilə bərabər Azərbaycan ədəbiyyatı tarixinin də ilk dövrləri göstərilmişdir. Bundan başqa ilk yıllarda proqramlarda heç mövcud olmayan Qərb ədəbiyyatı tarixi də iki yıldır ədəbiyyat şöbəsində tədris edilməkdə və 1924/25 sənəsinə nəzərən 1925/26 sənəsində daha müfəssəl keçilə biləcək dərəcədə bu fənnə zaman verilmişdir.

Ədəbiyyat mütəxəssisləri üçün cahan ədəbiyyatı haqqında əsaslı məlumat almaq lüzumu pək aydın olduğu kimi tarix seyri boyunca ədəbi məsləklərin dəyişmələri, yeniləşmələri xüsusunda da kafi dərəcədə vaqif sahibi olmaq və bu istəhalaların ictimai, fikri, fəlsəfi və bədii səbəblərini də öyrənmək zəruridir. Bu məlumatı haqqı ilə əldə etmək üçün tələbənin əlində türkcə əsərlər mövcud olmaması tədrisatı xeyli çətinləşdirməkdə, verilən leksiyalardan istifadə etmək, alınan notları yazmaq və basmaqla[53] uğraşmaq[54] kimi zəhmətlərə qatlanmaq[55] məcburiyyətlərilə qarşılaşmaqda idi. Gərçi rus dilinə vaqif olanlar bu xüsusda daha qolay[56] işin içindən çıxa biliyorlardı. İşin bu çətinliyini görən məktəb idarəsi bu yıldan lazım gələn təşəbbüslərdə bulunmaqda[57] və gələcək tədris yılı üçün lazım gələn kitab və sairəni əldə etməyə çalışmaqdadır.

Maaləsəf[58], bu yılda, proqramlarda mövcud olmaması üzündən[59] ədəbiyyat mütəxəssislərinin məh-

[48] *necə ki, belə ki*
[49] *çox, ən*
[50] *daxil edilmişdi*
[51] *burada: düzəldilmişdir*
[52] *ayrılma*
[53] *burada: çap etdirmək*
[54] *məşğul olmaq*
[55] *dözmək*
[56] *asan*
[57] *burada: göstərmək*
[58] *təəssüf ki*



Azərbaycan Ali Pedaqoji İnstitutu. 5 illik

rum qaldıqları sənai-i nəfisə[60] tarixi, estetika kimi bəzi fənləri də məktəb müəllimlər şurası proqramlara əlavəni təklif etmişdir.

Bundan başqa gələcəkdə institut tələbəsinin daha əsaslı və əməli tərzdə çalışmasını təmin və eyni zamanda yeni tədris üsullarını daha müvəffəqiyyətli tətbiq üçün, ədəbiyyat şöbəsinin ən həqiqi laboratoriyası olan məktəb kitabxanasını genişlətmək məktəbin ən əsaslı arzularından birini təşkil etməkdədir.

Fars, ərəb, türk, rus və Qərb ədəbiyyatlarına sənai-i nəfisə tarixlərinə aid bir çox qiymətli əsərləri Moskva və Cermaniyadan[61] cəlb etməyi düşünən məktəb idarəsi bu xüsusda gərək Maarif Komissarlığı və gərək bütün hökumət idarələrindən yardım görəcəyindən əmindir.

Məktəbin bütün bu rəsmi fəaliyyətinə ənzəmam[62] edən tələbə təşkilatının fəaliyyəti dərnəklərdəki ictimai və səmimi qayrətdə[63] gərək[64] verilən məlumatı daha tətbiqi və həyati bir hala qoymaq, gərək təcrübə və tədqiq sahəsini genişlətmək etibarilə fövqəladə mühümdür və bu cəhətə verilən diqqət və əhəmiyyət də təqdirə layiqdir. Hər halda bu təşkilat-

59 *səbəbindən*
60 *gözəl sənətlər, nəfis şəkildə yaradılmış əsərlər*
61 *Almaniyadan*
62 *qoşulan*
63 *səy göstərmə*
64 *istər*





dan bəklənən[65] fayda pək böyükdür. Gənc tələbə yoldaşların bu əhəmiyyəti anladıqları və pək təbii olaraq candan çalışdıqları və gələcəkdə də daha candan çalışacaqları yəqindir.

Bütün şöbələrdə olduğu kimi ədəbiyyat şöbəsində də tənəzzühlərə[66] böyük əhəmiyyət verilməkdə olduğu qeyd edilə bilir. Keçən yıllarda tətbiqinə istənildiyi mərtəbə müvəffəqiyyət oldurmayan[67] bu cəhətə gələcəkdə büyük bir əhəmiyyət vermək lazımdır. Tələbə gərək Azərbaycan daxilində, gərək digər şura cümhuriyyətləri sahəsində ədəbiyyat tarixinə aid fənni tənəzzühləri yaymaq və oraların bu xüsusdakı mənbələrinə və təşkilatlarına vaqif olmaq əməllərini bəsləməkdədir. İdarədə bu xüsusda lazım gələn çarələri düşünməyə ilk yıllara nisbətlə daha canlı keçən nümunə dərsləri məsələsini də tələbənin daha ziyadə mənfəətinə və təcrübəsinə, mülakasına[68] əlverişli bir hala qoymağı düşünən idarə bunun üçün də əsaslı bir proqram hazırlamaqdadır. Çünki yetişən gənc müəllim və pedaqoqun ən mühüm vəzifəsinin biri və bəlkə, birincisi müvəffəqiyyətlə dərs verməkdir. Bu da ancaq üsul və nəzarət altında mümarəsələr[69] yaparaq əldə edilə biləcək bir məslək ilə hasil olur. Onun üçündür ki, nümunə dərslərini əməli tətbiqat dərsləri halına qoymaq və bəlkə, bir tələbəyə

65 *gözlənən*
66 *gəzinti*
67 *təşkl etmək*
68 *müsahibə*
69 *əl alışqanlığı, alışmaq*

nümunə olaraq bir- iki dərs verdirərək onu yoxlamaq və haqqında gəlişi gözəl bir hökm vermək "bu məlum olur, bu məlum olmaz!" deyib keçirmək deyil, bəlkə, müvəffəq ola bilmələrini təmin üçün kəndilərinə[70] imkan və zaman vermək icab edər. İştə bunun üçün də son sənənin son dövrəsini tamamilə tətbiqi dərslərə, nümunə dərsləri, məktəb idarələri və təşkilatlar ilə aşina olmağa tahsis etməyi məktəb idarə və şurası arzu etməkdədir.

Bundan maadə[71] yaz tətilləri müddətincə də gənc ədəbiyyatçıların sərbəst fəaliyyətlərə alışmaları və öz mahiyyətlərinin ədəbi həyatı, ədəbi zövqü və ədəbi məhsulları ilə aşina olmalarını təmin üçün özlərinə sərbəst ədəbi tədqiq mövzuları verilməkdə və bu surətlə fəaliyyətlərinə daha geniş bir sahə açılmaqdadır.

Hər halda institutun ədəbiyyat şöbəsi gələcəkdə Azərbaycan Şura Cümhuriyyəti məktəblərinə haqqilə rəhbərlik edəcək canlı, həyəcanlı, fəal, məlumatlı və müdəqqiq[72] gənc müəllimlər hazırlamaq üçün hər dövrlü çarəyə təşəbbüsdən geri durmamaqda. Bu xüsusda da çox böyük və qəti ümidlər bəsləməkdədir.

***Tarix -ədəbiyyat şöbəsi dekanı***
***İsmayıl Hikmət***[73]

---

[70] *özlərinə*
[71] *başqa*
[72] *diqqətlə tədqiq edən, ciddi tədqiqatçı*
[73] ***İsmayıl Hikmət*** *1889-cu ildə İstanbulda Bəylərbəyi məhəlləsində anadan olub. Orta təhsilini Qalatasaray liseyində alıb. İstanbulda*





## Təbiyyat - aqronomi şöbəsi

İşbu məqalə oxucuya Ali Pedaqoji İnstitutu təbiyyat-aqronomi şöbəsinin vəziyyətini, gələcək arzu və təsəvvürlərimizi göstərmək və işlərin ümumi xarakteri ilə aşina etmək qayəsini təqib[74] ediyorsa da, yerin pək məhdud olduğundan bu məsələ haqqında geniş və lazımi qədər məlumat vermək imkanı yoxdur. Buna görə biz məsələni yalnız sahama – konspekt tərzində izah edə biləcəyiz.

---

*Mülkiyyə məktəbini bitirib (1911). Qalatasaray liseyində, Robert kollecində, Xarici İşlər Nazirliyində çalışıb. Azərbaycan XKS-nın dəvəti ilə 1923-cü ildə Bakıya gəlib. 1924-1926-cı illərdə Ali Pedaqoji İnstitutunun Tarix-ədəbiyyat şöbəsinin (fakültəsinin) dekanı olub.1927-ci ildə ADU-nun Elmi Şurasında "Azərbaycan ədəbiyyatı tarixi" mövzusunda doktorluq dissertasiya müdafiə edib və professor elmi adına layiq görülüb. 1927-ci ilin dekabrında Ankaraya qayıdıb. Türkiyəyə qayıtdıqdan sonra Qazi Təhsil İnstitutunda ədəbiyyat müəllimi, Milli Təhsil Nazirliyində müfəttiş, Kipr Türk Liseyinin, Ankara Cümhurbaşqanlığı Orkestrinin, İstanbul Gözəl Sənətlər Akademiyasının direktoru vəzifələrində çalışıb (1933-1935). 1939-cu ildə Əfqanıstanda "Gecə Universiteti" təşkil edib. 1942-ci ildə Türkiyəyə qayıdıb. 1943-cü ilin yanvarında İstanbul Universitetinin Ədəbiyyat fakültəsində Türk dili və ədəbiyyatı tarixi kafedrasının ordinar professoru təyin edilib və 1960-cı ilədək orada çalışıb."Türk ədəbiyyatı tarixi". I cild. (1925), "Türk ədəbiyyatı tarixi".II cild.(1925),"Türk ədə-biyyatı tarixi". III cild (1925),"Türk ədəbiyyatı tarixi (Osmanlı qismi.1908-1918)" (1926), "Azərbaycan ədəbiyyatı tarixi. Mənşəyindən 1905-ə qədər" (doktorluq dissertasiyası). (1928),"Zəfər divanı. İstanbul (1964) kitablarının müəllifidir."Maarif və mədəniyyət" və "Şərq qadını" jurnallarında çoxlu şeirləri və elmi məqalələri dərc olunub.*

*Prof. İsmayıl Hikmət 18 dekabr 1967-ci ildə İstanbulda vəfat edib.*

[74] *burada: nəzərdə tutma*

İnstitut hazırki tədris yılında üçüncü dəfə olaraq məzunlar buraxıyor. Buraxılışda 19 təbiyyətçi mövcuddur. Bunlardan altı nəfəri nisanın[75] sonunda məktəbdən buraxılmış və şimdi Zaqatalada təcrübəli aqronomun rəhbərliyi altında kənd təsərrüfatı işlərilə məşğuldurlar. Bu altı nəfər 1926-cı sənənin son baharından etibarən Azərbaycanda yeni açılacaq kənd cavanlar məktəblərinin[76] ilk müəllimləridirlər. Bu məktəblərin ölkəmizin həyatında böyük əhəmiyyətləri olacağı haqqında yazmağa lüzum görülmüyor: bu aydın və aşkardır.

Təbiyyat elmlərinin materializm əsası üzrə sağlam və aydın dünyanı anlayış yaratmağa yardım edən bir fənn olduğunu düşünərək biz böyük bir hiss məmnuniyyətlə bu il Azərbaycan Cümhuriyyətinin maarif cəbhəsinə daha on doqquz təbiyyətçi müəllim veriyoruz.

Üç yıl müddətində tələbələr, şimdiki gənc müəllimlər məktəbi bitirdikdən sonra daşıyacaqları məsuliyyəti iyi[77] hiss edərək usanmaqsızın[78] kəndi təh-

[75] *aprel*

[76] *Azərbaycan K(b)P MK-nın 10 avqust 1925-ci il tarixli kəndli gənclər məktəbləri təşkil edilmişdir.Həmin məktəblərin nəzdində kəndlərdən gələn uşaqlar üçün internat tipli yataqxanalar təşkil olunmuşdu. Buraya I dərəcəli məktəbləri bitirən,12-17 yaşlı uşaqlar qəbul edilirdi. Təhsil müddəti 3 il idi.Bu məktəbi bitirənlər texnikumlara və II dərəcəli məktəblərə daxil ola bilərdilər.*

[77] *yaxşı*

[78] *yorulmadan*





silləri uğrunda çalışmışlardır. Bütün dərslər Darülfünun kursunun bioloji şöbəsi həcmində keçilmiş, müvəffəqiyyət tam 100 faiz qeyd edilmişdir. *Kimya, heyvanat, nəbatat, mineraloji, zooloji, fizika* aid əzimli əməli məşğələlərin həpsi yapılmışdır. Bundan başqa metodun məktəb işləri də aparılmışdır.

Bunun ilə bərabər biz institutda olan nöqsanları gizləmək fikrində deyiliz. Fəqət laboratuvarların normal dərəcədə təchiz olunmamasını, türk lisanında istər elmi, istər metodik ədəbiyyatın yoxluğunu, bu və ya digər məsələnin həlli üçün vəsaitin olmadığını, tələbələrin işlərinin çoxluğunu nəzərə alarsaq, bu kimi şərtlər daxilində müvəffəqiyyətimizi normaldan fazla hesab ediyoruz.

Bu yılki tədris sənəsindən etibarən fakültə aqronomik tamamilə keçiyor. Gələcək məzunların tədris müddəti bir il artıyor, qəbul zamanı müsabiqə təyin ediliyor.

Xalq Maarif Komissarlığı institutun təchizatına ciddi əhəmiyyət veriyor. Kimya laboratuvarı genişlətiliyor, qaz istasyonu[79] quruluyor, bütün disiplinlərə aid kabinə və laboratuvarlardan olmayanların təsisinə, olanların genişlənməsinə fikir veriliyor, yay praktikumları tərtib ediliyor, fənn-i təbii disiplinlərinə aid ədəbiyyat nəşri təxmin olunuyor: buna aliyə[80]

[79] *stansiyası*

[80] *buna baxmayaraq*

biz əminiz ki, institutda işlərin iyiləşməsi üçün ittihaz[81] ediləcək tədbirlərə mütənasib olaraq fakültənin müvəffəqiyyətləri də yıldan -yıla artacaqdır.

İnstitutun əski tədris planında aqronomi işlərinə aid disiplinlər yox idi. Fəqət müəllimlər tədris işlərinə həyati bir yanaşmanın lazım olduğunu nəzərə alaraq tələbələrə tədqiq edilən əşya barəsində, ölkəşünaslıq təmayililə, mümkün mərtəbədə pratik məlumat verməyə çalışmışlardır. Təbiyyət aqronomi şöbəsinin qarşısında duran bu məsələnin gələcəkdə müfəssəl surətdə hazırlanaraq həyat ilə daha da sıxı rabitəyə gətiriləcəyini ümid ediyor.

Fakültənin daxili həyatını səciyyələndirdiyi üçün tələbələrin fənni dərnək işlərinə, müəllimlər tərəfndən verilən əməli pratik vəzifələri yapmaya olan məraqlarını qeyd etməliyiz. Buna görə də onların gələcək müəllimlik həyatında kəndi məlumatlarını daima dərinləşdirəcəklərindən əmin ola biləriz. Hayatda lazım olan məlumatın həpsini məktəb verməz. O, yalnız yol göstərir, əsval öyrədir, tələbədə maraq oyandırır, institut da bunu yapa bilmişsə, məqsəd əldə edilmişdir, demək oluyor. Təbiyyət çox mürəkkəb və zəngin olduğundan daima tədqiq və müşahidə edilməlidir. Bunu təbiyyətçilər hamıdan çox biliyorlar. Kəndi məlumatını müşahidə və təcrübə ilə yoxlamaq adəti hasıl olarsa, yeni məlumatı da bu əsval ilə qazanmaq mümkün olar.

[81] qəbul





Ümumiyyətlə, təbiyyətə aid əsərlərin, pratik işlərində əhəmiyyətli olan rəhbər kitablarının, nəbatat və heyvanat növlərini təyin etməyə vasitə olan kitabçaların türk dilində bulunmaması bir tərəfdən ən yaxın zamanda kitab bazarının tərcümə ilə də olsa, bunlarla təchiz edilməsini, digər tərəfdən məzun tələbələrin daima institut ilə əlaqə saxlayaraq gələcək fəaliyyətlərini onun rəhbərliyi ilə yapmalarını arzu etdirir. Hələlik fənn-i -təbii disiplinlərinə aid ədəbiyyatdan məhrum qalmış gənc müəllimlər məhəllərdəki fəaliyyətlərinin səmərəli olmasını ancaq institut ilə olan bu irtibat[82] sayəsində təmin edə bilirlər. İstər ekskursiya zamanı, istər başqa ittifaqlarda nəbatat, heyvanat, mineraloji və bu kimi fənlərə aid kəndilərinə məchul bir şeyə təsadüf etdikləri vaxt onları toplamalı və təyin edilmək üçün instituta göndərməlidirlər. Göndərilən əşyanın olduğu yer, mühit, şərait, məhəlli adı, tapıldığı tarix qeyd edilməlidir. İnstitut isə kəndi qüvvəsilə və müşkül ittifaqlarda səlahiyyətdar orqan və təşkilatların yardımı ilə qəti cavabını verməlidir. Bu surətlə toplanmış material bir tərəfdən məktəb müzeləri təsisinə yardım edəcək, digər tərəfdən doğma yurdu ətraflı olaraq öyrənməyə material verəcək, üçüncü tərəfdən isə gənc pedaqoqlar-

[82] əlaqə

dan həqiqi naturalistlər yaratmaqla bilgilərinin dərinləşməsi və ixtisaslarının yüksəlməsinə yardım edəcəkdir.

İnstituta göndərilmiş ölkəşünaslıq materialı əsas olaraq bu surətlə tədricən pedaqoji xarakterli nümunəvi ölkəşünaslıq müzesi təşkil edəcəkdir. Böylə müzenin təşkili Azərbaycan məktəbləri nəzdində də buna bənzər müzelər təsisinə iyi bir örnək olacaqdır. Bu kimi iş bizi və gənc pedaqoqları eyni işi geniş miqyasda aparan vaxt pedaqoji səciyyəni haiz olmayan[83] digər müəssisələr – Azərbaycanı tədqiq və tətbiq cəmiyyəti və dövlət-i müze – ilə əlaqədar edərək bu böyük və mühüm işin yüksəlməsi üçün qarşılıqlı müavinət göstərilir.

Ali Pedaqoji İnstitutunu bitirənlərin kəndi **Alma materlerile** olan əlaqələri yalnız bununla qalmaz. İnstitut kəndi övladlarını maraqlandıran müxtəlif məsələlər dairəsində istər fənn-i təbiiyə, istər metodolojiyə aid ədəbiyyat göstərməklə əməli təlimatda bulunaraq müraciət edənləri cavabsız buraxmayacaqdır.

İnstitut məzunlarının yıllıq qurultayında onların məhəllərdə gördükləri işlər haqqında verəcəkləri izahat, institut nümayəndələrinin də təbiyyat elmləri və digər disiplinlərin yeni müvəffəqiyyətləri, metodlar və metodolojiyə aid mövzular haqqında verəcəkləri məlumat müəllimlərin ixtisaslarının dərinləşməsinə və təhsil alan kütlənin ümumi olaraq səviyyəsinin yüksəlməsinə yardım edərdi. Fənn və bilgi mənbəyi olan institutla daimi təmas nəticəsində mütəmadiyən dərinləşəcək olan bioloji fənlərinin intişar etməsi həm materialistcəsinə dünya anlayışının sarsılmaz istinadgahını cəhalət və batil etiqadlarla mübarizə silahını təşkil edər: həm də tənqidi fikirləri inkişaf etdirməklə bəşəriyyətin hazırki yaşayışı və gələcək müqəddəratının tarix və şəraitini anlamağa ən doğru və yeganə yol olan iqtisadi cəhətdən yanaşma – marksizm – ümumiyyətən əsas qoyar.

Şöbə dekanı: **S.Osmanzadə**[84]

[83] *uyğun olmayan, xüsusiyyətini daşımayan*





[84] ***Yaqubova-Osmanzadə (Osmanova) Səlimə xanım*** *(1890-1982) - Azərbaycanın ilk maarifçi qadınlarından biri olub. Peterburq Universitetinin fizika-riyaziyyat fakültəsini bitirib. H.Z.Tağıyevin təqaüdü ilə oxuyub, "Müqəddəs Nina" qız məktəbinin, Azərbaycan birinci milli qadın gimnaziyasının direktoru (1919) olub. Azərbaycan Xalq Maarif Komissarlığının Bakıdakı Volqaboyu tatarları üçün 6-aylıq pedaqoji kursunda müəllim (15.4.1921-dən) işləyib. 1921-ci ildən Ali Pedaqoji İnstitutda və Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsində zoologiya və bitki fiziologiyasından dərs deyib. Ali Pedaqoji İnstitutda təbiyyat-aqronomiya şöbəsinin dekanı olub.*

## Fizik-riyaziyyat şöbəsi

Ali Pedaqoji İnstitutu fizik-riyaziyyat şöbəsi institutun təşkilindən etibarən davam etmədədir. Şöbənin məqsədi, pedaqoji texnikumu, fəhlə fakültəsi, texnikum və sair orta məktəblərdə riyaziyyat və hikmət dərslərini aparmaq üçün müəllim yetişdurməkdir. 1925/26 sənəsi buraxılışı institutun üçüncü buraxılışıdır.

Yuxarıda göstərilən şöbə tərəfindən 1923/24 sənəsində II dərəcəli məktəblərə 9 kişi, 1924/25 sənəsində 7 müəllim göndərilmişdir.

Bu sənə isə şöbəni ikmal[85] edənlərin sayısı 21-dir. Böyləliklə şu 3 buraxılışda şöbənin azəri və sair türk cümhuriyyətləri II dərəcəli məktəblərinə hələlik yetişdirildiyi 37 kişi olur.

Hər üç buraxılış gələcək buraxılışlara nisbətən bir qədər sürətli hesab edilir. Buna səbəb bu ana qədər tətbiq edilən əski dərs planı olmuşdur. Məzkur plana görə tədris 3 sənəlik idi (bir sənə ümumi şöbə və iki sənə ixtisasi şöbələrində).

Əski dərs planı üzrə şöbəmizdə, ümum şöbələrə aid pedaqoji və ictimai fənlərdən məadə[86], II dərəcəli məktəbləri canlandıracaq bir şəkildə hikmət, kosmoqrafiya[87], cəbr, həndəsə, məsləsat[88] müstəvi və kürəvi, həndəsə-i halliyə[89], mexanika, kimya, hesab-i əsfər-i namütənahi[90], hesab-i təfazuli[91], hesab-i təmami, tarix, riyaziyyat, hikmət və riyaziyyatın metodikası fənləri keçilmişdir. Şöbə tərəfindən buraxılacaqların fənni və ictimai səviyyələrini daha parlaq bir şəklə qoyman üçün məktəb yeni və müfəssəl dərs planı qəbul etmişdir. Və bu plan 1924/25 sənəsindən 1-ci kursdan etibarən tətbiqə başlanmış və 4 sənəlik tədris nəzərə alınmışdır.

Məzkur dərs planı darülfünun pedaqoji fakültəsi dərs planı olmaqla bərabər üzərində bəzi əlavələr təbəddülatlar olmuşdur.

Yeni dərs planı əski sənəyə nisbətən daha genişdir. Yuxarıda tədad[92] edilən fənlərdən məadə əlavə olaraq analizə giriş, hesab-i tamami və hesab-i təfazulinin həndəsəyə tətbiqi, hesab-i nəzəri, əməli-i cəbr, riyazi qrafik artırılmışdır.

Dərslər olduqca seminar üsulunu təqib etdiyindən, riyaziyyat və hikmət dərslərinin təcrübə və labaratuvar saatları lazımi qədər artırılmışdır. Şöbə hikmət kabinəsi, hikmət və riyaziyyat labaratuvarlarına malikdir. Maaləsəf, kabinə və labaratuvarlar arzu edildiyi qədər təchiz edilməmişdir və şu qüsur

[85] *bitirmək*
[86] *istisna olmaqla, başqa*
[87] *kosmos və göy cisimlərinə aid elm*
[88] *üçbucaq*
[89] *layihə qeometriyası (həndəsəsi)*
[90] *sonsuz, ucu bucağı olmayan*
[91] *diferensial hesab*
[92] *burada: sadalanan*

kəndisini tədris işlərində hər kəsin nəzərinə çapdırmışdır. Hikmət kabinəsinin mükəmməl təchizi üçün Almaniyadan bəzi fizik cihazları və sair fiziki ləvazimatlar sifariş edilmişdirsə də, vaxt hala[93] alınmamışdır.[94]

Kabinə az hər cəhət[95] zəifdir. Böylə ki, ləvazimat-i tədrisiyə, fiziki cihazlar və sairəsi az olduğu kimi, yerləşdiyi odalar dəxi küçükdür və azdır. Kabinədə bəzi fizik cihazları, makinə və aparatları vardırsa da, fəqət bu mövcudiyyət labaratuvar ehtiyacını ödəmək iqtidarında deyildir. Bunlarla labaratuvar işləri deyil, yarım yamalaq[96] kabinə ehtiyacı rəf[97] oluna bilər, kabinə və labaratuvarların müntəzəm və zəngin bir şəkildə olmamasının səbəbi onların bu ana qədər maddi cəhətdən təmin edilməməsidir. Şu vəziyyətdə olan kabinə və labaratuvarlar təcrübi fiziki dərslərinin tam müvəffəqiyyətlə aparılmasına bir növ zərbə vermişlər. Kabinə və labaratuvarların əsaslı və müntəzəm bir şəkil almamasının digər bir canlı səbəbi isə, onların yardımcısı olan sənətxanələrin hala[98] təşkil etməməsidir.

Bununla bərabər hikmət dərslərinin zəhmət məktəblərindəki quruluş və tədrisatı, proqramı zəh-

[93] hələ
[94] burada: müəyyən edilməmişdir
[95] hər cəhətdən
[96] qüsurlu, yarımçıq
[97] burada: aradan qaldırma, qarşılanma
[98] hələ də, hələ ki





mət üsullarına istinadən aparılmasını tələb ediyor. Tələbatı ödəmək və zəhmət məktəbləri məfkurəsinə müvəffəq olmaq üçün yetişdirdiyimiz tələbələrin təcrübi, həyati işlərlə və zəhmət üsulları ilə yaxından tanış olmalarına və canlı məlumat kəsb etmələrinə çalışmalıyız. Bu yolla hazırlanan tələbələr proqramı zəhmət üsuluna, həyata və istehsalata tətbiq edə bilən tam bacarıqlı və tam qabil fərdlər yetişirlər. Bu günkü və bu günkü iş – zəhmət məktəbləri bunu bizdən tələb edər, zəhmət məktəbinə tədrisə atılacaq institut müdavimləri tam hazır və tam məlumatlı bir sənətkar olaraq cəbhəyə atılmalıdır. Arzu edilən məqsədə tam müvəffəq olmaq üçün tələbələr kursla müvazi[99] yapdıqları təcrübələrdən məadə bir daha onların sənətxanələrdə çalışması icab edər. Burada çalışan tələbələr də ibtidai tədqiq bədə[100] bacarıq – qabiliyyət və maraq hissi oyanmaqla bərabər zehni və əzələvi itiyadlar[101] hasıl edilir.

Digər tərəfdən isə, sənətxanələrdə çalışan işçilər təcrübə işləri üçün bir takım[102] lazım olan cihaz və sairənin modelini yapmaq, bozuqlarını[103] təmir etmək və tərkibatları ilə tanış olduqları kimi, göndəriləcəkləri məktəblərə və ümumiyyətlə, xalq maarifi-

[99] paralel, yanaşı
[100] -dən sonra, sonrası
[101] alışqanlıq
[102] burada: bir neçə
[103] istifadəyə yararsız, xarab

nin canlı və həyati bir tərzdə aparılmasına böyük xidmət etmiş olarlar.

Bu gün hər kəsi düşündürdüyü kimi bizi dəxi düşündürən ən xəstə məsələlərdən biri olsun gərək. Çünki orta məktəblərimizin bir çoxunda riyaziyyat, hikmət və kimya dərslərinin nəzəriyyatını tətbiqata bağlamaq üçün heç bir vasitə yoxdur. Məzkur fənlər bəzən təcrübəsiz, tətbiqatsız, nəzəri keçilməsi isə cansızdır, xəyalidir və qeyri-həyatidir. Elm, məlumat isə yalnız təcrübədən kəsb edildiyi aşikardır.

Riyaziyyat labaratuvarı hala cavandır. Keçən sənədən təşkil etmişdir. Məmafih[104] riyaziyyat labaratuvarı bir çox qiymətə haiz[105] işlər yapmışdır. Aparılan işlər riyazi təcrübə işləridir. Studentlər böyük maraqla işə yanaşaraq bir çox miqyasat alətlər, həndəsəvi modellər, diaqramlar, ehsaiyə[106] nümunələri, qrafik işləri və qrafik üsulu üzrə bir çox məsələlərin həlli yollarını göstərmişlərdir. Bunlardan başqa bir çox müşahidələrinə görə qrafiklər, bina planları və sair nümunələr yapılmışdır.

Nəhayət, deyə biliriz ki, riyaziyyat labaratuvarında orta məktəblərdə tədris ediləcək hikmət, riyaziyyat, həndəsə və mexanikanın əksər qismi qrafiklə öyrədilmiş, yapılmış və büyük müvəffəqiyyətlər əldə

[104] *bununla birlikdə*
[105] *qiymətli*
[106] *statistika*





edilmişdir. Böyləcə də riyaziyyat və hikmətin tarixinə və kursuna dair bir çox referatlar oxunmuş və yeni metodik cərəyanlarına dair müzakirə və mübahisələr aparılmışdır. Aparılan işlərin qeydi həp şöbə tərəfindən olmuş və hər birinə aid lazımi brotokoller[107] yazılaraq xüsusi işlər qayrılmışdır.

İnstitut həyatında xüsusən fizik riyaziyyat şöbəsinin həyatında mövcud qeyri-normal hadisələrdən biri də tədris edilən fənlərin heç birindən ana dilində material və dərs kitablarının olmamasıdır. Keçilən proqramı həzm etmək üçün tələbələr vaxtlarının böyük hissəsini yazı işlərinə sərf edirlər. Və böyük zəhmət və səy nəticəsində hər fənnə dair tələbə söylənilən leksiyalardan kitabçalar yaratıyor və onunla hazırlanıyor!

Tələbələrdən edilən tələbatı ödəmək və onları bu ağır vəziyyətdən qurtarmaq üçün olduqca az zaman ərzində fənni kitabların tərcüməsi və söylənilən leksiyaların təbii işin gedişinə böyük yardım edəcəyindən bunu əllüzum[108] məsələlərdən saymalıdır.

Məktəb tərəfindən məsələyə təşəbbüs edilmişdir və ehtimalına gələcək sənə tələbələrimiz bəzi leksiyaların kitabçalarından istifadəyə müvəffəq olacaqlar. Dərslərin üsuluna gəldikdə bu vaxta qədər yal-

[107] *protokol*
[108] *vacib, lazımlı*

nız son üçüncü kursda (sənənin birinci nisfində[109]) üsul dərsləri keçiriliyor idi. Və ikinci nisfindən isə tələbələr nümunə təcrübə dərslərinə başlıyordular. Hər bir dərsi verəcək müəllim, məktəb nəzdindəki pedaqoji texnikumu müəllimlərindən lazımi materialı alaraq konspekt tərtib edir. Tərtib edilmiş konspekt metodika müəllimi tərəfindən təshih[110] və məqbul görüldükdən sonra pedaqoji komisyonu və şöbə müdavimlərinin iştirakı ilə dərs veriyor. Verilən dərsin tənqidi də məzkur heyət tərəfindən yapılır və vaxtın azlığı kəndi simasını bu dairədə də göstərmişdir.

Hər şeydən qabaq üsul dərslərinin xassəsinə düşmüş saatların azlığı, tələbələri bütün təfsilatı ilə yeni metodik cərəyanlarından aşina etməkdə böyük maneəlik yaratıyor. Digər tərəfdən ətrafımızda kompleks və Dalton planları[111] tətbiq edilən bəzi məktəblərin yaxından tədqiqinə əngəl törətmişdir. Doğrudur, bu məktəblərə bir neçə gedişlər, təhqiqat və tədqiqatlar yapılmış. Müdavimlər tərəfindən artıq maraqla lazımi materiallar toplanaraq bir çox müzakirələr mübahisələr aparılmış və işin quruluşundan verdiyi nəticədən təqib olunan məqsəddən bir qədər aşina ol-

[109] *yarısı*
[110] *düzəltmə*
[111] *Dalton Plan- Amerikalı Helen Parkherst tərəfindən 1920-ci ildə ilk dəfə Amerikanın Dalton qəsəbəsində tətbiq etdiyi bir təlim metodudur. Hər şagird özi öyrənmə sürətinə görə on aylıq təlim planı əsasında müəyyən edilən uğurları öyrənir.*





muşlar, fəqət bizim arzu etdiyimiz dərəcəyə varamamışdır, nümunə təcrübə dərsləri hər tələbə tərəfindən istər hikmət və istərsə riyaziyyatdan birər[112] verilmişdir.

Gələcək sənədən etibarən isə üçüncü kursda hesab, əməli həndəsə və əməli fizik dərslərinin üsullarını keçmək şərtilə yuxarıda müqəyyəd[113] işlərin gedişatına iki sənə ayrılmışdır. 4-cü kursda isə orta məktəblərin fizik və riyaziyyat metodikası keçiləcəkdir.

Tələbələrimizin pedaqoji və metodika sahəsində aldıqları məlumatı bilvasitə təhqiqat və tədqiqatla daha geniş bir surətdə inkişaf etdirmək və mütərəqqi bir hala qoymaq üçün gələcək sənədən etibarən I, II dərəcəli məktəblərə, uşaq evlərinə, uşaq bağçalarına və sair təşkilatlara bu sənəyə nisbətən daha sıx-sıx[114] götürələcəkləri qərarımızdır. Bununla kifayətlənməyərək institut müdavimləri hər an bizim qəza məktəblərinin vəziyyətini və bütün ehtiyacatını öyrənməkdədirlər.

Məlum məktəb dairəsində çalışmaqla bərabər xalqın rəhbəri, təbibi və xalq kütləsinə hırsverici[115] sifətlərlə davranmalıdır.

[112] *bir bir*
[113] *qeyd edilmiş*
[114] *tez -tez*
[115] *sonsuz istəklə, məhəbbətlə*

Məlum xalq içərisində hökmranlıq edən əski adətlər, özümüz və mənasız fikir və mövhumatlarla ciddi mübarizələr aparmalı, xalqı hər növ vəsilələrlə məktəbə cəlb edərək onun nüfuzunu və məhəbbətini yüksəltməyə çalışmalıdır. Məktəb mahiyyəti ilə təbii bir əlaqə bağlamaq institutda mahiyyətinin məktəbləri ilə kəskin əlaqə yaratmalıdır.

İnstitut məzunları və sair məsləkdaşlarımız pedaqoji sahəsində topladıqları materiallarla onu maraqlandırmalı və təsadüf etdikləri çətinliklərdə onunla mübadilə fikrə səy etməlidirlər.

Böyləliklə, institut Azərbaycanın pedaqoji labaratuvarı, işçiləri isə maruf yolunda çalışanlar olmalıdır.

*Fizik -riyaziyyat şöbəsi dekanı:*

**M.Əfəndizadə**[116]

[116] ***Məhəmməd Əfəndizadə*** *(1887-1977).1924-cü ildə Ali Pedaqoji İnstitutun direktoru olub. Bax:* ***F.A.Rüstəmov.Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları.*** *Bakı:Elm və təhsil, 2019, s.58-64*





## Tarix-ictimaiyyat şöbəsi

Azərbaycan Türk Pedaqoji İnstitutunun "Tarix və ictimaiyyat şöbəsi" böyük və mühüm qayə və məqsədlərə xidmət ediyor. O məqsəd ikinci dərəcə məktəblərə və texnikumlara ictimaiyyat fənnindən müəllimlər yetişdirmək və hazırlamaqdır.

Şuralar İttifaqında əvvəldən bütün türk-tatar cümhuriyyətlərində bütün ictimai fənləri ana dilində qoymuş bir ictimaiyyat fakültəsi olsa indiyə qədər bu da fəqət Azərbaycandadır. Bəlkə də, demək mümkün ki, marksizm məfkurəsini türk dilində intişar edən bütün türk aləmində bu fakültə birincidir. Onun üçün Azərbaycan Cümhuriyyəsi bununla fəxr eyləməyə haqlıdır. Bu şöbənin əsası fənləri iki növ fənlərdən ibarətdir: biri ictimai həyatın dəyişməsini (evolution) bildirən elmlərdir ki, bunlar müxtəlif tarixlərdən ibarətdir; ümum insaniyyat tarixi, türk tarixi, Azərbaycan tarixi, sənət tarixi, əski və yeni Şərq tarixi, Şərq və Qərbdə inqilab hərəkətlərinin tarixi, sosializm və kommunizm məfkurəsi və hərəkatlarinin tarixi, təsərrüfat qurmalarının tarixi, pedaqoji tarixi, ədəbiyyat tarixi.

İkinci növ fənlər isə stasique və sosioloji elmlərdən ibarətdir: pedaqoji, didaktik, dialektik materializm, statistika, iqtisadi coğrafiya, etnoqrafiya kimi. Üçüncü növ fənlər həm mövcud olub, onlar da

müxtəlif lisanlardan ibarətdir ki, onların içərisində böyük mövqeyi işğal edən dil də rus dilidir.

Bu şöbə institutun başqa şöbələrinə nisbətən ən gəncdir. Onun birinci kursu fəqət bu sənə açılmışdır. Gənc olduğuna baxmaqsızın[117] şöbənin bütün müəllimləri ali təhsilli olub, bütün dərsləri türk dilindədir. Müəllimlərin içərisində beş zat Azərbaycan Darülfünunu müəllimlərindəndir: ikisi də Avropa darülfünunlarının məzunları və doktorlarıdır.

Şöbənin təlim babında qoyduğu prinsip laboratuvar və seminari üsuludur. Lakin lazım dərəcədə kitablara malik olan kitabxananın fəqət təşkil edilməkdə olduğundan, tarix və ictimaiyyat kabinəsi də təşkil (orqanizatsiya) dövrünü keçirməkdə olduğundan, nəhayət, türk dilində marksizm əsasında yazılmış ictimai və tarixi bablarda kitabların pək az olması bu sənə büsbütün bu yeni üsula keçməyə müsaidə verməmişdir. Amma hər halda labaratuvar və seminar üsuluna keçmək məsələsində bu sənə üç-dörd müəllim tərəfindən təşkil olmuşdur. Ümid kamildir ki, gələcək sənədən 60-70% dərslərimizi bu yeni üsula qoymaq mümkün olacaqdır və yaz tətilində də kabinə təşkilini tamam eyləmək, kitabxananı həm təkmil eyləmək məsələləri irəliyə gedəcəkdir. Tələbənin fəaliyyəti böyükdür. Bənim altı sənəlik ali məktəbdə çalışdığım təcrübədə bu qədər fəal, ciddi, elmə tamamilə susamış olan tələbələri görməmişəm; bu sənədəki qışki imtahanlardakı müvəffəqiyyət tamamilə dediyimi isbat eyləmişdir. Türkcə kitab olmadığı üçün bizim şöbənin tələbələri müəllimlərin bütün söylədiklərini yazmışlar və onların əksəriyyəti də öz zəhmətləriylə şabioqrafda[118] çap eyləmişlərdir. Tələbələr fəqət dərslərə çalışıyorlar. Bəlkə, onlar ictimai babda həm fəaliyyətlərini göstərmişlərdir. "Tarix və ictimaiyyat dərnəyi" namındaki tələbələrin bir dərnəyi mövcuddur. Bu dərnək həftədə yaxud iki həftədə bir dəfə toplanmış, ictimai, tarixi məsələlərə dair tələbə və müəllimlər tərəfindən məruzələr oxunmuş və mübahisə gecələri yapılmışdır.

Bu mübahisə və münazərə[119] iclaslarında isə tələbələr kamal-i müvəffəqiyyətlə iştirak edərək fəaliyyətlərini göstərmişlərdir. Bizim şöbəmizin tələbələrinin ikinci bir ictimai fəaliyyətləri olsa, o da "divar qəzetə"lərində iştirakları və qəzetə sütunlarında ictimaiyyat babına dair məqalələr dərc eyləmələridir. Bu iş tələbə arkadaşlarımızın qələm qüvvətlərini yüksəltəcək və həyatdakı ictimai məsələlər barəsində çalışmaya imkan verəcəyindən dekanat gələcək sənədən etibarən bu qəzetələrdə iştiraka daha fazla əhəmiyyət verəcəkdir. Bakı tarixi cəhətdən əhəmiyyətli bir

[117] *baxmayaraq*

[118] *burada: tipoqrafiya*

[119] *hər hansı bir mövzu ətrafında əks fikirlərin müdafiəsi yolu ilə müzakirəsi*

yerdir. Onun üçündür ki, ekskursiyalara əhəmiyyət vermək lazımdır. Bu sənə bir kaç fənni səyahətlər yapılmışdır. Onun biri Atəşgaha səyahətdir. İkincisi isə palintoloji və arxeolojiyə dair müayinə yapmaq niyyətilə Bakı civarındaki bir köyə səyahətdir ki, burada tapılmış olan qəbl əl tarixi[120] heyvanların kəmikləri müayinə edilmişdir. Lakin şöbəmiz tarixçilər ilə bərabər həm ictimaiyyətçiləri hazırlıyor. Onun üçündür ki, dekanat sənətxanə, fabrik və neft promışlərini[121] tədqiqə, əmələnin həyatını öyrənməyə əhəmiyyət veriyor və gələcək sənədən etibarən bu iş birinci mühüm işlərdən hesab ediləcəkdir. Şimdi şöbəmiz üçün yeni dərs planı hazırlanmış və məktəbin şurası tərəfindən qəbul edilmişdir. Bu plana binaən bir çox yeni fənlər, xüsusən Azərbaycanı tədqiqə dair dərslər idxal edilmişdir. Onun üçündür ki, bu dərs planı yeni mütəxəssisləri və yeni müəllimləri tələb edəcəkdir. Təbii müdiriyyətin ictihadı[122] ilə bu zatlar həm cəlb ediləcəkdirlər.

Şöbə dekanı: **Ə. Ubaydullin**[123]

---

[120] *tarixdən əvvəl*

[121] *mədən*

[122] *burada: əmri*

[123] ***Əziz Ubaydullin*** *(1887-1937) Kazanda anadan olub. Məhəllə məktəbində, Kazanda "Həmidiyyə" mədrəsəsində oxuyub (1895-1904). Burada ərəb, türk və tatar dillərini və islam dininin əsaslarını öyrənib. 1906-1908-ci illərdə ailədə özünütəhsil yolu ilə rus və Avropa dillərini öyrənib, dünya ədəbiyyatı, tarixi və fəlsəfəsi ilə yaxından tanış olub. 1919-cu ildə Kazan Universitetinin tarix-fəlsəfə şöbəsini bitirib. 1925-ci ildə Bakıya dəvət edilib, Azərbaycan Dövlət Universitetinə dosent vəzifəsinə seçilib, Pedaqoji İnstitutda yeni yaradılan Tarix- ictimaiyyat şöbəsinə müdir, Azərbaycan Mərkəzi Dövlət Arxivinə tədqiqatçı-arxivşünas vəzifəsinə təyin olunub. Bakıda keçirilən I Türkoloji qurultayın işində fəal iştirak edib. 1928-ci ildə ADU-nun Şərq tarixi kafedrasına professor vəzifəsinə seçilib. 1930 -cu ildə MDU-nun Şərq tarixi ilə bağlı mühazirələr oxumağa dəvət edilən Ə.Ubaydullin həmin universitetin professoru seçilib. ADU ləğv ediləndən sonra fəaliyyətini Pedaqoji İnstitutda davam etdirib. 1931-ci ildə APİ-nin Yaxın Şərq tarixi kafedrasına müdir vəzifəsinə seçilib. 1930-cu ildə "10 ildə Azərbaycanda tarix elminin inkişafı" adlı monoqrafiyası nəşr olunub. 1931-ci ildə Azərb.DETİ-də tarix bölməsinə rəhbərlik edib.1933-cü ildə Kabardi-Balkar Pedaqoji İnstitutunda müəllim işləyib.1934-1935-ci illərdə Kazanda elmi-tədqiqat institutunda və Tataristan Pedaqoji İnstitutunda çalışıb.1936-cı ildə yenidən Bakıya qayıdıb və SSRİ EA-nın Azərbaycan filiaında işləyib. 1937-ci il martın 17-də həbs edilib və tutduğu bütün vəzifələrdən azad edilərək əksinqilabçı kimi güllələnib.*





## Azərbaycan Ünas Pedaqoji İnstitutu və onun gələcəyi

Azərbaycan şuralaşana qədər, məlum olduğu kimi, xalq maarifi sahəsində əhəmiyyətsiz bir səhra halında olub həm şəhərlərdə, həm də kəndlərdə pək az və cüzi miqdarda məktəb vahələrinə[124] malik idilər.

Böylə bir irs xalqın maarifləşməsi deyil, bilakis[125] qaranlıqda qalması qayəsini təqib edən çar siyasətinin nəticəsi idi. Tamamilə təbiidir ki, şura hökuməti sosializm əsasları üzərinə yeni cəmiyyət qurmaq qayəsini təqib edərkən digər növbəti məsələləri-

---

[124] *səhrada su və yaşıllığın olduğu yer*

[125] *əksinə*

lə bərabər zəhmətkeş kütləsinin maarifləşməsi və onlardan təcrübəli idarə edici bir qüvvət yaratmaq cəhətə canlı və həqiqi surətdə əhəmiyyət verməli idi.

Bu məsələ iqtisadi düşkünlük və maliyyə böhranları zamanında asan bir iş deyildi. Fəqət şura hökuməti bu müşgülatlı vəziyyətdən çıxmağa müvəffəq oldu. Hər şeydən əvvəl, ibtidai təhsilin inkişafına diqqət verildi.

İbtidai və orta təhsil arasında bir rabitə olmadığı əvvəlcədən düşünülərək nəticədə məktəb sisteminin və tədris üsullarının islah edilməsi meydana gəldi. Lazımi qədər məlumatlı müəllimlərin olmaması xalq maarifi qarşısında yeni məsələlər çıxardı. Həm Bakıda, həm də qəzalarda lazımi qədər müəllim yetişdirə bilmək üçün pedaqoji məktəbləri açmaq! Həmən bu məktəblərdən biri də bu günkü Ali Ünas Pedaqoji İnstitutudur ki, bunun qayəsi ikinci dərəcəli məktəblər üçün müəllimələr hazırlamaqdır.

İnstitut üç hazırlıq qrupu və iki ixtisas şöbəsindən ibarətdir. Bu şöbələr təbiyyat və ictimaiyyat-ədəbiyyat şöbələri olub bu tədris yılından etibarən açılmışdır. Hazırlıq şöbələrinin olması ondan iləri gəliyor ki, institut xaricdən ali məktəb kursunu keçə biləcək qədər hazırlığı olan tələbələri deyil, hətta heç olmazsa birinci dərəcəli məktəb qədər məlumata malik olan müdavimləri belə cəlb edəmiyordu. İnstitut tələbələri başlıca olaraq qəzalardan müxtəlif təşkilat





tərəfindən göndərildiyi üçün bunların səviyyələri bərabər deyildi.

Ona görə də bilik çox xassəsini onlara pedaqoji məlumat verməkdən ziyadə ümumi məlumatlarını artırmağa sərf etmək lazım gəliyordu. Təbiidir ki, bu vəziyyət proqram və üsul tədris işləri quruluşunda əks etməli idi. Doğrudan da, biz tələbələrin təqsimatına[126] diqqət edəcək olursaq görəyiz ki, 146 tələbədən yalnız 31 nəfəri ixtisas şöbələrindədir, qalanları isə bu surətdə təqsim edilmişlərdir.

Birinci qrupda 29, ikinci də 42, üçüncüdə 44, böyləliklə biz görüyoruz ki, tələbələrin böyük bir qismi hazırlıq şöbələrində olub öz nöqsanlı məlumatlarını ikmal ediyorlar. İctimai vəziyyətə görə təqsimat böylədir; kəndlilər 43%, işçi balaları 13% və xidmətçilər 44% yaş etibarilə 15-dən 25-ə qədərdirlər. Tələbələrin içərisində komşu cümhuriyyətlərdən Dağıstan kırımlıları mövcuddur.

Tələbələrin qruplara böylə nisbətsiz bir surətdə bölünməsi anormal bir halda olub müvəqqətidir. Buna görə də qarşıdaki tədris yılından etibarən ixtisası şöbələrin təbiyyət və ictimaiyyət-ədəbiyyat fakültələri halında üç yıllıq kurs üzrə təşkil etmək və hazırlıq qruplarına da ikinci dərəcə məktəb mahiyyəti vermək prosesi tərtib edilmişdir. Bu dörd yıllıq təhsil müddətdə dərslərə pedaqoji temalı verilərək institu-

[126] *bölünməsinə*

tun ali şöbələri olan ixtisas fakültələri üçün hazırlıqlı tələbələr kadrosu əldə ediləcəkdir. Bu islahat instituta həqiqi bir ali məktəb mahiyyəti kəsb ediyor və bu günkü məktəblərinin tələb etdiyi hazırlıqlı müəllimələr buraxacaqdır.

İmdi tədris sisteminə gəlincə sinif məşğələlərilə bərabər labaratuvar məşğələləri içində müəyyən miqdar saatlar ayrılmışdır. Fəqət etiraf etməlidir ki, lazımi bina və zəruri təchizat olmadığı üçün labaratuvar məşğələləri lazımi yüksəklikdə deyildir. Buna gələcəkdə lazımi əhəmiyyət vermək icab edər. Zira labaratuvar məşğələləri tələbələrin şəxsi fəaliyyətini artırdığı üçün lazımi mövqeyi işğal etməlidir. Qalan bütün boş vaxt isə, tənəffüs vaxtları müstəsna olmaq üzrə, klub işləri, özək işləri və sairə ictimai işlərə sərf edilir.

İctimai təşkilatlardan institut daxilində *beynəlxalq inqilabçılara yardım komitəsi* (m u p r- موپر)[127], kəndilə şəhərin rabitəsi cəmiyyəti, yeni əlifba dostları cəmiyyəti və sairə vardır ki, bunlar Zükur[128] Pedaqoji İnstitutu tələbələrilə birlikdə olaraq təşkil edilmişdir. Bundan başqa Ünas İnstitutu tələbələri bütün ali məktəblər kimi zəkur institutu ilə birlikdə olaraq həmkarlar ittifaqı seksiyası və öz icraiyyə bürolarına malikdirlər ki, bunlar da institutun həm təsərrüfat

---

*[127] beynəlxalq inqilabçılara yardım komitəsi*
*[128] kişi*





həm də akademi məsələlərinin həll edilməsində fəal olaraq iştirak ediyorlar. İnstitut öz mövcudiyyəti müddətincə bir dəfə 1923/24-üncü tədris yılında vaxtından əvvəl məzunələr buraxmışdır. Bu zaman institutu 17 nəfər tələbə bitirmiş və Azərbaycan qəzalarında məktəblərə təyin edilmişdir.

Böyləliklə, Ünas Pedaqoji İnstitutunun qarşısında türk qadınını sosializm quruluşuna cəlb etmək kimi mühüm və böyük bir vəzifə duruyor. Əsrlərlə sürən pədərşahi[129] ailənin əziyyətlərindən qurtulan türk qadını öz xüsusi məktəbində həm pedaqoji məlumatı almaq, həm də kəndlərdə tətbiq edəcəyi ictimai etibbadları[130] əldə etməyə imkan qazanmışdır. Bu ictimai etibbadları öylə bir mahiyyətdə tətbiq edəcəkdir ki, o mahiyyət öz quruluşu və tərz məişətinə görə qadınları erkəklərdən daha əvvəl qəbul ediyor.

Türk kəndlərində hənuz cəhalət davam ediyor, batil ediqadlar və əski məişət öz mövhumatı və mərasimlərilə davam ediyor. Buna görə də kəndlərə gedən türk qadınları yalnız nəzəri biliklilər və yeni tədris üsulları ilə ektefa[131] etməməli, eyni zamanda şura quruluşu kooperasyon və xalq təsərrüfatı sahəsində əməli

---

*[129] patriarxal*
*[130] tibbi məlumatları*
*[131] burada: kifayət*

biliklər ilə silahlanmalıdır. O yeni məişət nəşr edən və yeni yaşayış tərzi nəql edən bir amil olmalıdır.

Buna görə də Ünas İnstitutu gələcəkdə öz tədris planını öylə bir surətdə qurınalıdır ki, yeni cəmiyyətin əsas qurucuları olan ictimaiyyətçi müəllimlər yetişdirə bilsin. Buna müvəffəq olmaq üçün isə bu və ya digər disiplinlər tədris etməklə bərabər institut daxilində yaradılması icab edən tələbələri zəhmətkeş kütlənin ehtiyacları ilə mərbut[132] edən özəklərdə, dərnəklərdə çalışdırmaq və bu işi də qüvvətləndirməklə olur. Bundan başqa gələcəkdə keçilən fənlərin daha asan bir surətdə qavranılması üçün tələbələrin inkişafına yardım edəcək olan şəraiti də yaratmaq lazımdır. Zira yeni tədris üsulları yeni tədris kitabları tələb ediyor ki, bunlar hal-hazırda türk dilində mövcud deyildir. Və bunların yaradılması ən yaxın növbədə duran və təxirsiz bir surətdə həll edilməli olan məsələlərdir.

Bununla bərabər iyi təchiz edilmiş, elmin hər sahəsindən lazımi qədər kitablara malik olan kitabxanalar, elmi kabinələr, labaratuvar və iləx. kimi yardımçı müəssisələr təşkil etmək zəruridir. Bu da institut və Xalq Maarif Komissarlığının rəhbərlik edən or-

---

[132] *əlaqələndirmə, bağlı*





qanları qarşısında duran təxir edilməz məsələlərdən olmalıdır. Yalnız tələbələrin fəal bir surətdə işləməsilə vücuda gələn ictimai təşkilatları ilə müəllimlər heyətinin əl-ələ olan ümumi qüvvələri ilə Şərqin qapısı olan Azərbaycanda Ünas Pedaqoji İnstitutu haqqı ilə layiq olan o yüksək qəyyumu işğal edə bilər.

Müdiriyə: **S. Xuramoviç.**[133]

---

[133] ***Sara xanım Xuramoviç (Talışınskaya)*** *(1880-1965) Tiflisdə anadan olub. 1898-1906-ci illərdə Tiflis gimnaziyasında təhsil almışdır. 1 il gimnaziyada zəif oxuyan uşaqlara dərs demişdir. 1907-ci ildə Tiflis şəhər idarəsi məktəblər şöbəsi Puşkin adına I şəhər ibtidai məktəbinə müəllim göndərir. Sara xanım 1907-1915-ci illərdə həmin məktəbdə müəllim, 1915-1919 -cu illərdə isə müdir vəzifəsində çalışmışdır. Tiflisdə yaşayarkən Tiflis Qadın Xeyriyyə Cəmiyyətinin fəal üzvlərindən biri olmuşdur. 1917-ci ildə Bakıda keçirilmiş müsəlman qadınlarının qurultayında çıxış edərək qadınların hüquqsuzluğundan, təhsildən kənarda qalmasından, cəmiyyətdə rolunun düzgün qiymətləndirilməməsindən bəhs etmişdir.1919 -cu ildə Bakıya gələn Sara xanım burada maarifçilik fəaliyyəti ilə məşğul olmuş, qadın təhsilinin inkişafına dəyərli töhfə vermişdir.O, Bakıda keçirilmiş Azərbaycan müəllimlərinin III qurultayının nümayəndəsi olmuşdur.*

*1919-cu il noyabrın 7-də Xalq Maarif Nazirliyi yanında yaradılmış islahat komissiyasına Sara xanım Xuramoviç də daxil edilmişdi. Bakıya gəlməsi ilə qurultaya nümayəndə seçilməsi və islahat komissiyasına daxil edilməsi onun ictimai-siyasi fəallığı və pedaqoji hazırlığı ilə bağlı idi. Sara xanımın Azərbaycan Qadın Tərbiyə İnstitutunun yaradılmasında və onun Azərbaycan Qadın Pedaqoji İnstitutuna çevrilməsində mühüm xidmətləri olmuşdur.*

## Şaiq adına Pedaqoji Texnikumu

İki sənədən bəri pedaqoji təmayülü verilən məktəbimiz bu yıl üçüncü buraxılışını bayram ediyor.

Bu yıl qurtaran 23 tələbə həm ali məktəbə girmək və həm də birinci dərəcəli məktəblərdə müəllimlik etmək haqqını haizdirlər[134]. 4 sənədən bəri müqtədir[135] müəllimlərinin rəhbərliyi altında ciddiyyətlə çalışan bu yavrular əcəba başqa bir mahiyyətə yeni bir hayata atılmağa hazırdırlarmı? Bu suala qısaca bir cavab verəlim. Darülfünunmuzdan bizlərə qədər əks edən xəbərlərə görə Şaiq məktəbini ikmal[136] edənlər orada birinciliyi qazanmışlardır. Tədrisat cəhətindən get-gedə təcrübəsini artıran məktəbimiz üçüncü qafilənin[137] də orada birincilik qazanacağına iman edər.

Birinci dərəcəli məktəblərdə dərs vermək cəhətinə gəlincə artıq 7 aydır ki, bu tələbələr şəhərimizin müxtəlif məktəblərində, müxtəlif siniflərində nümunəlik dərsi verirlər.

Nümunə dərsləri müvəffəqiyyətli surətdə getmişdir.

Məktəbdə təşkilatlar haqqında burada izahata lüzum görmüyorum.

---

[134] *burada: malikdirlər*
[135] *burada: bacarıqlı*
[136] *tamamlayan*
[137] *burada: dəstə*





Birinci salnamədə bu barədə kafi məlumat verilmişdir. Bu yıl qurtaranlar şunlardır:

| | |
|---|---|
| Əhməd Əsədzadə | Salyan |
| Zərgərli Yunis | Salyan |
| Xanızadə Babazər | Salyan |
| Kərimzadə Bilal | Salyan |
| Kərim Cəmaləddin | Göyçə eli |
| Məhəmmədzadə Əli Ağa | Göyçə eli |
| Əbülqasım Nəzərov | Göyçə eli |
| Şirinzadə Şamil | Nuxa |
| Əli Əhmədzadə | İrəvan |
| Əbu Talibzadə Müzəffər | Ordubad |
| Aslanzadə Muxtar | Bakı |
| Bağbanzadə Cavad | İran |
| Şabanzadə Hacı Ağa | Bakı |
| Salahlı Məhəmməd Əmin | Bakı |
| Sadıqzadə Məhəmməd Sadı | Bakı |
| Abdullazadə Cəfər | Naxçıvan |
| Abdullazadə Abdulla | Şamaxı |
| Qazızadə Marlen | İrəvan |
| Quluzadə Məhəmməd Ağa | Bakı |
| Kazımzadə Əhməd | Bakı |
| Məhəmmədzadə Rəhim | Bakı |
| Məhərrəmzadə Kərim | Şamaxı |
| Məhəmmədəli Kərimzadə | Bakı |

Məktəb müdiri: **Qafur**

# İDARƏ VƏ TƏŞKİLAT İŞLƏRİ

## İnstitutun təsərrüfatı barəsində

Ali Pedaqoji İnstitutu leyli bir məktəbdir. Hal-hazırda orada 163 nəfər tələbə yaşıyor: onlardan 115 nəfəri azərbaycanlı, 12 nəfəri Dağıstan, 9 Özbəkistan, 3 nəfəri Türkmənistan, 2 nəfəri Şərqi Türkmənistan, 8 nəfəri Krımdan, 3 nəfəri Ermənistan, 1 nəfəri Gürcüstan, 10 nəfəri də Naxçıvandandır.

İctimai vəziyyət etibarilə həpsi fəhlə və kəndçi sinfinə mənsubdur, deməək olar.

İnstituta yeni daxil olan hər tələbəyə iki çift[138] camaşır, bir çift ayaqqabı, mahuddan bir qış kostyumu və yay üçün də parusindən, iki sənəliyə olaraq palto və papaq verilir. Yataq lüzumatına gəldikcə lazımi və kifayət dərəcəsində verilir, hər birini təhsil sənəsi başında bütün əski tələbələrə bərabər çift iki camaşır hazırlanır.

Sənədə bir dəfə olaraq verilən bir çift ayaqqabı və parusindən kostyum qayət az və uzun müddət davam etmədiyi üçün tələbələr acınacaq halda qalır. Bu cəhəti etibara alaraq institutun təsərrüfat komitəsi Maarif Komissarlığı nəzdində hər birindən birər çift

[138] cüt





artırılması barəsində lazımi təşəbbüsatda bulunmuşdur. Şübhə yox ki, Maarif Komissarlığı xahişimizi qəbul edərək tələbələrimizi əlbisə cəhətdən təchiz edəcək.

Sənədən sənəyə tələbələrin yemək məsələsi yaxşılaşır və indidən ümid bağlamaq olar ki, gələcək təhsil sənəsindən etibarən daha dairəli surətdə bu məsələ həll olacaq.

Doğrudur, Maarif Komissarlığı institutda sırasına daxil olmaq üzrə bütün leyli məktəblərinin hər sağlam və xəstə tələbə və talibəsinə gündəlik ümum yemək işinə 45 qəpik buraxır, fəqət burasını qeyd etməliyim ki, bu məbləğ bu tələbələrimizin və bilxassə xəstələrin yemək ehtiyacları sağlamlara nisbətən iki misli qədər olur, qətiyyən ödəmiyor.

Zira Ali Pedaqoji İnstitutunda oxuyanların 90% gənc vücudca daha böyük və 20 yaşından fazla böyük adamlardır. Hansılar ki, öylədən[139] əvvəl 6-dan 7-ə qədər dərs oxumaqla, öylədən sonra da hər biri 2-3 saat qədər də labaratorlarda təcrübə işlərində davam ediyorlar. Halbuki, darülmüəllimin və darülmüəllimatda oxuyanların qism əzəmi[140] 13-14 yaşında cavan uşaqlardır. Və bu məbləğ ilə ehtimal ki, yaşada bilərlər. Bu səbəbdən institut tələbəsinə işinə və

[139] *günorta*

[140] *çox hissəsi, əksəriyyəti*

vücuduna görə bir qədər təqviyə[141] edici yemək vermək icab edər.

İnstitutun bütün təsərrüfat işlərinə 5 nəfərdən ibarət bir təsərrüfat komitəsi nəzarət edir: onlardan biri (direktorun müavini) komitə sədri, bir nəfər müəllimlərdən seçilmiş nümayəndə, tələbələrin nümayəndəsi, texniki xidmətdə olan işçilərin nümayəndəsi və ekonomdur. Təsərrüfat komitəsi bazarı etibara alaraq sənədə bir neçə dəfə həftəlik xörək cədvəli tərtib ediyor və bu cədvəli tələbələr tərəfindən təyin edilmiş gündəlik iki növbəçi tələbə biri aşxanada, digəri yemək odasında olmaq üzrə həyata tətbiq edirlər. Aşxanada növbəçi olan tələbə tam səhər saat 1-də ekonom və aşpaz ilə bərabər bazara gedərlər və orada paralarına tələbələrinin sayına görə lazımi makulat[142] alıb gətirirlər. Aşxanaya gətirilən makulat, nəharə təama təyin edilir. Təam iki qabdan ibarət olur, biri qaşıqlı, digəri ətli və xəstələrə isə doktorun tövsiyəsinə görə xüsusi və əksərən südlü xörəklər hazırlanır. O günün axşamı məzkur gündə xərclənən bütün paralar xüsusi dəftərə qeyd edilərək növbəçi tələbə və ekonom tərəfindən imzalanır. Bir gün olmaz ki, normadan ziyadə xərc olunmasın və bu ziyadə xərc vəsaiti olaraq 10 manat edər və ümdəsi xəstələrin ehtiyacına sərf edilir.

---

[141] *sağlamlaşdırıcı, kömək edən*
[142] *burada: şeylər, ərzaqlar*





İnstitutda keçirtdiyim beş sənəlik həyat və təcrübədən tələbələrimizdən 80%-nin bilxassə Göyçay və Ağdaş qəzaları tələbələrinin qızdırma xəstəliyinə mübtəla olmaları açıqcasına aşkar oldu. Qızdırmalı tələbələrə təhsil dövründə 30-a dək iynə vurulur və qismən müalicə nəticəsində səhhət tapırlar. Fəqət yay zamanı təkrar qəzalarına gedib avdət[143] edincə əski tarix təkrar canlanmağa başlıyor.

Təəccüb burasındadır ki, həmən qəzadan gələn tələbələrdə ki, bizimlə bir binada və bir məkanda yaşıyorlar, qızdırma xəstəliyi az müşahidə olunur və böyləliklə, ayda hər bir tələbəyə əczayə 50 qəpik sərf edildiyi halda bizdə hər tələbəyə 1-25 manat sərf edilir.

İnstitut daxilində tələbələri təraş üçün dəlləkxana var və oraya hər gün dəllək gəlir, xidmətini görür və gedər. Hər iki həftədə bir tələbələr hamama götürülür.

İnstitutun qayət böyük ehtiyacları var; bina cəhətdən şiddətli darısqallıq çəkər, öylə ki, hərəkət edəcək yer də bulamıyor, auditoriyalar kifayət etmiyor, təcrübə işlərini görməyə kabinələr darlıq edər, bu səbəbdən eyni fakültə və eyni kurs tələbəsi qrup-qrup olaraq təcrübə işlərinə buraxılır və bu cürə aparılan işdə həm tələbənin, həm də rəhbərin olduqca vaxtları artıq sərf olunur. Yemək odası qaranlıq və rütubətli olan padval mərtəbəsində yerləşmiş, cama-

---

[143] *geri gəlmək*

şır və yorğan döşək üzü verilmiyor. Mərkəzi teshinat[144] vəziyyəti kafi dərəcədə deyildir. Zira 20 sənə bundan əvvəl qayrılmış və bu uzun müddət içərisində bir dəfə də olsun təmir olunmamış və bundan dolayı bir çox süxunəti və hərarəti yersiz məhv olmaqla istifadəyə qayət az verir. Xəstəxana binası da fənadır. Zira bu bina, doğrudur, real məktəbin xəstəxanası idi, fəqət öylə fəna və rütubətli bir yerdə tikilmiş ki, (içəri şəhər qalasının tam divarlarını dibində) bütün bina odaları daimi bir rütubət içində olmaqla günəş şüadan əsər yox. Bu vəziyyətdən çıxmaq üçün bu sənə qərara alınmış, hər necə olursa olsun yeni sənədən müvəqqəti də olsa, xəstəxanayı oradan digər quru, rütubətsiz bir binaya (felidhol) köçürülsün. Hal-hazırda bu felidholda məmurlar yaşıyor.

Son söz olaraq demək istərəm ki, bütün bu nöqsanlar və ehtiyaclar Maarif Komissarlığının göstərəcəyi təvəccüh[145] və yardım nəticəsində institut müdiriyyəti və təsərrüfat komitəsi tərəfindən tədricən olaraq rəf[146] ediləbilər.

Müdiriyyət müavini: **Mahmudbəyov**[147]

---

[144] *istilik*
[145] *yaxından maraqlanma*
[146] *aradan qaldırma*
[147] ***Mahmud bəy Mahmudbəyov*** *(1864-1928. 1925-ci ildə Pedaqoji İnstitutun direktoru olub. Haqqında bax:* ***F.A.Rüstəmov.Azərbaycan Dövlət Pedaqoji Universitetin rektorları****.Bakı:Elm vətəhsl, 2019, s.65-70*





## Ali Pedaqoji İnstitutunun tələbə icraiyyə bürosu

Ali Pedaqoji İnstitutunda bütün daxili təşkilatlar tələbə və talibələr arasında müştərəkdir. Hər işdə olduğu kimi institutda tələbə təşkilatı da tədrici surətdə bir təkamülə doğru irəliləməkdədir. Keçən yıl olmayan bəzi dərnəklər bu sənə təşkil olunmuş; mövcud dərnəklərin iş planlarında da gözə çarpacaq dərəcədə yenilik və artırmalar olmuşdur.

Aşağıda təşkilatın quruluşu və fəaliyyətini izah edəcəyimiz zaman bu tədrici təkamülü aydınca görəcəyiz.

**Quruluş** – institut tələbə təşkilatının seçkiləri əsas etibarilə ildə bir dəfə olur. Bu yılki intihab[148] olunmuş icraiyyə bürosu üzvləri ümumi tələbə və talibələrin iştirakı ilə edilmiş 15 nəfərlik bir heyətdən ibarətdir. Bunlar da 5 nəfəri əsas heyət rəyasəti təşkil edərək içlərindən büronun başqa şöbələrini intihab etmək üzrə nümayəndələr intihab və təyin etmişlərdir. Təşkilat əsas etibarilə atidəki[149] qisimlərə ayrılmışdır.

1.İcraiyyə bürosu heyət rəyasətinin sədri *Məhiəddin Həmzəzadə*dir.

---

[148] *seçmə, seçilmiş*
[149] *burada: növbəti, aşağıdakı*

2.Mədəni maarif komisyonu üç nəfərlik komisyon *Qənbər Əsgərzadənin* sədarətində

1. Əncümən-i daniş[150] komisyonu üç nəfərlik komisyon *Hacıbala Əfəndizadənin* sədarətində
2. Maarif xadimləri komisyonu beş nəfərdən ibarət *Qafar Əlimüvəffəq* sədarətində
3. Təsərrüfat nümayəndəsi üç nəfərdən ibarət *Əbdüləli Sərdarlının* sədarətində
4. Təftiş komisyonu üç nəfərdən ibarət, *İskəndər Bağbanlının* sədarətində

Həmin komisyonlar bulunduqları şəkildə fəaliyyətlərinə davam etmişdirlər. Fəqət mədəni maarif komisyonu işlərininicabı olaraq, kəndi təxt-i idarəsində[151] olaraq atidəki dərnəkləri təşkil etmişdir.

**1.Ədəbiyyat dərnəyi** – 3 nəfərlik bir heyət tərəfindən idarə olunaraq *Məhəmmədiyə Əfəndizadənin* sədarətindədir.

**2.Təbiyyət dərnəyi** – 3 nəfərlik bir heyətdən ibarət olub *Əsəd Cəfərzadənin* təxt-i sədarətindədir.

**3.Riyaziyyat dərnəyi** – 3 nəfərlik bir heyətdən ibarət olub *Rəsul Rəhimli* sədarətindədir.

**4.Pedaqoji dərnəyi** – 3 nəfərlik heyət olub *Ədhəm Mustafazadə* sədarətindədir.

**5.İctimaiyyat dərnəyi** – 3 nəfərlik heyət olub *İshaq Cəfərzadə* sədarətindədir.

---

[150] *elmi cəmiyyət, bilik cəmiyyəti*

[151] *burada: idarəsi, sədrliyi altında*





**6. Həmkarlar İttifaqı dərnəyi** – 3 nəfərlik heyət *Qafar Alimzadənin* sədarətilədir.

**7. Dram dərnəyi** – məktəbimizin binası salonu əmələ fakültəsi ilə bir yerdə olduğundan klub və tiyatro işlərimizdə müştərəkdir. Buna görə də dram dərnəyi əmələ fakültəsi ilə müştəraka təşkil olunmuşdur.

**8. Sport dərnəyi** – Sport dərnəyi son zamanlarda təşkil olunduğundan hənuz lazımi qədər mütəşəkkil deyildir. 3 nəfər heyət tərəfindən *Abdulla Təmrazlının* sədarəti ilə idarə olunur.

İnstitutda tələbə təşkilatının quruluşu haqqında izahat verdikdən sonra 1925-1926-cı tədris yılı içərisindəki fəaliyyətini də qeyd etməyi zəruri add ediyoruz[152].

**Fəaliyyət** – Fəaliyyət quruluşa görə başqa-başqa olduğundan hər heyət və seksiya haqqında ayrıca izahat verməliyiz.

**1. İcraiyyə bürosu** – Bir sənə içərisində 23 iclası olmuşdur. İlk iclasda vəzifələr təyin edilərək daxili təşkilat işlərinə başlanmış və bütün yıl boyu bunların fəaliyyəti üçün çalışılmışdır. Müəllimlər şurası ilə sayqı və səmimi əlaqə təmin edərək məktəbin daxili işlərini müştərəka idarə etmişdir.

Məktəb daxilində olan LKGİ (Lenin Kommunist Gənclər İttifaqı) və firqə özəkləri ilə yaxından

---

[152] *qəbul etmək, hesab etmək*

əlaqədə bulunmuş, mərkəzi proletar tələbə təşkilatına nümayəndə göndərərək səmimi bir rabitə təmin etmiş və institut tələbə təşkilatı tərəfindən 6-cı Bakı Lenin Kommunist Gənclər İttifaqı qurultayına bir bayraq təqdim etmişdir.

**2. Mədəni maarif komisyonu** – bu komisyon tələbələr arasında mədəni-maarif işlərinin inkişafı üçün bir fəaliyyət sahəsi olaraq, dərnəklər təşkil etmişdir. Bu dərnəklər maraqlı yoldaşların ümumi iclası tərəfindən intihab olunmuşdur. Təşkil olunan dərnəkləri komisyon maddətən təmin etməyə çalışmışdır.

Türkoloji qurultayı nümayəndələri şərəfinə olaraq təntənəli bir müsamirə verilmişdir. Mədəni Maarif komisyonu nəzdində tələbələrə yardım etmək üçün bir mütəqabil[153] yardım komisyonu təşkil olunmuş, fəqət bunu canlandırmaq üçün komisyon çalışıyor. Gələcək sənədən mükəmməl bir şəkil alacağına əminiz.

Mədəni maarif komisyonu daxili fəaliyyətindən əlavə tələbələrin tyatro, sinenamalara ucuz qiymətlə və bəzən məccani[154] olaraq gedə bilmələri üçün çalışmış, qismən müvəffəq olmuşdur. Mədəni maarif komisyonunun – vəzifəsi icabı olaraq – məktəb daxilində dərnəklər təşkil olunduğunu qeyd etmişdik. Əsas fəaliyyət bu dərnəklərin çalışmasından ibarətdir.

153 *qarşılıqlı*
154 *pulsuz*





Çünki həmin dərnəklərdə çalışmaqla talibə və tələbələr əməli olaraq kəndi məlumat və təcrübələrini artırıyorlar.

Bunlardan atidəki fəaliyyətləri qeyd etməliyiz.

**1. Təbiyyət dərnəyi** – dərnəyin təşəbbüs və fəaliyyəti nəticəsində müəllimlər, tələbə və talibələr tərəfindən bir qaç[155] dəfə referatlar verilmişdir. Bakının müxtəlif zavod və fabrikalarına bir neçə dəfə ekskursiyalar yapılmışdır. Ekskursiyalar müəllimlər ilə birlikdə olub lazımi məlumatı əldə edə bilmişdilər. Bu sənə zərfində[156] məktəb daxilində və xaricində təbiyyət dərnəyi, həqiqətən, lazımi qədər çalışmış, talibələr dəxi böyük istifadədə bulunmuşlardır.

**2. Riyaziyyat dərnəyi** – bu sənə riyaziyyat dərnəyi tərəfindən riyaziyyatın müxtəlif cəhətlərinə aid olan ümumi konfranslar verilmişdir. Bundan başqa dərnəyin xüsusi məşğələ odası vardır. Bu oda şimdi bir labaratuvar şəklini almışdır.

Tələbələr orada əməli olaraq çalışıyor, riyaziyyata aid əməli bir taqım işlər, alətlər təcrübələr yapıyorlar. Əlavələr olaraq elektrik stasyonuna, radio muqifinə[157] və qeyri yerlərə bir qaç dəfələr tənəzzühlər yapılmışdır. Bu tənəzzühlər dəxi gözəl nəticələr verdiyi görülmüşdür. Bunlar da fəaliyyətlərini göstə-

155 *neçə*
156 *ərzində*
157 *burada:qovşaq, stansiya*

rə bilmiş və tələbə talibələrə mümkün qədər fayda verə bilmişlərdir.

**3. Ədəbiyyat dərnəyi** – bu dərnək tələbələrə bir çalışma sahəsi olmaq üzrə keçən ildən bəri davam etməkdə olan "Örnək" qəzetəsini yaxın zamanlara qədər nəşr edə bilmişdir. Lakin nədənsə son zamanlarda "Örnək" qəzetəsi vaxtlı -vaxtında nəşr olunmuyor. Qəzetə on beş gündən bir çıxarıldığı üçün əvvəlkinə nisbətən müəyyən qayda ilə çıxmadı. Qəzetə yalnız ədəbi, bədii əsərləri dərc etməklə qalmamış, lisaniyyat, ictimaiyyət, elmi qism kimi şöbələri əlavə edərək ədəbiyyat – ictimaiyyat elmlərinin geniş sahəsində çalışmışdır. Bundan başqa dərnək müxtəlif mövzularda ədəbi mühazirələr vermişdir. Xalq ədəbiyyatını toplayaraq bir intizam altına almaq üçün institutda toplanan müxtəlif türk zümrələri nümayəndələrindən istifadə etmişdir. Məmləkətimizin tarixi binalarını yerində öyrənmək üçün elmi tənəzzöhlər də yapılmışdır.

**4. Pedaqoji dərnəyi** – pedaqojiyə aid müxtəlif mövzularda mühazirələr tərtib edilmişdir. Mövzular Xəlil Fikrət və professor Qəmərovskinin rəhbərliyi ilə intixab[158] olunmuşdur. Möhtərəm Mirzə Camalov tərəfindən dərnəyə bir qaç pedaqoji kitabları hədiyyə edilmişdir.

[158] *seçmək*





**5. İctimaiyyat dərnəyi** – Bu dərnək bu sənə ilk dəfə təşkil olunmuş, ictimaiyyət və tarixə aid bir qaç referatlar verilmiş, bir qaç ictimai müsahibələr tərtib etmişdir. Əlavə Bakı dairəsində olan əski tarixi yerlərə müəllimlərin rəhbərliyi altında elmi təzihlər yapılmışdır. Gördükləri əsər-i atiqələr[159] barəsində müəllimlər tərəfindən ətraflı məlumat verilmişdir.

**6. Maarif xadimləri seksiyası** ilə tərtib olunmuş həmkarlar ittifaqı dərnəyində həftədə bir dəfə məxsus rəhbərlər tərəfindən mühazirə oxunmuş, dərnək üzvlərini ittifaq işlərilə, ictimai işlərilə aşina etmişdir.

**7. Dram dərnəyi** – dərnək səhnə işləri və səhnə ilə tələbə və talibələri alışdırmaq üçün çalışmış, bir xor bölməsi da təşkil etmişdir. Burada əmələ fakültəsi ilə müştərəka çalışılır. Tez-tez tyatro tamaşaları, konsert və müsamirələr tərtib etmişdir.

**8. Sport dərnəyi** – məktəbdə tərbiyə-i bədəniyəyə olan meyl və həvəsdən dolayı bu dərnək təşkil edilmiş və qismən sport əlbisələri tədarük edilmiş isə də əlverişli bina və tərbiyə-i bədəniyə aləti olmadığından geniş fəaliyyət olmamışdır. Ancaq sport işləri gələn sənədən etibarən dərnək şəklində olmayıb dərslər sırasına keçməsi nəzərə alınmışdır. Bu dərnəklərdən başqa mədəni maarif komisyonu istitutunun salnamə jurnalının nəşr olunmasına çalışmış və buna aid xüsusi komisyon intihab etmişdir. Məktəbi-

[159] *qədim əsərlər*

miz daxilində qiraətxana təsisinə əqdəm etmiş[160], lazım olan jurnal, qəzetə, kitabları gətirtmişdir. Qiraətxana odasında böyük bir Lenin guşəsi yaratmışdır. Qiraətxanamızın bəzi əşya və jurnallar tərəfindən olan nöqsanı barəsində müdiriyyətə smeta vermiş, gələcək sənədən bütün nöqsanların ləğv olacağına çalışacaqdır.

**9.** (3) **Əncümən danış seksiyası** – bu seksiya məktəbin tədris işləri cəhətilə əlaqədar olduğundan müəllimlər şurası ilə birlikdə tədrisat işlərini idarəyə çalışmışdır. Lazım gələn tədrisat, vəsaitinin əldə edilməsinə və tələbələrin dərslərə müntəziмən davam etməsinə nəzarət etmişdir. Tələbələri yazıdan qurtarmaq üçün hər sinfə bir ədəd şapoqraf[161] tədarük etmiş, bu sayədə tələbələr yazıya sərf etdikləri vaxtı başqa dərdlərinə, istirahətlərinə sərf ediyorlardı. Dərslərə ləyaqət göstərəməyən lektorların götürülüb əvəzində lazım olan lektorların çağrılması xüsusunda ciddi təşəbbüsatda bulunmuşdur.

**10.** (4) **Maarif xadimləri seksiyası** – mərkəzi maarif xadimləri ittifaqı ilə məktəbimizdəki ittifaq üzvləri arasındaki münasibət və əlaqənin təmininə çalışmış, üzvlük vergiləri və sair ittifaq işləri ilə ya-

[160] *fəaliyyət göstərmiş*
[161] *təkmilləşdirilmiş hektoqraf; əlyazmasını və ya çap ottisklərini çoxaltmaq üçün alət*





xından əlaqədar olmuşdur. Məktəb daxilində iki yüz nəfərə qədər maarif xadimləri ittifaqı üzvü olmasına vasitə olmuşdur. Həmkarlar ittifaqı dərnəyi təşkili xüsusunda, oranın rəhbəri, barəsində ciddi təşəbbüsdə bulunmuşdur.

**11.** (5) **Təsərrüfat komisyonu** – Məktəbin təsərrüfat işlərində müdiriyyətlə bərabər çalışaraq tələbələrin maddi cəhətdən müntəzəmən təmin olunmasına çalışmışdır. Bütün təsərrüfat işlərində və təsərrüfat şuralarında təsərrüfat nümayəndəsi iştirak etmişdir. Bununla kəndi fəaliyyətini göstərmişdir.

**12.** (6) **Təftiş komisyonu** – Yıl boyu təşkilatın fəaliyyəti və işlərinin intizamına nəzarət etmişdir.

Ünas və Zükur institutu tələbə və talibələri arasında möhkəm və səmimi bir rabitə düzəlmişdir. Hətta icraiyyə bürosu nəhari talibələrdən iki nəfər təşkilata nümayəndə olaraq cəlb etmişdir. Onlar ilə müştərəka çalışmaq üçün hər dürlü[162] binagüzarlıqlar olunmuşdur.

Verdiyimiz qısa məlumatlardan görülüyor ki, institut daxilində biri- birilə əlaqədar və mərbut[163] sıxı təşkilat mövcuddur. Burada Ünas və Zəkur institutu tələbə və talibələri müştərəka çalışaraq, "kəndi

[162] *cür, növ*
[163] *qarşılıqlı*

kəndini idarə" prinsipi canlı və əməli olaraq tətbiq edərək öyrəniyorlar ki, yarın idarə edəcəkləri ikinci dərəcə məktəblərdə bu prinsipi yaratmaq və yaşatmaq qabiliyyətinə malik olsunlar. Çünki bu, hər bir müəllim olacaq gəncin ən mühüm vazifəsidir.

**M.Həmzəzadə**






"Azərbaycan Ali Pedaqoji İnstitutu.Beş yıllıq" (1926) məcmuəsinin üz qabığı



V.İ.Lenin



N.Nərimanov



Məhəmməd Əfəndizadə (fizika-riyaziyyat şöbəsi dekanı), İsmayıl Hikmət (tarix-ədəbiyyat şöbəsi dekanı), Səlimə Osmanzadə (təbiyyat-aqranomi şöbəsi dekanı)



Əziz Ubaydullin (tarix-ictimaiyyat şöbəsi dekanı)



Xalq maarif komissarı Mustafa Quliyev



Ali Pedaqoji İnstitutunun müəllimləri və dekanları



Tarix-ədəbiyyat şöbəsi məzunları: ayaq üstə duranlar (sağdan) Z.Abdullahzadə, H.Körükçü, M.Rzaquluzadə, B. Heydərzadə, M.Əkbərzadə, oturanlar: M.Əliəkbərzadə, S.Məhəmmədzadə, Ə. Məhəmmədyarlı, İsmayıl Hikmət (şöbə dekanı), Ş.Vəzirzadə, M.Teymurxanlı, O.Toplu; (yerdəkilər):Ə.Hüseynzadə, T.Talıbzadə, Ə.Axundzadə



Mirzə Əlinağı Rəcani
(II buraxılışdan- vəfat etmişdir)



M.Məhəmmədzadə
(ədəbiyyat şöbəsi məzunlarından - vəfat etmişdir)



Təbiyyat-aqranomi şöbəsi məzunları- ayaq üstə duranlar(sağdan): Y. İsmayılzadə, Z.Həmidzadə, Ə.Mustafazadə, Z.Əlizadə, H.Musazadə, İ.Musazadə, Y.Məhəmmədzadə, H.Əfəndizadə, H.Hacızadə; oturanlar: müəllimlər və dekan Səlimə xanım; (yerdəkilər): K. Əbdülhəmidzadə, M.Əfəndizadə, M.Əlizadə, Y.Məhəmmədəlizadə, Ə. Abdullazadə



Təbiyyat şöbəsi məzunları labaratuvarda çalışarkən



Təbiyyat şöbəsi məzunları Nəbatət kabinəsində çalışarkən



Fizik-riyaziyyat şöbəsi məzunları- ayaq üstə duranlar (sağdan): Z. Azaqbəyli, B. Məhəmmədzadə, S. İbrahimzadə, M.Mehdizadə, S.Ağazadə, H.Həsənzadə, R.Kaşizadə, S.Ramazanzadə; (oturanlar): F. Mahmudbəyli, H.Mahmudzadə, M.İsmayılzadə, S.Hüseynzadə, Məhəmməd Əfəndizadə (dekan), H.Həmidzadə və b.



Riyaziyyat şöbəsi məzunlarından bir qrup labaratuar məşğələsində



Riyaziyyat şöbəsi məzunlarından bir qrup fizik labaratuarasında



Sara xanım Xuramoviç
Ünas İnstitutunun müdiri



F.Rzabəyli
İnstitutun ilk direktoru



Ünas Pedaqoji İnstitutunun müəllimlər şurası



Şaiq Pedaqoji Texnikumunun müdiri Qafur Əfəndizadə



İnstitutun müdir müavini Həbib bəy Mahmudbəyov



İnstitut nəzdində Şaiq adına Pedaqoji texnikumunun müəllimlər şurası



İnstitutun Tələbə İcraiyyə Bürosu



Şaiq Pedaqoji Texnikumunun tələbə icraiyyə bürosu



İnstitut Firqə Özəyi



İnstitutut LKGİ özəyi



Məktəbin musiqi dəstəsi



Ön sırada: Məmməd Əfəndiyev, Z.Hüseynov, Mirzə Möhsün İbrahimov,Həbib bəy Mahmudbəyov, Tağı Şahbazi, Səlimə Yaqubova



Ali Pedaqoji İnstitutun müəllim və tələbələri



A. I. S. C.
Xalk Maarif Komisarlıgı
Ali və Sənət Məktəbləri Baş Mudirijjəti
Azərbajcan Dəvlət Ali Pedagozy
INSTITYTY

1. ijyn 1926 il.
№ 68
Baky

Ʒahadatnama

1899 nei jil sentijabr ajnin 18 inde Lənkəranda dogylmys vətəndaş Məmməd Ələkbər zadə Ali Pedagozy Instityty tarix ədəbijjat fakyltəsinin butun kyrsyny dinləjərəq atidəqi fənnlərdən imtihan vermişdir:

turq ədəbijjati tarixi, qərb ədəbijjati tarixi, turk tarixi, Azərbajcan tarixi, orta əsir tarixi, mədənijjət tarixi, fars lisani və ədəbijjati, ərəb lisani, ədəbijjat və lisan usyl tədrisi, psixolozi, pedagozi, tarix pedagozi, didaktika, fəlsəfəjə giriş, tarixi madijjət və rys lisani.

Byndan başka tədris planı üzrə movcyd butun təcrubə işlərini icra etmiş və nymynə dərslərini qafi dərəcədə vermişdir tarix ədəbijjat fakyltəsinin tədris planı mucibincə butun tələbatını ifa etmiş oldygyndan 1926 nci jil ijyn ajnin 26 gunu vaki Institut Pedagozy Şyrasında vətəndaş Məmməd Ələkbər zadə Azərbajcan Ali Pedagozy Instityty tarix ədəbijjat fakyltəsinin butun kyrsyny bitirmiş add edilərəq ikinci dərəcə məktəblər (pedagozy və sənaje texnikymları, işci fakyltələri, kənd cavanlar məktəbləri və saira) də dərs vermək hykykyna malik oldygy icin işby şahadatnamə ona verilmişdir.

Institut Rektory:

Tarix ədəbijjat Fakyltəsi Dekanı:

Şyra Katibi:

Ali Pedaqoji İnstitutunun 1926-cı il məzunu Məmməd Ələkbərzadəyə (Ələkbərov) verilən Şəhadətnamə



Şəhadətnamə

Свидетельство

Məhəmmədzadə Bəhmən Qərim oğluna 1926-cı ildəverilən Şəhadətnamə



## İnstitut firqə özəyi

Yeni doğuluş dövrünü keçirməklə irəliləməkdə olan institut firqə özəyi təbirindən anlaşıldığı kimi institut üçün yeni bir təşkilatdır. Məktəb ali bir müəssisə olduğu halda fəhlə kəndli balalarından mütəşəkkil gələcək zəhmət məktəbi müəllimi, daha doğrusu, füqəra kütləsinin cavan balalarının tərbiyəçisi olacağından bu komitədə tərbiyə alan gənclərin marksizm-leninizm ruhilə ruhlanması məsələsi tam mənası ilə meydanda duruyordu. Əlbəttə ki, hamıdan artıq bu məsuliyyət institut firqəvilərinin üzərində idi.

Odur ki, keçən sənə fəal yoldaşlar tərəfindən institutda firqə özəyi təşkil etmək fikrinə düşmüşdürlərsə də lazımi qədər üzvlərin yetişməməsi bu təşəbbüsü nəticəsiz buraxmışdır.

Fəqət bu sənə (1925-1926) instituta qəbul olunan tələbələr arasında bir neçə üzv və namizədlərinin mövcud olması özək düzəltmək imkanını qazandırdı. Keçən sənə nəticəsiz qalan təşəbbüs bu sənə yeni fikirlərlə canlanıb meydana sovruldu. 1925-ci sənə oktyabr ayının 14-də əski məktəb müdiri yoldaş Şarif Manatovun (Məhədovun) iştirakı ilə firqəvilərin müşavirələri olaraq məktəbin vəziyyəti müzakirə edildiyindən sonra böylə qərar qəbul edildi. “Məktəbimizin vəziyyəti göstərilən maddələri istinadən

böylə qərara alınır ki: 1 – Səfər Ramazanov, 2 – Şərif Manatov, 3 – Əbdüləli Sərdalı, 4 – Müzəffər Əlizadə yoldaşlar dairə Bakı firqə komitəsində; Azərbaycan Ali Pedaqoji İnstitutunda firqə özəyi təşkil edilməsi uğrunda çalışaraq təşəbbüsatda bulunsunlar". Artıq bir çox səyi və çalışqanlıq nəticəsi olaraq şəhər dairə firqə komitəsinin məsul təhkimçisi yoldaş Vəliyevun iştirakı ilə 1925-ci sənəsinin noyabr ayının 23-də özək təşkil edilərək şəhər dairə komitəsi tərəfindən təsdiq edilmişdir.

Özəkdə 16 A.Q.F.(B) üzv, namizədləri vardır. Bunlardan 6 nəfər üzv, 10 nəfəri isə namizəddir. Üzvlərdən iki nəfəri qadındır. Siyasi Maarif işləri firqə özəyinin möhkəm rəhbərliyi altında L.K. (Lenin Kommunist) gəncləri ittifaqı özəyilə birlikdə aparılır.

Özəyin institut daxilində gördüyü işlərə yaratdığı yeniliyə və yapdığı fəaliyyətə gəldikdə bir çox işlər yapmış olduğunu görürüz. 1 – Firqə özəyi təşkil edildiyi gündən etibarən məktəb daxilindəki gənclər ittifaqı və tələbələr təşkilatı kimi siyasi və ictimai təşkilatları kəndi rəhbərliyi altına alaraq mövcud bəzi nöqsanları rəf etməklə bərabər lazımi islahat aparmışdır; 2 – məktəb müdiriyyət və müəllimlərilə sıxı əlaqədə bulunmağa bərabər pedaqoji şuralarında kəndi nümayəndələrini iştirak etdirərək lazımi rəhbərlik etməyə çalışmışdır. Məktəb müdir, müdirə və təsərrüfat müdirinin məruzəsini ümumi tələbə, talibələrin iştirakı ilə vaqe olmuş geniş iclasda dinləmişdir. Həmçinin məktəb məhəlli komitəsi və həmkarlar ittifaqı ilə əlaqəni sıxlaşdırmış nümayəndəsini dəxi göndərmiş və məruzələrini dinləmişdir.





3.Əksəriyyəti fəhlə kəndli ailəsindən çıxmaqla gələcəkdə həmin sinfə məxsus balalara tərbiyə vermək yolunu öyrənən, daha doğrusu, şura müəllimi olmağa hazırlaşan institut tələbə və talibələrinin "leninizm" ruhunda tərbiyələnməsi lüzumatı hiss edən firqə özəyi bu məsələni də nəzərdən qaçırmamış arasıra geniş iclas çağıraraq ümumi tələbə və talibələrə siyasi məruzələr eşitdirməklə bərabər özək canibində ümumi məktəbə məxsus 1-ci, 2-ci dərəcəli olmaq üzrə siyasi savad dərnəyi təşkil etmiş, "Lenin" vəfatı ilə, 8 Mart qadınlar günü, Paris kommunası və qeyri bu kimi kampaniyalarda ən çox sıxı rabitədə bulunduğu əmələ fakültəsi özəyilə mutəhiddən[164] keçirilmişdir. Hətta əksər iclasları bərabər olduğu kimi də bir çox gündəlik mühüm məsələləri də müştərəka həll etmişlərdir.

4.Özək canibində gənclər ittifaqı ilə birlikdə mupr (موپر) cəmiyyəti qadınlar arasında işləyən komisyon, kənd ilə şəhər rabitə cəmiyyəti, yeni əlifba dostları cəmiyyəti təşkil edilərək lazımi fəaliyyət göstərmiş və gözəl nəticələr əldə edilmişdir. Xüsusən qeyd etmədən keçəmiyəcəyimiz qadınlar arasında işləyən komisyonunun fəaliyyətidir ki, bu komisyon

---

[164] *birlikdə*

Ünas İnstitutu talibələri arasında bu günkü həyatın tələbləri üzrə irəliləyib yeni cəmiyyət quruluşunun qadınlara aid əsas prinsiplərini onların qafalarına yerləşdirmişdir.

Bundan əlavə firqə və gənclər ittifaqının iştirakilə "Leninçi pedaqoq" namında bir divar qəzetəsi çıxır ki, bunun da heyət-i təhririyəsinin[165] sədarətinə firqəvilərdən keçirilmişdir. Məktəbdə mükəmməl "Lenin guşəsi" təşkil etmişdir.

İştə bu azacıq müddət daxilində institut firqə özəyi gənc olduğuna baxmayaraq öz məsuliyyətinin ağır olduğunu həll edərək ciddiyyətlə çalışmış və öz planını tamamilə həyata keçirmişdir. Özəyin gördüyü işlərlə onun əhəmiyyətini təyin edə biləcəyimiz kimi yapdıqlarına baxıb yapacağı işlər xüsusunda bir fikrə gəlməklə onun gələcək mövqeyini təyin edə bilərik.

Özəyin məsul katibi:
**Səfər Ramazanov.**

---

[165] *burada: yazı şurası*





## Ünas Pedaqoji İnstitutunda firqə həyatı

Şuralar Azərbaycanında yeni həyat quruluşunu möhkəmləşdirmək, yarınki həyatın yaşayışını tənzim etmək üçün ən böyük vəzifə hissəsi bu günün gənc müəllimələrinə və mürəbbiyələrinə düşüyor.

Cəmiyyətin ən ağır vəzifəsi fəqət ən qüdsi, ən ali, ən nurlu bir qismi varsa o da bəşəriyyətin elmin yüksəlməsinə səbəb olan Maarif cəbhəsidir. Bir millətin inqilabi addımlarını kəskinləşdirəcək inqilab atəşini kürəkləyəcək[166] ancaq maarif həqiqi, maarif günəşidir. İştə bu maarif nuru, bu maarif şüası ilə xalqın məzlum zəkasını cilalandıracaq bu günün gənc müəllimələri və mürəbbiyələridir.

Yarınki quruluşumuzun qızıl şərarələrini[167] alovlandıracaq bu günkü müəllimələrimizin ictimai kommunizm tərbiyəsilə yetişdirilmələri lazım gəlir.

Ünas İnstitutu qadınları arasında onların ictimai siyasi cəbhədə görgülərini[168], təcrübələrini artırmaq onları bu həyatla tanış etmək və inqilabi ruhilə tərbiyələndirmək üçün bundan iki buçuq ay müqəddəm[169] şəhər dairə komitəsi və pedaqoji institutu

---

[166] *burada: alovlandıracaq*
[167] *qığılcım*
[168] *cəmiyyətdə davranış qaydaları*
[169] *əvvəl*

firqə özəyi tərəfindən institut qadınları arasında çalışmaqdan ötrü beş nəfərdən ibarət bir komisiya seçilmişdi. Bu komisyon az bir zamanda olsa da, olduqca fəaliyyət göstərmiş tələbələrin ictimai cəbhədə təcrübələrini, biliklərini artdırmaq, fəal birər ünsür olmalarına yeni quruluşun şəraitlərinə aşina olmasına böyük yardımlar göstərmişdir. Komitə hər on beş gündən bir dəfə olmaq üzrə ümumi ictimalar[170] yapmış. Bu ictimalarda əski və yeni tərz həyat şura qanunlarının qadınlara verdiyi hüquq, bu hüquqdan nasıl faydalanmaları, ailə tərbiyəsi, cocuqluq, ana mühafizəsi və sair siyasi və ictimai bir çox məruzələr oxunmuşdur.

Bunlardan başqa Ünas İnstitutu qadınları arasında 30 tələbə qədər gənclər ittifaqına mənsubdurlar. Bunlardan 25 tələbə qədər hər birisi kəndilərinə məxsus ictimai vəzifələr ilə çalışmaqdadırlar. Bu komsomoliskalar[171] firqə işlərində təcrübələrini artdırmaqdan ötrü hər biri firqə və işçi özəklərində, pionerlər[172] təşkilatlarında təhkim edilmişlərdir. Zükur institutunun və gərəksə digər məktəblərin siyasi, mupr (موپر), dram və kəndə doğru heyəti kimi ictimai dərnəklərə həmkarlar özəklərinə iştirak etməkdədirlər.

---

[170] *toplantı*
[171] *komsomolçu qadınlar*
[172] *pioner*





Bu özəklərdə və təşkilatlarda müəllimlərimizin gördüyü təcrübələr yarınki həyat üçün pək mühüm və əhəmiyyətli olacaqdır. Hənuz pək az bir zamanda fəaliyyətə başlayan bu komisyonun yarınki vəzifələri daha mühüm olacaqdır. Ünas Pedaqoji İnstitutu talibələri kəndi ictimai biliklərinin həyatda nə qədər mühüm olacağını olduqca düşünə bilmişlərdir. Ona görə də bütün siyasi -ictimai həyat qarşısında onlardaki həvəs, arzu gündən -günə artmaqdadır. Komisyon daha böyük müvəffəqiyyətlər əldə etməyinə əmin olaraq bundan sonra daha qəvvi[173], daha parlaq bir imanla çalışacaqdır.

**Rəhimə Səlim**

---

[173] *güclü*

## İnstitut LKGİ özəyi

Ali Pedaqoji İnstitutu nəzdindəki LKGİ özəyi böyük bir siyasi əhəmiyyətə haizdir[174]. Yarın pedaqoji institutu bitirmiş müəllimlərimizin kimi tərbiyə edəcəyini bilməliyiz. Bu məlum bir işdir ki, füqəra kəndçi sinfinin əməyilə təsis olunmuş institut və məktəbin məzunları proletar balalarını oxudacaqlar və tərbiyələndirəcəklər. Fəqət fəhlə -kəndçi balalarının həqiqi rəhbəri olsa ancaq kommunist cavanlar ittifaqının üzvləri olacaqdır. Odur ki, özək kəndi üzvlərini bir müəllim deyil, bir rəhbər deyil, bir təşkilatçı dəxi yaratması üçün çalışmışdır.

Əsrlərdən biri feodalizm və kapitalizm üsul idarəsində yaşayan fəhlə -kəndçi balaları hər kəscə bəlli olduğu kimi maarifdən məhrum edilir. Həmən üsul idarəyi yığıb azar olmuş geniş füqəra kütləsini maariflə ndirmək üçün birinci növbədə maarif cəbhəsində gənc kommunistlər mücahid olmalıdır.

Özəyin tarixi 12 yanvar 1923 sənəsindən hesab olunur, o zamanlarda yəni özəyin təşkilində ancaq 13 nəfər üzv və namizəd var idi.

Özək üç məktəbinin gənc kommunist tələbələrindən mütəşəkkildir[175].

---

[174] *malikdir*
[175] *təşkil olunmuşdur*





1-ci: Ali Pedaqoji Zükür İnstitutu, 2-ci: Ali Pedaqoji Ünas İnstitutu, 3-cü: Tətbiqat Şaiq məktəbidir.

Bu sənənin ərzində (1925-1926) iki dəfə heyət-i rəyasət intəxabatı[176] aparılmışdır. Heyət-i rəyasət 11 nəfərdən ibarətdir. Bunlardan 9 nəfəri üzv və 2 nəfəri isə namizəddir. Hal-hazırda özəyin 110 üzv və namizədi vardır. Bunlardan 61 üzv, 49 namizəd, qızlardan 19 üzv və 12 namizəd vardır. Bunlardan firqəyə mənsubiyyəti olanlar beş (5) nəfər, Maarif xadimləri ittifaqı üzvü 60 nəfərdir. İctimai vəziyyətlərinə gəldikdə fəhlə (28), kəndçi (49), xidmətçidir (33). 1923 sənəsilə 1926-cı sənəsi arasında özəyin istər kəmiyyətcə, istər keyfiyyətcə artmasını müşahidə ediyoruz.

Özəyin fəaliyyəti yalnız məktəb daxilində olmayıb başqa özəklərlə əlaqəyə girmək fikrindən qeyri durmamışdır.

1-ci qonşumuz fəhlə fakültəsi gənclər özəyidir ki, bunlar ilə özəyin əlaqəsi nümayəndələr göndərməklə müttəhid[177] iclaslar, kampaniyalar, inqilabı bayramlar aparmaqla əlaqəni sıxlaşdırmağa müvəffəq olmuşdur.

2-ci Bakı liman fəhlə özəyidir ki, bunların dəxi iclaslarına hər həftə nümayəndələrin iştirakı, habelə ayda bir dəfə müttəhid iclas aparmaqla, bütün üzv

---

[176] *seçki*
[177] *birləşmiş*

namizədləri fəhlələrin halından yaxından aşina etdirməklə bərabər, əlaqəyi daha da sıxlaşdırmışdır.

**III Qızıl Ordu ilə əlaqə** məsələsidir. Qırmızı Ordu ruhu ilə gənc tələbələrimizi tanış etmək məqsədilə qırmızı komandanlar məktəbinin 3-cü nömrəli özəyilə əlaqəyə girilmişdir. Onlara dəxi nümayəndələrimiz getməsi ilə lazım gəldikdə müttəhid iclas çağırmaqla əlaqəni möhkəmləndirməyə müvəffəq ola bilmişdir.

**IV Gəncə Pedaqoji texnikumu** özəyidir ki, bu 1926-cı il yanvar ayında texnikum tərəfindən göndərilmiş nümayəndənin iştirakı ilə əlaqəyə keçirilmək özək tərəfindən qərara alınmışdır. Bunlarla əlaqəmiz yoldaşlıq məktubu və divar qəzetəsi göndərməklədir.

**V Dairə komitəsilə** əlaqəyə gəldikdə keçmişlərə nisbətən hala sıxı bir surətdədir. Bunun nəticəsi olaraq dairə komitəsi məktəbimizdə mövcud firqə özəyi rəhbərliyi ilə özəkdə mümkün qədər lazımi islahat aparılmışdır. Dairə tərəfindən Azərbaycan LKGİ mərkəzi komitəsinin katibi yoldaş Naydonov məsul təhkimçi göndərilmişdir.

**VI Firqə özəyi** təşkil olunan gündən etibarən firqə özəyinin gənclər özəyinə rəhbərliyi vardır. Heyət-i rəyasətdən hər bir çətin məsələləri firqə özəyilə bərabər həll olunur. Əlaqəni daha da sıxlaşdırmaqdan ötrü bütün komisyonlar firqə özəyilə birləşmişdir.

**VII Məktəb müdiriyyətilə əlaqə.** Məktəb müdiriyyəti özəyin maddi ehtiyacatını təmin ediyor. Şura-yi müəllimində özəyin nümayəndəsi iştirak ediyor.





**VIII İnstitut icraiyyə bürosuna** özəyin böyük rəhbərliyi vardır. Əlaqəsi dəxi sarsılmaz bir surətdədir. İcraiyyə bürosu heyətindən özəyin nümayəndəsi iştirak ediyor. Bununla bərabər icraiyyə bürosunun mövcud seksiyalarına özək nümayəndələri gediyor. 1-ci akademik seksiyası, 2-ci maarif xadimləri ittifaqı, 3-cü mədəni maarif komisyonudur ki, özək bunların hesabatını belə vaxtlı vaxtında dəxi dinləmişdir.

**IX Tətbiqat Şaiq məktəbi** müəllimlər şurası və tələbələr təşkilatıdır ki, bunlara da özək tərəfindən nümayəndə iştirak ediyor. Tətbiqat Şaiq məktəbinin tələbələr təşkilatına özəyin olduqca lazımi qədər rəhbərliyi çatır.

**X Məhəlli komitədir.** Burada əksəriyyətlə texniki xidmətçilərin və müəllimlərin komitəsi olduğuna binaən özək öz nümayəndəsini məhəlli komitə heyət-i rəyasətlərində iştirak etdiriyor.

### Təbliğat kolegiyasının iştirakı

Təbliğat kollegiyası firqə siyasi maarif müdiri daxil olmaq şərtilə 5 nəfərdən ibarət vahid firqə və gənclərin bir kollegiyasıdır.

Bütünlüklə məktəbin siyasi və ictimai işləri təbliğat kollegiyasının kontrolu altından keçiyor. Məktəbin bütün ictimai təşkilatlarına təbliğat kollegiyası kəndi kollegiya nümayəndələrini göndərməklə bəra-

bər rəhbərlik ediyor. Bunun bir çox siyasi dərnəkləri, ictimai cəmiyyətləri və komisyonları vardır.

1 - *kommunistlərin kommunist cavanlar ittifaqı* üzv və nümayəndələrinin və habelə həvəskar bitərəf tələbələrin siyasi məlumatını artırmaq üçün iki şəxsi təhsil dərnəyi açmışdır.

2 – *"mupr" cəmiyyəti* əvvəllərdə mupr cəmiyyəti ismi olub da cismi olmadığı kimi adlanıyordu. Fəqət siyasi maarif kollegiyası bunu müntəzəm şəklə salaraq yenidən təşkil edilməsi barəsində təşəbbüsatda bulunmuşdur. Hal-hazırda 135 nəfər üzvə malikdir.

3 – *"kəndə doğru" özəyi* şəhər ilə kənd əlaqəsini birləşdirən bir cəmiyyətdir ki, buranın dəxi 119 üzvü vardır. Əvvəllərdə Cəbrail qəzası Horadiz dairəsində (firqə özəyilə) əlaqədə bulunmuşdur. Lakin dairə komitəsi bu yaxın qəzalardan bir kənd verməyə vəd etmişdir. Cəmiyyət üzvlərinin çoxalması barəsində çalışır.

4 – *qadınlar komisyonu* – qadınlar komisyonunun Ünas İnstitutunda böyük bir əhəmiyyəti vardır. Böylə ki komisyon tərəfindən ayda bir dəfə ümum tələbə, talibələrin iclasa dəvət olunaraq orada qadınlıq xəyalətindən və şura hökumətinin qadınlara verdiyi hüquqlar barəsində müxtəlif mövzularda məruzələr qoyaraq qadınları ictimai işlərə cəlb etmək kimi təşəbbüsatda bulunmuşlar.

Bu komisyonun amələ fakültəsi qadınlar komisyonu və mərkəzi qadınlar klubu ilə əlaqəsi vardır.





**Heyət-i Təhririyə**[178] **işləri:** Firqə özəyi təşkil olunana qədər gənclər özəyinin yalnız "Leninçi pedaqoq" nam on beş gündən bir dəfə divar qəzetəsi çıxarıyordu. Fəqət firqə özəyinin təşkilindən sonra iki özəyin naşir-əfkarı olaraq yenə "Leninçi pedaqoq" qəzetə namını daşıyor. Həmin qəzetədə məktəbin həyatına dair və başqa ədəbi, ictimai, siyasi, tənqidi məqalələr dərc olunur – qəzetə dəxi həftədə bir çıxıyor.

**Pioner işləri** – Tətbiqat Şaiq məktəbi tələbələrindən 1924-cü yılda pioner təşkilatı düzəlmişdir. Fəqət bir neçə səbəblərə görə işləri irəliləmiyordu. Özək həmən təşkilatı rəhbərliyi altına alaraq müdiriyyət ilə əlaqəyə girib pionerə məxsus klub açılması barəsində təşəbbüsatda bulunmuşdur. Bu saat klub daxilində pionerlərin müsahibələri iclasları oluyor. Günü-gündən siyasi məlumatları artır, kəndilərinə məxsus həftədə bir dəfə çıxan "gənc nəsl" nam qəzetələri davam ediyor. Siyasi kitablar, dəftər, qələm və başqa maddi ehtiyacatını özək təmin ediyor. Tələbələrin günü- gündən pionerlər işlərinə həvəsləri artıyor. Hal-hazırda təşkilat 35 qədər pionerə malikdir.

Özəyin bu müddətdə gördüyü işlər haqqında azacıq məlumat vermək ilə bunu dəxi qeyd etməliyiz ki, bu gün Pedaqoji İnstitutunu ikmal etmiş leninçi pedaqoqlarımızın getdiyi yolları qayət əziyyətli və

[178] *yazı heyəti*

qayət qaranlıqda olsa belə onların əllərində maarif məşəli hər zaman onları o yolların hər bir çətinlikyindən qurtaracaqdır.

Zira onların çəkdiyi zəhmətlər və əldə etdiyi müvəffəqiyyətlər imdiki Azərbaycan gənclərinin kütlə arasında oyandırdığı intibah, Azərbaycan tarixində mühüm bir yer tutacaqdır. Və bu tarixi mütaliə edən gələcəyin gənc nəsli kəndi tarixləri ilə iftixar edəcəkdir. Onlar üçün dəxi bu dövr bir örnək olmalıdır.

Özəyin məsul katibi:
**Əbdülxəlil Əsgərzadə**





# XATİRƏLƏR VƏ DUYĞULAR

## Yeni müəllim arkadaşlarıma tövsiyələr

Müəllimlik çox zor bir sənətdir. Dünyada heç bir məslək, müəllimlik məsləki qədər məsuliyyətli və əhəmiyyətli olamaz. Küçük bəzi xətalar, bir cocuğu həm özü, həm də cəmiyyəti üçün zərərli və təhlükəli bir şəklə soxa bilir. Biləks küçük müvəffəqiyyətlər, həm cocuq və həm də cəmiyyət üçün nəhayətsiz mənfəətləri mucib[179] ola bilir. Müəllimliyin güclüyü, bilxassə ruhları işləməkdədir. Müəllimin qarşısında olan material, bir heykəl yapmaq istəyən heykəltaraş kibi, cansız deyildir. Müəllim hər gün, hər həftə təkamül edən və heç bir-birinə bənzəməyən yüzlərcə cocuq məzunu qarşısına alaraq, onlardan nümunəlik, canlı bir heykəl meydana gətirmək istər, ən küçük xətalar təmir edilməz. Zərərli şəkilləri meydana gətirə bilir. Bununla bərabər, nə üçün hər kəs müəllimliyi kolay[180] bir məslək tələqqi ediyor[181]? Çünki biz əvvəla müəllimliyi yalnız dərs verməkdən ibarət sanıyoruz da ondan bari verdiyimiz dərslər mükəmməl

[179] *Lazım gələn*
[180] *asan*
[181] *Burada: hesab edir*

olsa, halbuki tədrisatımız nə qədər fənadır. Məmafih[182], müəllimlik vəzifəsi dərs verməkdən ziyadə tərbiyə verməkdir və biz ancaq iyi tərbiyə görmüş xarakterli bir nəsil ilə bəşəriyyətdə və yaşadığımız cəmiyyətdə böyük işlər görə biliriz. Xüsusən, biz şərq millətlərinin ən böyük nöqsanımız əxlaq və xarakterdədir. Sonra müəllimliyin kolay zənn edilməsinin digər mühüm bir səbəbi də yetişdirdiyimiz, meydana atdığımız materialın, bəzi gənclərin həyatını kontrol edəmədiyimizdəndir. Bir rəssam rəsmini yapar və ikmal edə bildiyi şəkildə məharətini tənqid səhnəsinə qoyur, halbuki biz müəllimlər çocuqların ruhlarına verdiyimiz şəkli yalnız xarici bir kontroldan keçirməklə ektefa[183] ederiz. Ruhi kontrol mümkün olmadığı üçün, gəncləri nasıl bir şəkildə yetişdirdiyimizi haqqı ilə silmədən həyat çalxantısına atarız. Və bizim yetişdirdiyimiz gənc, insan öldürüb həbsxanaya girsə, "nə yapalım? Biz çalışdıq fəqət çocuq, cəmiyyət həyatında pozuldu, məhv oldu" deyərək vicdani bir məsuliyyətsizliklə omuzlarımızı silkər keçəriz.

Bən bu gün yapdığım həsbhalda[184] tərbiyə məsələsindən müvəffəq olmaq üçün mühüm bir nöqtədən bəhs edəcəyim, o da müəllimin, bilhassə yeni vəzifəsinə başlayan bir müəllimin nə kimi şərtlər altında vəzifəsinə başlaması lüzumlu olduğunu və çocuqların ruhunu qazanmaq üçün nə kimi tədbirlərdə bulunmaq icab etdiyini göstərməkdir.

[182] *Bununla birlikdə*
[183] *burada: kifayət*
[184] *söhbət*





Bən bu nöqtəyə fövqəladə əhəmiyyət veriyorum. Çünki çocuqların qəlblərini qazanamayan[185] bir müəllim, bəncə heçdir, hətta heçdən daha fənadır, zərərlidir. Tələbəsinə hörmət və cazibə təlqin etməyi bilən bir müəllim isə əli öpüləcək qədər qiymətlidir.

Əvvəla məktəb həyatında təmin edilməsi əlzəm[186] olan məsələ disiplindir. Yəni **inzibatdır.** İnzibat olmayan bir məktəb təhlükəli bir mahiyyətdir. Zira cəmiyyətdə intizam və tərəqqinin əsası, inzibat ilə olur. Məktəbin qanunlarına riayət etməyi öyrənməyən bir şəxs, yarın məmləkətin qanunlarına da zərrə qədər əhəmiyyət istəməz. Sonra, əxlaq məsələsi də ancaq inzibatla olur. Oğurlayanlar, yalan söyləyənlər, hiyləkarlıq edənlər, vəzifəsini haqqı ilə yapmaqdan boyun qaçıranlar iləx. həp cəmiyyətin qəbul etdiyi inzibat qaydalarını ayaqları ilə çeynəyənlərdir. Bundan başqa inzibatın daha iki qaydası vardır: 1) Mütəmərkəz[187] və müntəzəm mənəvi və fikri məşğuliyyət, hərəkatda və yaşayışda inzibata tabidir; 2) İnzibat xarakteri qüvvətləndirəcək bir qüvvətə malik-

[185] *qazana bilməyən*
[186] *daha vacib*
[187] *mərkəzləşdirilmiş*

dir. Bu nöqtələri təhlil etmədən keçiyorum. Çünki mövzuyu lüzumsuz yerə şişirmək istəmiyorum.

Hər halda cocuqların gərək kəndi əmrlərinə və gərək məktəbin əmrlərinə qəti itaət etmələri, iradəni, vicdanı qüvvətləndirir və ictimai və əxlaqı digər bir çox lüzumlara qarşı itaəti qolaylaşdırır. Qaydanı ihmal, itaətsizlik itiyadını[188] meydana gətirir və iradəni dağıdır, çocuqları keyf və nəşəyə görə hərəkətə məcbur edər. Bunun üçün yarın cəmiyyət həyatında zühura gəlməsi[189] möhtəməl[190] olan iradə fənalıqların önünü almaq üçün məktəb həyatında küçük inzibat işlərinə çocuqların alışması lazımdır. İştə bir müəllimin qətiyyən ağlından çıxarmayacağı məsələlərdən biri budur və bu olmalıdır. İnzibatın lüzum və əhəmiyyətini tələbəyə təbiyyətin yıxılmaz qanunları kimi anlatmalı və tələbədən heç biri bu qanunun xaricində qalmamalıdır. Müəllim, lüzum görürsə, ilk dərslərdə ciddi bir tövrlə bu məsələni tələbə ilə sinifdə görüşür və həll edə bilir. İnzibat iki türlü ola bilər: 1) başqasının əmri ilə; 2) digəri tələbənin öz əmri ilə. Məktəbi və sinfi o şəklə soxmağa çalışmalı ki, tələbə öz işlərini özü həll etsin. Müəllimin əmrləri rəf etdiyi şeylər çox az olmalı, fəqət qəti olmalıdır. **Çocuqlar üzərlərinə aldıqları vəzifələri iyimi, fənamı yapıyorlar? Bunu daima açıqca kontrol etməlidir.** Hal-hazırda məktəblərimizdə öz-özünü idarədə ən böyük xəta: tələbənin boynuna aldıqları işləri bir məsuliyyət və vicdan hissi ilə ifa etməmələrində görülür. Və buna müəllimlər heç əhəmiyyət verməzlər. Müəllim təşkilatları idarə etməli və vəzifəsini yapmayanlara bildirməlidir ki, məktəbdə küçük bir işi haqqı ilə yapmayan, yapmaq istəməyən şəxs, cəmiyyətdə də eyni ehmalları göstərə bilir. Bu kimi şəxslər cəmiyyət və məmləkət üçün düşmən qədər təhlükəli ola bilirlər. Bunun üçün qəbul edilən vəzifəni iyi yapmaq əsas tutulmalıdır.

*[188] alışqanlıq, adət*
*[189] burada: yaranması*
*[190] ola biləcək*





Yeni bir müəllim üçün digər mühüm bir nöqtə, ilk zamanları tələbəyə qarşı aldığı tövr və vəziyyətdir. Tələbənin ən böyük zövqü, məktəb daxilində bir-iki müəllimin saqqalını ələ almaq, onları meymun kimi oynatmaqdır. İlk günləri tələbə, yeni müəllim qarşısında üsullu və tərbiyəli dururlar. Lakin gün keçdikcə yavaş-yavaş müəllimin saqqalını ələ almaq təcrübələri başlar. Dərs ortasında mənalı mənasız suallar sorulur. Ötədən bəridən gülünür...iləx. Bu kimi vəziyyətlərdə bəzi müəllimlər əvvəla yumuşaq davranırlar və sonra birdən-birə atəş kimi parlar və əsəbləşirlər. Hərəkətlərdə bu kimi mənasızlıqlar olmamalıdır. Müəllim ciddiyyət və mülayimatı birləşdirməlidir. Sonra sinfi idarə etmək üçün sənə başlanğıcında "bən böyləyim, şöyləyim, böylə olursa, şöylə yaparım; böylə olmazsa şunu yaparım" kimi bir tər-

biyə proqramı ilə çocuqların qarşısına çıxmaq mənasızdır. Müəllim əski bir müəllim kimi iyicə hazırlanaraq dərsə girməli və dərhal dərs ilə uğraşmalı, çocuqları dərs mövzuna bağlamağa çalışmalıdır. Heç müəllimlik etməyən bir arqadaş ilk dərslərində bir az şaşıyor və qorxaq türlü olur. Bu hiss çocuqlara gəlməməlidir. Bunun üçündür ki, ilk dərslər qayət yeni hazırlanmalı və icab edərsə, evimizdə kəndi -kəndimizə dərsimizi söyləməliyiz. Sinif yaramaz və tərbiyəsiz olursa, dərs əsnasında can sıxan hallar olursa nə yapmalıdır? Bəncə o müəllim daha birinci dərslərdə bir-iki çocuğun yaramazlığını vəsilə edərək, sinfə uzun böylə nəsihət verməməlidir. İlk zamanları yapılacaq şey, nadinclik edən tələbəni dərhal dərsdən sonra görmək və baba kimi yapdığınız şeylər gözümdən qaçmadı, görüyorum ki, siz vəzifə ilə zarafatı hələlik yaxşı ayırmıyorsunuz. Bəncə bu kimi hərəkətlərdən zor görən yalnız bir kişi ola bilir; o da bu kimi hərəkətləri yapandır. Sonra sinfin inzibatı pozulunca bütün sinifdə bundan zor görür. Məktəbdə qəti olan bir şey vardır ki, o da bu kimi halların, nə olursa- olsun önünə keçməkdir. Bunun üçün "cocuğum, bax, səndən ricam budur ki, bu kimi hallara səbəbiyyət verma. Əgər dərsdə səni maraqlandıramazsam, mənə söylə, mən sənə dərsi maraqlı yapıncaya qədər çalışıyorum"...iləx.

Sonra eyni çocuqlarda eyni hərəkətlər təkrar görülürsə, dərs bitdikdən sonra siniflə məsələni görüşməli və bu kimi lüzumsuz və mənasız hərəkətlərin yox olmasını, sinfin üzərinə yönəlməyə çalışmalıdır. Sinif bu vəzifəni boynuna alırsa, məsələ qurtarmış deməkdir. Əgər sinif nümayəndələri də aciz göstərirlərsə, o zaman məsələni tələbə nümayəndələri və müəllimin şurası həll edə bilir. Müəllim tələbəyə çox hirslənmiş olursa, tələbəni qarşısına çağırmalı və deməli ki, mən sənin bu hərəkətindən çox narazıyım. Bu hərəkətdə mənim şəxsimə qarşıda bir tərbiyəsizlik vardır. Mən **imdi[191] bu gün sənə heç bir şey yapmıyacağım.** Hirsim keçdikdən sonra bu məsələni ən adilanə bir surətdə həll etməyə çalışacağam. Çocuqlara qızğın ikən cəza vermək iyi deyildir. Fenelonun dediyi kimi, qızğınlığı keçirməli, ondan sonra məsələni həll etməli. Zira qızğın ikən hisslərimizə qapılaraq haqsızlıq edə biliriz. Halbuki haqsızlıq qədər tələbəyə fəna təsir edən bir şey daha yoxdur.

Yeni bir müəllim tələbəsindən birinə sinifdə qızaraq haqsız bir müamilədə bulunursa nə yapmalı? Susmalımı? Təcrübəli, bir çox müəllimlərin söylədiklərinə baxılırsa, haqsızlıq edən tələbədən əfv diləməlidir. Sinifdə haqsızlıq etmişsə, sinif daxilində haqsızlığını etiraf etməli, xüsusi vəziyyətdə haqsızlığını tələbəyə söyləməlidir. Bəzi müəllim arqadaşlar, böylə bir şeyə mətəraz[192] ola bilirlər. Deyə bilirlər ki, tələbə-

---

[191] *indi*
[192] *burada: əleyhinə*

dən əfv diləmək qədər və qiymətini azaldır. Mən bu fikrə qətiyyən iştirak etmiyorum. Tələbə haqsız müaміləyə qarşı daima açıq gözdür, haqsızlıq edən müəllimi tələbə arxasından zem[193] edər. Tələbənin bildiyi və bol-bol tənqid etdiyi bir vəziyyəti tələbədən gizləmək, yalançılıq, iki yüzlülük oyunu oynamaqdır. Müəllim böylə bir hissi çocuqlara verməməlidir. "Müəllim haqsızlıq etməmiş hissi ilə məsələni qapatsın[194]". Etirazına qarşı deyə bilərik ki, bu tələqqi[195] daha fənadır. Zira bir müəllim kəndisi haqq ilə haqsızlığı ayıracaq qüvvətdə deyilsə, tələbənin nəzərində daha ziyadə düşər. Hər halda haqpərəst bir ruhla tələbəyə görünmək çox mükəmməl bir hərəkətdir və tələbə o müəllimi daima təqdir edər, yalnız diqqət etməli ki, hər iki gündən bir müəllim, eyni vəziyyətə düşməsin o zaman, o müəllim iradəsiz, əsəbi və zavallı deyə tanınır. Bir müəllim daima düşünməlidir ki, vəzifəsi daima xarakterli olmağa çalışmaq, əxlaq və tərbiyə cəhətindən çox xəta yapmamağa qeyrət eyləmək və daima ruhən yüksəlməyə çalışmaqdır. Böylə bir ruhda olmayan bir müəllim fəna bir müəllimdir və müəllim iyi mürəbbi olmaq sifətini tez itirə bilir. Bunun üçün müəllimin hər şeydən əvvəl **əsəbi olmamağa** çalışması lazımdır. **Səbr və kəndinə**

[193] *burada: qınamaq, pisləmək*
[194] *burada: bağlasın*
[195] *burada: fikir, anlayış*





**hökm etmək** müəllimin böyük və nafiz[196] məziyyətlərindəndir. Təcrübə ilə sübitdir ki, özünə hökm edəməyən digərlərinə qarşı hakimiyyəti əldə edəməz. Sükunət, yetişmək üzərə olan gənclərin nəzərində tələqqini bir qiyməti haizdir[197]. Yalnız buradaki sükutu "vurdum duyamaz" növündən bir hadisə tələqqi etməməlidir[198]. – bu münasibətlə yad etməmək mümkün deyildir. Bir Hind misranı bu münasibətlə yad etməmək mümkün deyildir: "Digərlərini məğlub etmək üçün əvvəla kəndini məğlub et! Kəndini məğlub etmək üçün bilzat iradə ilə və kəndi qüvvətinlə çalışmaqdır, demək oluyor ki, müəllim özünü tərbiyə etməlidir. Əsəbi bir müəllim vəzifəsinin ən mühüm qismini ihmal etmişdir[199]. O, həqiqi intizamın əsası olan ruhi müvazinədən məhrumdur. O, mücadələ etdiyi pərişanlığın və intizamsızlığın bilzat canlı bir nümunəsidir. Bu kimi müəllimlər gəncliyin xarakterlərinin məzarı olurlar. Düşünməli ki, bu günkü patalogiyada belə normal olmayanların tərbiyəsidir. Ümumi qayda: həyəcansız və sükunətlə tərbiyədir. Bunun dərin mənası vardır: xəstə olan ruhi müvazinədən məhrum olan bir kimsəni ancaq xəstə olmayan, ruhu mütəvazin[200] olan qüvvətli, sakin ruhlar inzibat altına ala bilirlər.

[196] *burada: ağıllı*
[197] *var*
[198] *burada: sayılmamalıdır*
[199] *əhəmiyyət verməmək*
[200] *təvazökar*

Müəllimi tələbəyə sevdirən mühüm nöqtələrdən biri də vəzifəsini sevməsi və tələbəyə, tələbənin gələcəyinə dərin bir məhəbbət bəsləməsidir. Hər məslək, parə üçün sevilə bilir. Fəqət müəllim yalnız parə qazanmaq üçün bu məsləkdə çalışdığı hissini cocuqlara verirsə çox fənadır. Çünki yalnız pul qazanmaq üçün müəllim olan, vəzifəsini bir çox xüsuslarda yaxşı aparmaya bilir. Və cocuqlar bunu tez anlarlar. O müəllim eqoist bir müəllim olaraq tələbə arasında tanılır. Və ümumi bir qənaət hasıl olur ki, eqoist bir müəllimdən xeyir gəlməz! Bu qənaət həssas və iyi qəlbli cocuqların ruhunu müəllimdən uzaqlaşdırır. Bunun üçün məsləki məhəbbət və aşiq, müəllimlikdə əsasdır. Tələbəyə və tələbənin gələcəyinə məhəbbət də bununla əlaqədardır. Haqsızlıq etməmək müəllimin böylə bir ruh daşıması ilə mümkündür. Sonra son olaraq şunu da söyləyəlim ki, yeni bir müəllim hər tələbəyə eyni gözlə baxmalıdır. Bəzilərinə çox iyi, bəzilərinə soyuq müamilə[201] etmək çox fənadır. Sonra müəllim açıq qəlbli olmalıdır. Sinif daxilində olan bir vaqeəni digər tələbədən gizli sormamalıdır. Bu hal həm cocuqlarda casusluq ruhu oyandırır, həm əxlaqsızlığı çoxaldır, həm də sinfin birliyini pozar və həm də müəllimin qədər və etibarı azalır. Bu mənfur bir tərbiyə sistemidir. Bütün bu nöqtələrə əhəmiyyət verən müəllim açıq və anlayışlı

---

[201] *rəftar*





qonuşmaq şərtilə iyi və maraqlı dərs verməyə də müvəffəq olursa artıq o müəllimin iyi bir pedaqoq olduğuna hökm edilə bilir və böylə bir müəllimdən insanlıq namütənahi[202] mənfəətlər görə bilir.

Pedaqoji disiplinləri müəllimi:
doktor **Xəlil Fikrət**[203]

---

[202] *sonsuz*

[203] ***Xəlil Fikrət** Kanat (Halil Fikret Kanat) (1892-1974) Yunanıstanda anadan olmuşdur. Manastrda yeni açılan sənaye məktəbində 4 il təhsil alıb. O, 1910-1912-ci illərdə Almaniya liseylərinin birində almanca mükəmməl öyrənmiş, sonra Berlin Universitetinin fəlsəfə, daha sonra isə Leypsiq Universitetinin Pedaqoji fakültəsində təhsil almışdır. 1917-ci ildə prof.Eduard Spranqerin rəhbərliyi ilə "Pestalossinin dövlət məktəbi ilə bağlı düşüncələri" (1809-cu ilə qədər) mövzusunda dissertasiya müdafiə etmişdir. 1919-cu ildə İstanbuldakı Erenköy və Səlçuk Xatun liseylərində (qız məktəblərində) "Fenn-i Terbiye ve Malumat-ı Ahlakiye" (Tərbiyə və əxlaqi bilgi) müəllimi kimi çalışmışdır. 1923-cü ildə Bakıya gəlmiş, Nazirliyin məktəbəqədər təhsil şöbəsinin müdiri təyin edilmişdir. 1923-1926-cı illərdə Ali Pedaqoji İnstitutda və ADU-da pedaqogika və psixologiya fənlərini tədris etmişdir. 1926-cı ildə Odenvald məktəbinin təcrübəsini öyrənmək üçün Almaniyaya gedir, 14 mart 1927-ci ildə on gün həmin məktəbdə olur. 1927-ci ildə Almaniyadan Türkiyəyə dönmək məcburiyyətində qalır. Konyada açılan Qazi Orta Müəllim Məktəbində pedaqogika müəllimi kimi pedaqoji fəaliyyətə başlayır. Az sonra həmin məktəbin Ankaraya köçməsi ilə əlaqədar olaraq o da tələbələri ilə birlikdə Ankaraya gəlməyə məcbur olur, 1956-cı ilə - təqaüdə çıxana kimi bu məktəbdə (29 il) işləyir. 1936-1939-cu illərdə Təlim-Tərbiyə Kurulunda çalışarkən pedaqoji fəaliyyətdən ayrılmır, həmin təşkilatın "Tərbiyə" adlı jurnalında təhsil-tərbiyənin vacib problemləri ilə bağlı məqalələrlə çıxış edir.Həmin məktəb QaziEgitim İnstitutuna (indiki Qazi Universiteti) çevriləndə Xəlil Fikrət orada pedaqoji şöbə yaradır və ona rəhbərlik edir. O, 1945-1946-cı illərdə isə Türkiyə Kooperativ-*

## "Lisaniyyat-ədəbiyyat şöbəsi"ndə

Azərbaycan Ali Pedaqoji İnstitutu, gələcəkdə deyil artıq bu gün Azərbaycan və komşu türk ölkələrinin elm və irfan[204] həyatında böyük rollar oynuyor. Bu ali müəssisə, hər yıl Azərbaycanın yarım mədəni qəza şəhərlərinə dəstə-dəstə ikinci dərəcə məktəb müəllim və mürəbbiləri yolladığı kimi, Dağıstan, Krım, Özbəkistan...da ara-sıra Ali Pedaqoji İnstitutunun hədiyyələrini – burada təhsil alıb yurdlarına dönən öz gənc müəllimlərini – görüyorlar. Bir yerdə işıq yandırıldıqdan sonra onu yalnız bir məmləkəti, bir guşəni işıqlandırmaqda kullanmaq[205] olmaz. Muhakkak[206], bu işıq komşuların da havalisini[207] az-çox işıqlandıracaqdır.

İştə, bu ali müəssisənin "Lisaniyat və ədəbiyyat şöbəsi"ndə keçmiş bir sənəlik əməyim var. Lisaniyyat və ədəbiyyat şöbəsi bir tərəfdən qüvvətli pedaqoji meyli ilə təşkil edildiyindən, digər tərəfdən bilxassə lisaniyyat dərsləri üçün tələbələrimizin çox dəfə tamamilə hazırlıqsız bulunmasından zənn edilə bili-

*çilik Kurumuna rəhbərlik etmişdir. 15 kitab və kitabçanın, dərslik və dərs vəsaitinin, onlarla elmi məqalənin müəllifi olub.*

[204] *mədəniyyət*

[205] *istifadə etmək*

[206] *şübhəsiz*

[207] *burada:ərazisini*





yordu ki, bu şöbədə götürdüyüm dərslərdən bilxassə lisaniyyat dərsləri öz yerini bulamayacaq və tələbələrə anlaşılmayacaq.

Halbuki, türkoloji qurultayı münasibətilə, pək naqis kimi keçilən lisaniyyat (türkoloji) haqqında tələbələrdə gördüyüm maraq və bulduğum hazırlıq bu fikirlərin tamamilə yanlış olduğunu meydana qoydu. İnstitutun Ünas qismində lisaniyyat və türkoloji dərsləri, doğrudan da, yerlərini bulamamışlarsa, erkən qismində tamamilə məqsədə və gəncliyin marağına uyğun bilgi yolları olaraq tanıtmış və meyvə vermişlərdir. İləridə, şübhəsiz, lisaniyyat dərslərini bu şöbədə ziyanlaşdırmaq lazım gələcəkdir. Çünki lisaniyyat ilə ədəbiyyat arasındaki nisbət riyaziyyat iə təbiyyət arasındaki münasibət kimidir.

Riyaziyyatsız hikmət və yaxud təbiyyət ola bilmədiyi kimi lisaniyyatsız da ədəbiyyat dərslərini tamam müvəffəqiyyət ilə götürmək qəbul ola bilməz. Şöbəmizin bir nöqsanı var isə, o da kitabxana və kabinəcə pək ziyadə fəqir olmasıdır. Yaxında bu nöqsanın da ortadan qalxacağını ümid etmək mümkündür.

Bütün Bakı elmi və ədəbi təşkilatlarının öz iclaslarında qiraətxanalarında daima görüb tanıdıqları çalışqan, mütəvazi, bir az çəkingən institut tələbələri haqqında söz söyləməyə hacət görmüyorum. Yalnız bu sənə buraxılan gənc müəllim arqadaşlarımızın

sağlıq və müvəffəqiyyətlə işlərini götürmələrini səmimi ürəkdən istəyərək sözümü kəsiyorum.

İnstitut türkoloji və lisaniyyat müəllimi
professor ***Bəkir Çobanzadə***[208]

[208] ***Bəkir Vahab oğlu Çobanzadə*** *(1893-1938) Krımda, Tavrida vilayəti Simferopol qəzasının Qarasubazar şəhərində anadan olmuşdur. 1904-1908-ci illərdə doğma kəndlərində təlimin yeni üsulla təşkil edildiyi rüşdiyyə məktəbində təhsil alıb. 1909-1914 -cü illərdə Qalatasaray liseyi -"Sultaniyyə"də oxumuşdur. 1916-1920-ci illərdə Budapeşt Universitetinin Tarix-filologiya fakültəsində oxuyub. 1920-ci ildə "Кажущиеся сингармонические несоответствия в Кодексе Куманикусе" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1922-ci ildə Krım Universitetində Şərq fakültəsinin professoru seçilib. Baycan Baş Elmi İdarəsində Terminologiya Komitəsinə rəhbərlik etmiş, eyni zamanda Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində kafedra müdiri, dekan vəzifəsində çalışmışdır (1924-1929). Moskvada Şərq xalqları İnstitutunun həqiqi üzvü seçilmişdir (1928). Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspirantura şöbəsinin müdiri işləmişdir (1929). SSRİ EA Zaqafqaziya filialı Azərbaycan şöbəsinin (1932),Azərbaycan Yazıçılar İttifaqının (1934-1937) üzvü, SSRİ EA Azərbaycan filialının həqiqi üzvü seçilmişdir (1935). Paris Dilçilik Cəmiyyətinin üzvü olmuşdur. Azərbaycan Pedaqoji İnstitutunun Tarix-ədəbiyyat şöbəsinin ilk professorlarından biri olub.1933-1937-ci ildə Pedaqoji İnstitutda Linqvistika kafedrasına rəhbərlik edib.*





## Üçüncü nur qafiləsi[209]

İctimai həyatın yüksəlməsi iş bulmanın təcrübəli və bilikli əllərdə olmasına bağlıdır. Bu iş bulumu cəmiyyətin və zamanın ehtiyacına görə müxtəlif qruplar arasında təqsim[210] edilir. Bu günkü cəmiyyətlər ibtidai insanların qurmuş olduqları cəmiyyətlərə bənzəməz; zira ki tarixin bizə dumanlı olaraq göstərdiyi o cəmiyyətlərin həyat və təbiyyət haqqında olan məlumatları yanlış və məhdud olduğu üçün iş bulumu da məhdud idi. Bu gün güvvə-i fikriyəsi olduqca inkişaf etmiş olan millətlər xarüqələr göstəriyor, həyat və təbiyyətə daha ciddi, daha maraq və əsaslı olaraq çarışıyor və kəndinə lazım olan sərvət və möhtacı daha geniş və mükəmməl surətdə istehsal ediyor. İştə, bu münasibətlə də iş bulumu əvvəlkinə nisbətən pək yüksəlmiş və ehtiyac çoxalmış olduğundan şimdiki cəmiyyətlər iş bulumunu kəndi aralarında təqsim etmiş qruplardan və müəyyən siniflərdən qurulmuşdur.

Hər makinəyə enerji verən cəzələri[211] arasında saygı rabitə olduğu kimi bu siniflər arasında dəxi saygı bir münasibət, vahid bir cəbhə olmazsa, cəmiy-

[209] *karvan*
[210] *bölünmə*
[211] *hissə, komponent*

yətin həyat ictimaiyyə və iqtisadiyyəsində bir durğunluq vücuda gəlir. Bu günkü siniflər: işçi, çiftçi, hökumət dairələrində çalışan məmurlar, alimlər, şairlər, rəssamlar və müəllimlərdir. Bu günkü sinifləri təşkil edən hər fərdin də cəmiyyət işlərinin tərəqqisi yolunda böyük bir əhəmiyyəti var. Hər fərd kəndini bir sinfə bağlamaqla cəmiyyət üçün xeyirli olamaz. Yalnız vəzifəsini iyi anlamış, iyi öyrənmiş, şüurlu fəaliyyətə alışmış üzvlər böyük fayda verə bilir. Bütün siniflərin bütün üzvləri böylə olursa, ancaq o zaman bir hökumət və millət yaşar və yüksəlir. Zira ki, işçilik və çiftçiliklə keçinən millətlər çiftçilik və işçiliklə lazım olan alətləri olmazsa, böyük fayda verəməzlər. Böyük alimlər, şairlər, rəssamlar və müəllimlər yetişdirməyən millətlər kəndindən daha qutlu millətlərin təsir və nüfuzu altına girərək get -gedə əriməyə, məhv olmağa məhkum olur. Sağlam və canlı bir hökumət və cəmiyyət qura bilmək üçün hər millət ana dilində orta və ali məktəblərə sarılmışdır. Zira ki, o pək gözəl anlamışdır ki, hər şeyi yaradan məktəblər və müəllimlərdir. Məktəblər və müəllimlər olmazsa o millət içində vəzifəsini bilən alim və fəal sinif üzvləri yetişəməz. Məktəblər olmazsa, yabancı nasirlərdən qurtulmuş yaradıcı və müstəqil fikir sahibi alimlər çıxamaz. Məktəblər olmazsa, məktəbləri yaradan və ona kəndi ruh və enerjisini verən həqiqi müəllimlər, parlaq yıldızlar doğmaz. İştə məktəb həyatını quran həqiqi müəllimlər, məmləkətə la-





zım olan bütün sinif təşkilatını da gözəlcə qurmuş və iş bulumunu alim, fəal və şüurlu üzvlər əlinə vermiş olur ki, bu saatda hər millət, hər hökumət anlanıyor və yüksəliyor.

İştə, Ali Pedaqoji İnstitutu sıcaq qanadları altında basləməkdə olduğu, ədəbiyyat, riyaziyyat və təbiyyət ixtisas şöbələrini bu sənə ikmal etmiş olan gənc və həqiqi müəllimlərimiz həqiqi məktəbləri yaradacaq və həyat-i ictimaiyyənin həqiiqi üzvlərini yetişdirəcək və siniflər arasında sıxı bir rabitə doğuracaq və bu sayda şura Azərbaycan köylü və işçiləri gündən günə canlanacaq, yüksələcək, yaşamasına və tərəqqisinə əngəl olan maneələri qəlbinin nuru və damağının atəşilə ortadan qaldıra biləcəkdir.

Ona görə də Azərbaycan köylü və işçilərinə bəşarət olaraq deyirəm: qollarınızı açınız, səadət əməkçilərinin üçüncü nur qafiləsi gəliyor!

***Abdullah Şaiq***[212]

---

[212] ***Abdulla Şaiq*** *(1881- 1959) yazıçı, dramaturq, publisist, pedaqoq, ədəbiyyatşünas, tərcüməçi, 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar incəsənət xadimi (1940), Azərbaycan uşaq ədəbiyyatının banilərindən və Pedaqoji İnstitutun təşkilatçılarından biri olub. Şaiq Nümunə məktəbinin təşkili və pedaqoji məktəbə çevrilməsi onun adı ilə bağlıdır.*

## Üçüncü məzunlar münasibəti ilə

1921 sənəsində əvvəlinci dəfə açılmış olan institut bu sənə beş yaşını ikmal ilə maarif cəbhəsinə üçüncü ordusunu göndəriyor. Kəndli və fəhlə kütləsini yüksəltən şuralar siyasətində tərbiyə almış və elmin son fikir və nəzəriyyəsi ilə silahlanmış olan bu müəllim ordusu xalq kütləsi müvacəhəsində[213] aparacağı mübarizədə müvəffəqiyyət qazanacağı pək təbiidir.

İkinci dərəcəli məktəblərə tərbiyəçi sifəti ilə təyin ediləcək olan bu müəllimlərin savadsızlığı məhv etmək xüsusunda göstərəcəkləri fədakarlıq yalnız məktəb divarı arasında küçük bir sahəyə həsr edilməyib məktəbin dışarısında böyük sahədə yaşayan xalq kütləsində kök atmış xürafat və savadsızlığı yox etmək üçün mübarizə aparmağı birinci vəzifələri olduğunu da unutmamaları lazımdır. Bu cür təbii tərbiyə alan müəllimlər səyyarə-i ərazimizdə həyat və mexanikyatı idarə edən qüvvətin ancaq təbii bir qüvvət təsiri altında əmələ gəldiyini bildirməklə xalq kütləsinin ruhunu yüksəltəcəyinə inanmalıdırlar.

Həqiqiətən, kəndi işığı vasitəsilə səyyarə-i ərazimizə dağılan günəş istiliyi yerimizin hər hangi bir kütləsində qüdrət-i hüruriyyə şəklində gizlənmiş və

[213] *üzləşmə*





bunun nəticəsi olaraq yüz milyonlarca sənə əvvəl yaşamış nəbatların[214] istihaləsidən[215] əmələ gələn mədən kömürlərinin hər bir qramında yanmaq səbəbilə aşkar olan 8000 kalori qədər qüdrət-i hüruriyyəyə məlum olduğuna görə məcmu kütlədə gizlənən nəhayətsiz miqdarda mövcud bu qüdrətin doğuracağı əməl-i mexaniki də saysız dərəcədə olub bu günkü mexanikyatın da mənbəyi qüdrətdən anlamışdır. Hətta günəşimizin bu gün dəxi kəndi[216] tərəfindən göndərdiyi yovmiyə[217] qüdrəti milyarlarca at qüvvətində makinələri idarə edə biləcəyi hecab edilmişdir.

Bu surətlə günəşin qüdrət-i həruriyyəsi[218] bütün cismlərdə gizli və mekani[219] halından kimyəvi və fiziki təsir altında aşikar olaraq çərx-i aləmi idarə və tənzim edən, əldən-ələ keçən bir qüdrət xəzinəsi olduğunu bilməyən əzici və ruhi söndürücü bəşəriyyət üçün məzar hesab edərlər.

Fəqət institutun buraxdığı və bu sənədə buraxacağı məzunların təbiyyat, riyaziyyat, siyasi savad və ədəbiyyat sahəsində edindikləri[220] məlumatları bunlara təbiyyatın göstərdiyi təbii qanunlar dairəsi

[214] *bitkilər*
[215] *forma dəyişdirmə*
[216] *öz*
[217] *gündəlik, hər gün*
[218] *istilik qüvvəti*
[219] *mexaniki*
[220] *əldə etdikləri*

içərisində rəhbərlik edəcək qüdrəti vermiş olduğundan bu yolda kəndilərini məsud[221] hesab edə biləcəklərinə əmin olmalıdırlar.

Gün keçdikcə rəşt[222] halına girən institutun yetişdirəcəyi müəllimlərin rəhbərliyi sayəsində zülmət və cəhalət pək az vaxtda məhv olub yeni parlamış bu maarif yıldızı zalım mülkədarların pəncəsini qıracaq və şuralar idealına xidmət edən məsud bir kütlə əmələ gətirəcəkdir. Var olsun bu yolda çalışanlar.

**İ.Novruzi**

---

[221] *xoşbəxt*
[222] *yetkinlik halı*





## Türk ədəbiyyatı ilə fars ədəbiyyatının rabitəsi

İslami dövrdə vücuda gətirilmiş olan Türk ədəbiyyatının ən əski abidələri belə fars-ərəb təsirindən yaxalarını qurtaramamışlardır. Məsəla, təqribən yarım əsr Şahnamədən sonra yazılmış olan "Qutadqu bilig" bir çox nöqteyi-nəzərdən İran təsirini göstərir. Altmış sənə Şahnamədən daha gənc olan bu əsər Şahnamə kimi təqarib bəhrində söylənmişdir:

İl altmış iki yerdi dörd yüz ilə
Bir söz söylərdim bən tutub can-i şəhrə.

Bir taqım rəvan olmayan beytləri nəzərə alaraq "Qutadqu biliy"in heca vəznində söylənmiş olduğunu iddia edənlər yanılırlar. Azəri türkcənin şivəsində "ustad Rudəki" işini yapan Füzuli Bağdadinin əsərini mütaliə etdikdə koyu[223] bir fars təsiri nəzərə çarpar.

Məsəla:
Ah bilməm neylim qurtulmaq olmaz qeyddən,
Bən hərif sadə dil xuban cəmalı delqərib
Şəm-i qərbi ilə təvahir qılma ey pərvanə kim,
Hərmən əmrin yanar bərq fənadan ənqərib.

Beytlərində ərəbi-farsi kəlmələrin sayını türkcə kəlmələrin təqribən iki bərabəri olmaqla bərabər sifətlər və izafətlər dəxi farsidir.

---

[223] *burada: qatı*

İştə böylə sıxı bir rabitə vasitəsilə türk ədəbiyyatına əqrəba kəsilən fars ədəbiyyatını öyrənməmək türk ədəbiyyatının ***methode compaze*** (müqayisəli metod) dedikləri üsul ilə təhqiq etmək fars ədəbiyyatına aşina olmaqsızın pək gücdür. Ərəb dili layəmut[224] əsərinin bir çoxunu fars dahilərinə borclu olan kibi, fars dili dəxi bir çox şahkarlarını[225] türk dahilərinə mədyundur[226]. Zəmin və zaman icabı ilə fars dilində bədii sənət abidələrini yadigar buraxan türk dahilərini tanımamaq, türk dimağının[227] sənət-i aşina və sənət-i afərin olduğundan bixəbər olmaq deməkdir. Kəndi arzuları ilə degil, tarixi və ictimai qanunlar icabilə əcəmlər ərəb ədəbiyyatına, türklər də bir tərəfdən əcəm və digər tərəfdən ərəb ədəbiyyatına xidmət edirdilər. Zatən tarixçilərin zehniyyətinə görə türklük və farslıq degil, bəlkə, islamlıq bir millət-i vahidə kibi tələqqi[228] edilərdi. Qövmiyyətə[229] türk dimağının fəaliyyətini hər bir səhnədə görmək maraqlıdır.[230] Türk başını mizan etibarən qoymaq üçün yalnız Türk lisanındakı abidələri sərgiyə sərmək doğru deyildir, hər meydanda cövlan edə bildiyini göstərmək üçün və hətta ərəbcə belə vücuda gətirdikləri sənət abidələrini ortaya çıxarmaq lazımdır. Zəmin və zaman hökmü ilə Pəhləvi lisanı ilə ərəb kəlmələrindən bir xəlitə əmələ gələrək islami farsını təşkil edən kimi, türk lisanı ilə ərəb və fars kəlmələrindən bir xəlitə əmələ gələrək islami türkcəni təşkil eyləmişdir. İslami dövrdə türklərin katibi ədəbiyyat vücuda gətirdikləri zaman, altı-yeddi yüz sənə miladdan əvvəlkilərin əsərləri əldə bulunan (ostanın gata (gatha) qismi) qoca fars dilinin islami ədəbiyyatı mükəmməl surətdə inkişaf etmişdi. İranlılar ilə türklərin münasibəti dəxi yeni bir şey deyil, şahanə mənkıbələrinə[231] tarixçi mahiyyət atfedilməzsə[232] də Sasani şüurunun revabiti[233] tarixi bir mahiyyəti haizdir[234]. Bu surətlə İslam dinini qəbul etmiş olan İran yavaş -yavaş Türkləri dəxi kəndi nüfuzu və ədəbi hakimiyyəti dairəsinə almışdı. Zəhmətdən həzz alan Türk qafası bir tərəfdən kəndi lisanında çalışır və digər tərəfdən ərəb-əcəm əsərini zənginləşdirdi vaxtilə Avropa yazıçılarının əsərləri nümunə və örnək ittihaz[235] etdikləri kimi Türk yazıçıları dəxi islami ədəbiyyatı fars dilində bulunan qutlu əsəri örnək ittihaz edərək vü-

---

224 *ölməz*
225 *ən gözəl, baş əsər*
226 *borcludur*
227 *beyin, fikir*
228 *qəbul etmə*
229 *oxunmur*
230 *oxunmur*

231 *məşhur din adamları və ya qəhrəmanlar haqqında hədis, hekayə*
232 *burada: aid olmaq, kəsb etmək*
233 *burada: münasibəti*
234 *mahiyyət daşımaq*
235 *qəbul etmək, görmək*

cuda gətiriblər. Hətta fars ədəbiyyatı elm aləminin diqqətini cəlb etmiş həyatı olmasa da, sənət və lətafət etibarilə dünya ədəbiyyatının mühüm bir mövqeyinə keçmişdir. Məşhur müstəşraq[236] Berezin diyor: «*Для любителя литературы персидская поэзия одна достаточна, чтобы пленить внимание на долгое время*».

Yəni İran ədəbiyyatı həvəskarlarının diqqətlərini uzun müddət cəlb etmək üçün kifayət eylər.

Yenə Macar müstəşraqlarından olan Hammer Purgştal böylə söyləyər:

Osmanlı ədəbiyyat bağına girərkən "Aşiq paşa" kimi İran ədəbiyyatı abihəyatı ilə sorulmuş, yapraqları yaşıl, möhtəşəm xurma ağacı bütün təravət nəzarətilə qarşımızda duruyor.

İştə yuxarıdan bəri zikr edilib gələn mülahizələrdən dolayı Ali Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsi proqramına keçən sənə, bir də fars dili əlavə edilmişdi. Bu dərsin proqramını tərtib edərkən tələbələrin, fars dilində bulunan tarixçi vəsiqələr və adli[237] əsərlərdən az-çox istifadə edə biləcək bir qüvvəyə malik olmalarını nəzər atilərə[238] almışamdır. Əldə edilən nəticələrin göstərdiyim vəchlə hər sənə əsl məqsədə daha artıq yanaşmamız aşikar olur. Bu surətlə deyə biləriz ki, tələbələrimizin müvəffəqiyyəti

[236] *şərqşünas*
[237] *hüquqi*
[238] *gələcək*





getdikcə artıq Şuralar Azərbaycanının Ali Darülmüəlliminindən buraxılan cavan müəllimlər hər sənə daha mükəmməl və daha əsri[239] bir müəllim olaraq çıxıyorlar. Bu müəllimləri qaranlıq fəzalara ezam etmək Azərbaycanın ən hücra[240] yerlərinə parlaq bir mədəniyyət məşəli götürmək deməkdir. Yeni ruhlu və yeni fikirli cavan müəllimlərin qarşısında heç bir çətinlik qüvvəti davam edəmir. Şəksiz mövhumata, qaranlıq fikirlərə, köhnə adətlərə imansız bir zərbə vuracaq və şura şüarlarını camaat kütlələrinə təlqin və təlim edəcəklərdir. Məzlumların fikrini oyadan zalimlərə qarşı kəskin bir qılıc hökmünü alacaqdır. Məsai[241] məktəbinin nə olduğunu köylülərə qandıracaq, nemət və istirahətin zəhmətdə məndərəc[242] olduğunu anlatacaqdır. Vaqıa[243] Azərbaycanın pək məsud bir dövrə girməsinə inanmamaq qabil deyildir, nasıl qabil ola bilər ki, dünən istibdad dövründə Türkcə ibtidai məlumat almağına belə imkanı olmayan Türk oğlu Türk bu gün, Şura hökumətinin sayəsində Ali Darülmüəllimin bitirir!

Bin təfavüt ra əz kocast tabəkca!

[239] *müasir*
[240] *burada: çox uzaq*
[241] *əmək*
[242] *burada: Yer almaq, mövcud olmaq*
[243] *hərçənd ki*

Ali darülmüəllimin bitirən arkadaşlarımızın buraxılan günü Azəri türkləri üçün böyük bir bayramədd olmağa[244] layiqdir!

Əziz arqadaşlar girmək üzrə olduğunuz həyat imtahanında mövcud olmanızı səmim qəlbdən təmənni etməklə[245] məqaləmi bitirirəm.

Ali Pedaqoji İnstitutu
fars ədəbiyyatı müəllimi:
**Mirzə Möhsün**

---

[244] *sayılmağa*
[245] *arzu etmək*





## Şura müəllimləri

Bu gün Şura müəllimi namilə Azərbaycan ali pedaqoji institutunu bitirib, yarın fəhlə kəndli gənclərinə təlim tərbiyə verəcəksiniz! Əlbəttə ki, bu məktəbdən çıxan müəllimlər gərək şura həyatına yaramış olsunlar.

Şura həyatı isə iki hssədən ibarətdir ki, biri kənd təsərrüfatı, digəri isə fəhlə işləridir. Yəni buranı ikmal edən müəllimlər kəndlərə getdikləri zaman kənd təsərrüfatını yarada bilsin və həmçinin şəhərlərdə qaldıqları zaman şəhər işlərini aparmağa qabil olsunlar. Məktəblərə getdiyiniz vaxt iki təşkilat görəcəksiniz. Biri LKG ittifaqı, digəri isə pioner təşkilatıdır. Cavanlar İttifaqı ilə əlaqə saxlamaqla bərabər pioner təşkilatında işləməyə borclusunuz. Çünki sizin əsas sənətsiz tərbiyə verməkdir.

Son zamanlarda "Kəndə doğru" şüarına görə görüyoruz ki, müəllimlərin vəzifəsi və əhəmiyyəti daha da artıyor. Çünki kəndlərdə aparılan işlər və yapılan tərəqqilərdə görüyoruz ki, firqə və cavanlar ittifaqından başqa üç böyük qüvvə vardır ki, o da müəllim, doktor və aqronomdur. Odur ki, şura hökuməti bu məsələyə artıq fikir vermişdir. Bizim kənd təsərrüfatını qaldırmaqdan məqsədimiz sosializm yaratmaqdır. Bunun üçün də kənd təsərrüfatını büyükləşdirmək, makinələşdirmək və mədəniləşdir-

mək lazımdır. Şübhəsiz bu mədəniyyəti qurmaqdasız. Müəllimlər böyük rol oynamalısınız!

İstər şəhərlərdə, istər kəndlərdə məqsədimiz sosializm yaratmaq olduğundan bu barədə siz bu işə yardım edib kommunizmaya yaklaşmalısınız.[246] Əlbəttə ki, bu barədə zəhmətkeş kütləsi sizdən böyük ümidlə gözlüyor. Hələ bu kifayət deyil. Lazımdır ki, həyatda, mahiyyətdə aktiv olaraq iştirak edəsiniz. Təbiidir, bunun üçün də bilik (alət) lazımdır ki, müvəffəqiyyət qazanasınız.

Kəndlərdə siz, əvvəlinci maarifçi olmalısınız! Bu saat kənd həyatı və böyük labaratorya olmamışdır. Burada müxtəlif ictimai təşkilatlar vardır. Kənd əski kənd deyil. İmdi çox böyüyərək mərkəzləşmişdir.

Burada böyük alim, müəllim bir usta işləyə bilər ki, o ustalarsa bu gün maarif cəbhəsinə göndərdiyimiz siz şanlı şura müəllimləri ola biləcəksiniz!

*Əbdüləli Sərdarlı*

[246] *yaxınlaşmalı*





## Azərbaycan Ali Pedaqoji İnstitutu 1925-26 sənəsindəki məzunların sayını göstərən ümumi cədvəl

| sayı | Ad və familiyaları | hangi fakültəyi bitirib | hangi qəza və ya cümhuriyyətdəndir | nəharimi,-leyli mi |
|---|---|---|---|---|
| 1 | Sahib Hüseynzadə | Fizik-riyaziyyat | Lənkəran | leyli |
| 2 | Həsən Həsənzadə | " " | Ağdam | " " |
| 3 | Mehdi Mehdizadə | " " | Cəbrail | " " |
| 4 | Mustafa Cabbarzadə[247] | " " | Nuxa | " " |
| 5 | Mustafa İsmayılzadə | " " | Ağdaş | " " |
| 6 | Müseyib Qasımzadə | " " | Gəncə | " " |
| 7 | Hüseyn Həmidzadə | " " | " " | " " |
| 8 | Rəsul Rəhimli | " " | Şamaxı | " " |
| 9 | Firidun Mahmudbəyli | " " | Şamaxı | " " |
| 10 | Rizvan Kaşizadə | " " | Nuxa | " " |
| 11 | Əlişah Məhəmmədov | " " | " " | " " |
| 12 | Səfər Ramazanov | " " | Lənkəran | " " |
| 13 | Tofiq Ağayev | " " | Şamaxı | " " |
| 14 | Kərim Kərimzadə | " " | Göyçay | " " |

[247] ***Musatafa Cabbarzadə*** *(1903-1962) Nuxada (Şəki) anadan olub. 1926-1935-ci illərdə II dərəcəli məktəblərdə fizika müəllimi, 1935-40-cı illərdə Bakı Elektro Texnikumunda tədris hissə müdiri, Şəki XMŞ –nın müdiri, Şəki Toxuculuq Texnikumunun müdiri vəzifələrində çalışmışdır. Oğlu Vaqif ADPU-nun dosentidir.*

| | | | | |
|---|---|---|---|---|
| 15 | Hacıbala İsmayılzadə | " " | " " | " " |
| 16 | Sadıq İbrahimzadə | " " | " " | " " |
| 17 | Soltan Ağazadə | " " | " " | " " |
| 18 | Bəhmən Məhəmmədzadə[248] | " " | Şuşa | " " |
| 19 | Əli Əşrəf Hacızadə | " " | Nuxa | " " |
| 20 | Abassi Abbaszadə | " " | Təbriz | nəhari |
| 21 | Ziya Azaqbəyli[249] | " " | Nuxa | " " |
| 22 | Məhəmmədbağır Əlizadə | Təbiyyat aqronomi | Göyçay | leyli |
| 23 | İdris Musazadə | " " | Gəncə | " " |
| 24 | Hacı Hacızadə | " " | " " | " " |
| 25 | Əmin Abdullazadə | " " | Şamaxı | " " |
| 26 | Yusif Məhəmmədzadə | " " | Göyçay | " " |
| 27 | Yəhya İsmayılzadə | " " | " " | " " |
| 28 | Musa Əfəndizadə | " " | Ağdaş | " " |
| 29 | Zahid Əlizadə | " " | Nuxa | " " |
| 30 | Həsən Əfəndizadə | " " | " " | " " |
| 31 | Zahid Həmidzadə | " " | Nuxa | leyli |
| 32 | Ədhəm Əfəndizadə | " " | " " | " " |
| 33 | Əsəd Cəfərzadə | " " | Naxçıvan | " " |
| 34 | Yusif Məhəmmədəlizadə | " " | Ordubad | " " |
| 35 | Ədhəm Mustafazadə | " " | Nuxa | " " |
| 36 | Səfərəli Mustafazadə | " " | Ağdaş | " " |
| 37 | Həsən Musazadə | " " | Şərqi Türküstan | " " |

[248] ***Bəhmən Məhəmmədzadə*** *(1896-1937) Şuşa şəhərində anadan olub. Şuşa ali ibtidai məktəbini, 1926-cı ildə Ali Pedaqoji İnstitutu bitirib, fəhlə və II dərəcəli məktəblərdə riyaziyyat müəllimi işləyib. 1937-ci ildə repressiya olunub. Prof. Hümeyr Əhmədovun ana babasıdır.*

[249] ***Ziya Azaqbəyli*** *görkəmli Azərbaycan şairi Hikmət Ziyanın atasıdır.*





| | | | | |
|---|---|---|---|---|
| 38 | Həmid Osmanzadə | " " | Krım | " " |
| 39 | Kəlam Əbdülhəmidzadə | " " | " " | " " |
| 40 | Kərim Kərimzadə | " " | Ağdam | " " |
| 41 | Məhəmməd Əliəkbərzadə | Tarix-ədəbiyyat | Lənkəran | " " |
| 42 | Mikayıl Rzaquluzadə | " " | Bakı | " " |
| 43 | Ağamirzə Axundzadə | " " | " " | " " |
| 44 | Əli Hüseynzadə | " " | " " | " " |
| 45 | Əhəd Məhəmmədyarlı | " " | Quba | " " |
| 46 | Məhəmməd Teymurxanlı | " " | " " | " " |
| 47 | Hüseyn Körükçü | " " | Krım | " " |
| 48 | Osman Toplu | " " | Krım | " " |
| 49 | Şamil Vəzirov | " " | Cəbrayıl | " " |
| 50 | Zülfüqar Abdullahzadə | " " | Şuşa | |
| 51 | Saleh Məhəmədzadə | " " | Ağdaş | " " |
| 52 | Bəktaş Heydərzadə | " " | Özbəkistan | |
| 53 | Məhəmməd Əkbərov | " " | Türkmənistan | " " |
| 54 | Tələt Talıbzadə | " " | Tiflis | nəh |
| 55 | Cavad Axundzadə | " " | Bakı | nəh. |

Dövlət Pedaqoji İnstitutunun
müdir müavini: **Mahmudbəyov**
Katib: **Hüseynzadə**

## Mündəricat

**Rüstəmov F.A.** *Ali Pedaqoji İnstitutun ilk yubileyi və ya beş illik tarixin salnaməsi ("Ön söz")* ....................3

"Azərbaycan Ali Pedaqoji İnstitutu.
BEŞ YILLIQ"
Ali Pedaqoji İnstitutu tarixçəsi

**Cəlil Məhəmmədzadə.** Beş yıl ....................42

**Tədris və tərbiyə işləri**

**İsmayıl Hikmət.** Tarix-ədəbiyyat şöbəsi ....................47
**Osmanzadə S.** Təbiyyət-aqronomi şöbəsi ....................53
**Əfəndizadə M.** Fizik-riyaziyyat şöbəsi ....................60
**Ubaydullin Ə.** Tarix-ictimaiyyat şöbəsi ....................69
**Xuramoviç S.** Azərbaycan Ünas Pedaqoji İnstitutu və onun gələcəyi ....................73
**Əfəndizadə Q.** Şaiq adına Pedaqoji Texnikumu ....................80

**İdarə və təşkilat işləri**

**H.Mahmudbəyli.** İnstitutun təsərrüfatı barəsində ....................82
**M.Həmzəzadə.** Ali Pedaqoji İnstitutunun tələbə icraiyyə bürosu.....87
**S.Ramazanov.** İnstitut firqə özəyi ....................97
**Rəhimə Səlim.** Ünas Pedaqoji İnstitutunda firqə həyatı ....................101
**A.Əsgərzadə.** İnstitut LKGİ özəyi ....................104

**Xatirələr və duyğular**

**Fikrət X.** Yeni müəllim arkadaşlarıma tövsiyələr ....................111
**Çobanzadə B.** "Lisaniyyat-ədəbiyyat şöbəsi"ndə ....................122
**Şaiq A.** Üçüncü nur qafiləsi ....................125
**Novruzi İ.** Üçüncü məzunlar münasibəti ilə ....................128
**İbrahimi M.** Türk ədəbiyyatı ilə fars ədəbiyyatının rabitəsi ....................131
**Sərdarlı A.** Şura müəllimləri ....................137
Azərbaycan Ali Pedaqoji İnstitutu 1925-26 sənəsindəki məzunların sayını göstərən ümumi cədvəl ....................139

**Azərbaycan Ali Pedaqoji İnstitutu. Beş illik.**
(Tərtib, transliterasiya, izahlar, şərhlər
və "Ön söz"ün müəllifi: **prof.F.A.Rüstəmov).**

"Elm və təhsil" nəşriyyatının direktoru:
*professor* **Nadir MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 27.09.2020
Şərti çap vərəqi 9. Sifariş № 578
Kağız formatı 84x108 1/16. Tiraj 500

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4

*Ali Pedaqoji İnstitutun direktorları*



*Fətulla bəy Rzabəyli*



*Məmməd bəy Əfəndiyev*

**1921**



*Həbib bəy Mahmudbəyov*

**1926**



*Şarif Manatov*



*Cəlil Məmmədzadə*